Xalqın qəzeti!

# Xalq qəzeti

№ 219 (30913) 11 oktyabr 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

***Azərbaycan Prezidentinin Düşənbə açıqlaması:***

*– Bu ilin iyununda Laçında “MDB-nin mədəniyyət paytaxtı İli”nin açılış mərasimi keçirildi. Azərbaycanın bu qədim torpağının tarixi, mədəni irsi haqqında məlumat verildi.*

*– Birliyin həyatında daha bir mühüm hadisə sentyabrın 28-dən oktyabrın 8-dək qədim Gəncə şəhərində - XII əsrin dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin vətənində keçirilən III MDB Oyunları oldu. 13 ölkədən – həm MDB üzvləri olan, həm də qonaq ölkələrdən 1600-dən çox idmançı qəbul edildi.*

# MDB məkanında dostluq və qarşılıqlı maraqlara əsaslanan münasibətlər möhkəmlənir

## *Azərbaycan Prezidentinin Tacikistana səfəri*

## Prezident İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Düşənbədəki “Millət” sarayına gəlib






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Düşənbədəki "Millət" sarayına gəlib.**

**Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon dövlətimizin başçısını qarşılayıb.**

## AZƏRBAYCAN–RUSİYA: səmimiyyət hərarət gətirəcək



Səhifə ⇨ 5

## İlham Əliyev: liderlik, diplomatiya və regional tarazlıq

**Oktyabrın 9-da Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə təkbətək görüşü regional güc balansında yeni mərhələnin rəmzi kimi dəyərləndirilə bilər. Prezident İlham Əliyev Tacikistan paytaxtına MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün səfər etmişdi, lakin səfərin əsas məğzi məhz ikitərəfli formatda aparılan bu strateji dialoqda cəmləndi.**

Bəs bu görüş diplomatik protokolun tərkib hissəsi idi, yoxsa region diplomatiyasında yeni güc kodlarının formalaşmasının siyasi manifesti?

Prezident İlham Əliyevin Düşənbədə nümayiş etdirdiyi davranış tərzi Azərbaycan diplomatiyasının hansı fəlsəfəsini əks etdirirdi: dəyişməz prinsipiallığı, yoxsa çevik praqmatizmi? Rusiya ilə münasibətlərdə bu balanslı xətt hansı strateji mesajları ehtiva edir?

*(ardı 4-cü səhifədə)*



## Qarabağın Zəfər ünvanlı yolları



Səhifə ⇨ 9

## İrəvanda sülh əleyhdarlarının davakar çağırışları ara vermir



Səhifə ⇨ 5

## Gediş haqları qalxır, xidmət isə yerində sayır



Səhifə ⇨ 11

# Azərbaycan və Tacikistan prezidentlərinin təkbətək görüşü



**Oktyabrın 10-da Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olub.**

Söhbət zamanı iki ölkənin dövlət başçılarının Azərbaycanda və Tacikistanda, həmçinin beynəlxalq tədbirlər çərçivəsində görüşləri məmnunluqla xatırlandı, yüksəksəviyyəli qarşılıqlı səfərlərin müxtəlif sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi işinə verdiyi töhfəyə toxunuldu.

MDB Dövlət Başçıları Şurasının Düşənbədə keçirilən iclasının aktual məsələlərin müzakirəsinə yaxşı imkan yaratdığı qeyd edildi.

Görüşdə Azərbaycan və Tacikistan prezidentləri əlaqələrimizin uğurla inkişaf etdiyini vurğuladılar və əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi apardılar.

# Prezident İlham Əliyev MDB ölkələri liderlərinin məhdud tərkibdə iclasında çıxış edib



**Oktyabrın 10-da Düşənbədə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda çıxış edib.**

## Prezident İlham Əliyevin çıxışı




– Hörmətli Emoməli Şərifoviç.

Hörmətli həmkarlar.

Əvvəlcə qonaqpərvərliyə, tədbirimizin yüksək səviyyədə təşkilinə görə Tacikistan Prezidenti hörmətli Emoməli Şərifoviç Rəhmona təşəkkürümü bildirmək istərdim.

Qardaş Tacikistan xalqını Prezidentin rəhbərliyi ilə əldə olunmuş uğurlar və nailiyyətlər münasibətilə təbrik etmək istərdim.

Düşənbədə dəfələrlə olarkən ölkənin paytaxtının necə sürətlə inkişaf etdiyini, yeni binaların tikildiyini görürəm. Bütün bunlar bizi dost kimi çox sevindirir. Şəhərsalma sahəsində uğurlar münasibətilə təbrik edirəm və Düşənbənin ildən-ilə gözəlləşdiyinə şadam.

Bu gün, həmçinin Tacikistan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin ardıcıl inkişafını qeyd etmək istərdim. Onlar qardaşlıq, dostluq, qarşılıqlı dəstəyə əsaslanır və böyük inkişaf potensialına malikdir.

Bugünkü iclasda humanitar sahədə əməkdaşlığın möhkəmləndirilməsi məsələlərinə toxunmaq istərdim. Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhərinin bu il MDB-nin mədəniyyət paytaxtı kimi namizədliyini dəstəklədiklərinə görə MDB dövlət başçılarına təşəkkürümü bildirirəm. Bu ilin iyununda Laçında "MDB-nin mədəniyyət paytaxtı İli"nin açılış mərasimi keçirildi, Azərbaycanın bu qədim torpağının tarixi, mədəni irsi haqqında məlumat verildi. Tədbirin qonaqları Laçının Ermənistanın 30 illik işğalından azad ediləndən sonra sürətli dirçəlişinin əyani şəkildə şahidi oldular. Tamamilə dağıdılmış şəhər bir neçə il ərzində ən gözəl və yaşayış üçün rahat şəhərlərdən birinə çevrilib.

Birliyin həyatında daha bir mühüm hadisə sentyabrın 28-dən oktyabrın 8-dək qədim Gəncə şəhərində - XII əsrin dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin vətənində keçirilən III MDB Oyunları oldu. Gəncə ilə yanaşı, Azərbaycanın daha altı şəhərində - Qəbələ, Göygöl, Yevlax, Mingəçevir, Xankəndi, Şəkidə 13 ölkədən – həm MDB üzvləri olan, həm də qonaq ölkələrdən 1600-dən çox idmançı qəbul edildi. Bu qəbildən tədbirlər MDB məkanında və onun hüdudlarından kənarda dostluğu, əməkdaşlığı möhkəmləndirir, bərabərhüquqlu, qarşılıqlı maraqlara və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin güclənməsinə kömək edir.



Diqqətinizə görə təşəkkür edirəm.

**Prezident Emoməli Rəhmon:** İlham Heydər oğlu, sağ olun.

# Düşənbədə MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası

## *Azərbaycan Prezidenti İlham Əliyev məclisdə iştirak edib*









**Oktyabrın 10-da Düşənbədə MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Tədbirdə Tacikistan Prezidenti Emoməli Rəhmon, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov, Müstəqil Dövlətlər Birliyinin (MDB) Baş katibi Sergey Lebedev və Birliyin MDB İnsan hüquqları komissiyasının sədri, Rusiyanın insan hüquqları üzrə müvəkkili Tatyana Moskalkova çıxış ediblər.

Sonra tədbirin yekun sənədləri imzalanıb.

İclasda Tacikistan Prezidenti Emoməli Rəhmona "Humanitar əməkdaşlığın inkişafında xidmətlərə görə" medalı təqdim olunub.

# MDB dövlət başçılarının şərəfinə təşkil olunan rəsmi qəbul



**Oktyabrın 10-da Düşənbədə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun adından MDB dövlət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

***AZƏRTAC***



# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 295**

**Bakı şəhəri, 8 oktyabr 2025-ci il**

***“Rəqəmsal inkişaf və elektron hökumətlə bağlı görülən işlərin və həyata keçirilən tədbirlərin icrasına məsul vəzifəli şəxslərin (ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanları, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri istisna olmaqla) fəaliyyətinin qiymətləndirilməsi meyarları”nın təsdiq edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli 287 nömrəli Fərmanının 3.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Rəqəmsal inkişaf və elektron hökumətlə bağlı görülən işlərin və həyata keçirilən tədbirlərin icrasına məsul vəzifəli şəxslərin (ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanları, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri istisna olmaqla) fəaliyyətinin qiymətləndirilməsi meyarları” təsdiq edilsin (əlavə olunur).

**2.** Mərkəzi və yerli icra hakimiyyəti orqanları (ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanları, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri istisna olmaqla), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və digər büdcə təşkilatları rəqəmsal inkişaf və elektron hökumətlə bağlı görülən işlərin və həyata keçirilən tədbirlərin icrasına məsul vəzifəli şəxslərin fəaliyyətinin bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən meyarlar əsasında illik qiymətləndirməsinin nəticələrini təsdiqedici sənədlərlə birlikdə hər növbəti təqvim ilinin yanvar ayının 30-dək Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə və “Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 aprel tarixli 1315 nömrəli Fərmanının 1-ci hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə təqdim etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# FHN Akademiyasında andiçmə və məzun günü





**Oktyabrın 10-da Fövqəladə Hallar Nazirliyinin Akademiyasında gənc kursantların hərbi andiçmə və məzunların təntənəli buraxılış mərasimi olub.**

Mərasimdə çıxış edən fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov kursantları, məzunları və onların valideynlərini təbrik edib. Nazir builki mərasimin ölkəmizdə yaranmış yeni ruh yüksəkliyi şəraitində keçirildiyini diqqətə çatdırıb. O deyib: “Ümummilli Lider Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrdə təhsilin inkişafı üçün ciddi addımlar atıb. Bu gün Heydər Əliyev siyasətinin davamçısı, Prezident İlham Əliyev təhsilin müasirləşməsinə və inkişafına böyük diqqət yetirir. Dövlətimizin başçısının təşəbbüsü ilə xüsusi dövlət proqramları həyata keçirilir və aparılan təhsil islahatları uğurlu nəticələr verir. FHN Akademiyasında ötən müddət ərzində maddi-texniki bazanın yaradılması, kursantların tədris və təliminin, sosial-məişət şəraitinin müasir tələblərə uyğun təmin edilməsi istiqamətində işlər görülüb".

Akademiyanın rəisi, general-mayor Baba Salayev bu tədris ilində Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanlarda gənc kursantların göstəricilərindən danışıb, akademiyaya qəbul olan kursantların valideynləri adından Eldəniz Tağıyev məzun və kursantları təbrik edərək onlara uğurlar arzulayıb.

Sonra mərasim “leytenant” hərbi və xüsusi rütbələri verilmiş məzunlara diplomların təqdim olunması ilə davam etdirilib.

Akademiyanı əla qiymətlərlə bitirmiş məzun leytenant Əli Əliyev akademiyanın məzunlarının buraxılış rəmzi olan xatirə lövhəsini “Yaş kötüyü”nə vuraraq məzun yoldaşları adından and içib.

Məzunlar akademiyanın bayrağı ilə vidalaşaraq onu IV kurs kursantlarına təhvil veriblər.

FHN-in Akademiyasının bayrağı altında şəxsi heyətin təntənəli keçidi ilə mərasim başa çatıb.

# Kibertəhlükəsizlik sərgisi ilə tanışlıq



**Bakı Konqres Mərkəzində keçirilən “Critical Infrastructure Defense Challenge – CIDC-2025” (CIDC-2025) beynəlxalq kiberfestivalının ikinci günü tədbirin rəsmi qonaqları və tədbir iştirakçıları “Kibertəhlükəsizlik” sərgisi ilə tanış olublar.**

Dövlət rəsmiləri - Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəis müavini general-mayor Allahverən İsmayılov, Dövlət Təhlükəsizliyi Xidmətinin rəis müavini, ədliyyə general-mayoru Həsən Mansurov, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Kibertəhlükəsizlik əməliyyatları mərkəzinin rəisi Davud Rüstəmov və digər rəsmilər CIDC-2025-də təqdim olunan kibertəhlükəsizlik həlləri ilə tanış olublar.

Qeyd edək ki, bu il CIDC-2025-in kibertəhlükəsizlik sərgisində 41 yerli və xarici şirkət informasiya təhlükəsizliyi, risklərin idarə olunması və şəbəkə qorunması sahələrində ən son texnologiyaları təqdim edib. Eləcə də sərgi çərçivəsində ziyarətçilər üçün interaktiv ekranlarda aralıq yarışlar və viktorina sessiyaları da keçirilir.

***XQ***

# Ağdərədə yeni kütləvi məzarlıq aşkar edilib

**Ağdərənin Ballıqaya kəndi ərazisində axtarışlar zamanı 10 və daha çox şəxsə aid olan qalıqlar aşkar edilib.**



Bu barədə ərazidə jurnalistlərə məlumat verən Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının əməkdaşı Zaur İsmayılov bildirib ki, insan qalıqlarının aşkar edildiyi yerlər əlverişli döyüş mövqeyi olub: “Buradan Ballıqaya, Sırxavənd, Bəşirlər və Narışlar kəndlərini nəzarətdə saxlamaq olur. Birinci Qarabağ müharibəsi dövründə bu ərazilərdə qızğın döyüşlər gedib. Şahidlərin ifadələrinə görə, 1993-cü ilin yanvar ayında Ermənistan hərbçiləri Azərbaycan hərbçilərini mühasirəyə alıblar. Qeyri-bərabər döyüşdə könüllülərdən ibarət heyət qəhrəmancasına həlak olub, meyitləri Azərbaycan tərəfinə qaytarılmayıb.

Axtarışlar zamanı burada 10 və daha artıq insana məxsus qalıqlar aşkarlanıb. Bu, ilkin vəziyyətdir. Burada işlər davam etdiriləcək, ərazi daha geniş axtarılacaq. Qalıqlar götürüləndən sonra alt hissə bir də yoxlanılacaq. Bu sayın artacağı istisna olunmur”.

*

**İtkin düşmüş şəxslər üzrə Bakı Dialoqu çərçivəsində “İtkin düşmüş şəxslər probleminin həlli üçün səylərin birləşdirilməsi və əməkdaşlığın genişləndirilməsi” mövzusunda beynəlxalq konfransın iştirakçıları Ağdərə rayonunun Ballıqaya kəndi ərazisində əvvəllər döyüş mövqeyi olmuş yüksəklikdə aşkarlanan kütləvi məzarlığı ziyarət ediblər.**




Qonaqlara məlumat verilib ki, bu, işğaldan azad edilmiş ərazilərdə aşkarlanmış 29-cu kütləvi məzarlıqdır. Kütləvi məzarlıqda axtarış-qazıntı işi Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında toplanmış məlumatlar və şahid ifadələri əsasında aparılır.

İştirakçılar sonra ərazidə aşkarlanmış mina və partlamamış sursatların məhv edilməsi prosesini izləyiblər.

*

**Beynəlxalq konfransın iştirakçıları oktyabrın 10-da Azərbaycanın tarixi və mədəniyyətinin simvolu olan Şuşa şəhərinə səfər ediblər. Onlar vaxtilə azərbaycanlı əsir və girovların saxlandıqları, dəhşətli işgəncələrə məruz qaldıqları Şuşa həbsxanası ilə tanış olublar.**

Bildirilib ki, Şuşa şəhəri 1992-ci il mayın 8-də Ermənistan silahlı birləşmələri tərəfindən işğal edildikdən sonra burada azərbaycanlı əsir və girovlar çox ağır şəraitdə saxlanılıb. Dövlət Komissiyasında olan məlumata görə, 400 nəfərə yaxın əsir və girov götürülmüş şəxs burada saxlanılıb. Onlardan 216 nəfəri komissiyanın səyləri nəticəsində azad olunub.

Həmin insanların böyük əksəriyyəti sonralar çəkdikləri əzab-əziyyət və mənəvi-psixoloji işgəncələr nəticəsində həyatlarını itiriblər. Həbsxanada saxlanılan əsir və girovlara çox dəhşətli şəkildə işgəncələr verilib. Burada ölən, öldürülən əsir və girovlar ərazidə qeyri-insani şəraitdə dəfn ediliblər.

2023-cü ildə bu ərazidə insan qalıqları aşkar edilib, üç mərhələdə qazıntı işləri aparılıb. Arxeoloqlar, antropoloqlar, eyni zamanda, məhkəmə tibbi ekspertləri əraziyə cəlb ediliblər. Ərazidə 31 nəfər insan qalığı aşkarlanıb.

***XQ***

# İqtisad Universiteti dünya minliyində!

**Prezident İlham Əliyevin “Azərbaycan Dövlət İqtisad Universiteti dünya səviyyəli universitet olmalıdır!” tapşırığının icrası istiqamətində yeni uğura imza atılıb.**

AZƏRBAYCAN • DÖVLƏT • İQTİSAD • UNİVERSİTETİ
1930

THE Dünya Universitetlər Reytinqi 2026-ya UNEC markası ilə bu il ilk dəfə daxil olan Azərbaycan Dövlət İqtisad Universiteti ölkəmizdə və Cənubi Qafqazda birinci, dünyada isə 801–1000-ci yer aralığına yüksəlib.

Xatırladaq ki, İqtisad ADİU dünyanın ən yaxşı 1000 ali məktəbi sırasına daxil olan yeganə Azərbaycan universitetidir. Tədqiqat keyfiyyətinə görə isə bu ali məktəb dünyada 481-cidir.

*Xuntaçıların məhkəməsi*

# İstintaq sənədləri Ermənistanın hərbi cinayətlərinə şahidlik edir

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə, müharibə və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 10-da davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında Azərbaycana qarşı törədilmiş cinayət hadisələrinə dair ümumi faktlar və dövlət qurumlarından Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərinə hücumları nəticəsində həlak olmuş, itkin düşmüş şəxslərlə, habelə inzibati binalara, yaşayış evlərinə, ekologiyaya, dini və mədəniyyət abidələrinə və s. dəymiş ziyanla bağlı daxil olmuş statistik məlumatlar açıqlanıb.

Elan olunan sənədlərə Azərbaycanın müxtəlif nazirik, komitə, agentlik, rayon və şəhər icra hakimiyyətlərindən və sair qurumlarından daxil olmuş məlumatlar daxildir. Sənədlərdən görünür ki, 2020-ci il oktyabrın 4-də Ermənistanda Azərbaycanın mülki əhalisi arasında təşviş yaratmaq məqsədilə Gəncənin atəşə tutulması ilə bağlı qərar qəbul edilib. Ermənistanın beynəlxalq qınağa məruz qalmaması üçün həmin vaxt müdafiə naziri David Tonoyanın tövsiyəsi ilə qondarma rejimin “rəhbəri” Arayik Harutyunyan, guya, Gəncənin Ermənistan ərazisindən deyil, məhz onun əmri ilə Qarabağ ərazisindən vurulması ilə bağlı bəyanatla çıxış edib.

Arayik Harutyunyan 2021-ci il fevralın 16-da Rusiya sülhməramlı kontingentinin nümayəndələri ilə görüşü zamanı fevralın 17-də 13-18 nəfər azərbaycanlının cəsədinin təhvil veriləcəyini, istehza ilə “həmin cəsədlərin təhvil verilməsinin Xocalı soyqırımından sonra Azərbaycana hədiyyə olduğunu” bildirməklə təqdim edib.

Bundan başqa, A.Harutyunyan Ermənistan hərbçiləri tərəfindən 1992-ci ilin fevral–mart aylarında azərbaycanlı xüsusi təyinatlı milis əməkdaşlarının divar qarşısında düzdürülərək güllələnməsi barədə fikir söyləyib.

Həmin sənədə əsasən, Arayik Harutyunyan 2022-ci il avqustun 5-də Laçın rayonunun Sarıbaba kəndi ərazisində həlak olmuş Azərbaycan Silahlı Qüvvələrinin müddətli həqiqi hərbi qulluqçularının üzərinə qaya parçasını Ermənistan hərbçilərinin qəsdən yuvarladığı barədə məlumata malik olması da öz əksini tapıb.

Başqa sənədə əsasən 7 nəfər təqsirləndirilən şəxs - Arkadi Qukasyan, Bako Sahakyan, Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Babayan, Davit İşxanyan, David Manukyan barəsində məlumatları, yəni anket məlumatları, təhsil, qondarma qurumda tutduqları “vəzifələri”, 90-cı illərin əvvəllərindən qondarma qurumun qanunsuz fəaliyyətində rolu, 2016-cı ilin Aprel döyüşlərində, 2020-ci ildə 44 günlük müharibədə iştirakları və sair kimi məlumatlar öz əksini tapıb.

Digər sənədə əsasən müəyyənləşdirilib ki, Azərbaycanın vaxtilə Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərində qondarma qurumun maliyyələşdirilməsi Ermənistan tərəfindən həyata keçirilib.

Bundan başqa qeyd edilib ki, ərazilərimiz işğaldan azad edildikdən sonra orada çoxsaylı silah-sursat və digər qurğular aşkar edilib. Həmin silahlar içərisində iriçaplı silahlarla yanaşı, tank, top və digər bu kimi döyüş təyinatlı avadanlıqlar olub.

Digər sənədə əsasən, yutubda yer almış və cinayət işinin materiallarına əlavə edilmiş videomateriallardan görünür ki, döyüş səhnələri real olaraq qeydə alınıb, görüntülər zamanı müxtəlif zirehli texnikalarla, hərbi paltarlı şəxslər müxtəlif silahlarla müxtəlif istiqamətlərdə atəşlər açır.

Növbəti kadrlarda Birinci Qarabağ müharibəsində müxtəlif sayda hərbi geyimli azərbaycanlının qətlə yetirilərək öldürüldüyü, torpaq üzərində cansız cəsədlərinin qaldığı, Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən azərbaycanlı hərbçinin əsir olaraq saxlanıldığı, əsir götürülmüş Azərbaycan əsgərləri görünür. Əsir götürülmüş şəxsə zor tətbiq edilir, onunla pis rəftar olunur və ona müxtəlif formada zorakılıq göstərirlər. Videoda əsirin sifət nahiyəsinin sağ tərəfindən qan axdığı müşahidə olunur, viran qoyulmuş ərazimizdə Ermənistan silahlı qüvvələrinin hərbçiləri talançılıqla məşğul olur.

Məhkəmə prosesi oktyabrın 13-də davam etdiriləcək.

***XQ***

# İlham Əliyev: liderlik, diplomatiya və regional tarazlıq

**(əvvəli 1-ci səhifədə)**

Ən əsası — bu görüş Azərbaycanın çoxvektorlu siyasətində yeni bir mərhələnin başlanğıcını simvolizə edir? Bu sualların cavabı Düşənbə görüşünün həm siyasi, həm də simvolik dərinliyində gizlənir. Hazırda həmin görüşün strateji mənasını, liderlik amilinin rolunu, "prinsipial praqmatizm" modelinin mahiyyətini və regiondakı yeni diplomatik reallıqları mərhələli şəkildə açmağa çalışmışıq.

Görüşün baş verdiyi məqam da onun simvolikasını dərinləşdirir: qlobal sistemdə mərkəzlərin sürətlə çoxaldığı, regional güc qütblərinin yenidən formalaşdığı bir dövrdə Azərbaycan dövlət başçısının Rusiya ilə dialoqunu balans və bərabərlik üzərində qurması, əslində, çoxvektorlu siyasətin strateji sabitlik fəlsəfəsini nümayiş etdirdi.

Düşənbə görüşünün strateji mənası və simvolikası, ilk növbədə, liderlik amilində cəmlənir. İlham Əliyevin bu görüşdə nümayiş etdirdiyi davranış tərzi dövlət siyasətinin fərdi iradə ilə necə vəhdət təşkil etdiyini bir daha göstərdi. Burada liderlik yalnız protokol jestləri və diplomatik ritorika ilə məhdudlaşmır, əksinə, siyasi qərarların məntiqi ardıcıllığında, tonun seçilməsində və danışıqların ab-havasında təcəssüm tapır. İlham Əliyevin tərzi – sakit, lakin sərt məntiq üzərində qurulan praqmatizm onu region diplomatiyasında istiqamətverici liderə çevirib.

Bu görüş, əslində, dövlət siyasətində şəxsiyyət amilinin nə qədər mühüm olduğunu nümayiş etdirdi. İlham Əliyevin qərarvermə prosesi emosiyadan deyil, hesablamadan doğur, lakin bu hesablamanın içində milli iradənin birmənalı qətiyyəti var. O, diplomatiyanı bir alqı-satqı prosesindən çox, siyasi suverenliyin qorunma məkanına çevirir. Məhz bu yanaşma Azərbaycanı danışıqlarda səsi sabit, arqumenti əsaslı, mövqeyi dəyişməz edir. Dövlət başçısının siyasi kimliyi artıq bütöv diplomatik sistemin xarakteridir.

Düşənbə görüşünün "zəfər" kimi dəyərləndirilməsi də strateji mahiyyət daşıyır. Müasir siyasətdə qələbə onun təqdimolunma üsuludur. Daxildə "zəfər" anlayışı xalqın iradəsinə, milli birliyə və dövlətin sabitlik obrazına enerji verir. Xaricdə isə bu, Azərbaycanın regionda prosesləri istiqamətləndirən ölkə olduğunu göstərir.



"Zəfər" burada hərbi və ya ritorik qələbə deyil, simvolik üstünlük deməkdir. Diplomatiyada bu anlayış tərəfdaşların etimadını qazanmaq, rəqiblərin taktikasını neytrallaşdırmaq, regional müzakirələrdə mövqeyini gücləndirmək üçün işlədilir. İlham Əliyevin Düşənbədəki mövqeyi də məhz bu məna qatını daşıyırdı – təmkinlə hesablanmış prinsipial ton. Onun ritorikasında ambisiya yox, əminlik, emosional reaksiya yox, məqsədyönlü ardıcıllıq var idi. Bunlar Azərbaycan diplomatiyasının yeni mərhələsini, qətiyyətlə idarə olunan praqmatizmi təcəssüm etdirir.

Düşənbədə baş verən hadisə dövlətin xarici siyasət fəlsəfəsinin davamlılığının nümayişidir. Burada diplomatik zəfər siyasi iradənin ardıcıllığı ilə ölçülür. Prezident İlham Əliyevin davranışında bu ardıcıllıq aydın görünürdü: o, nə jestlərlə, nə populist bəyanatlarla, nə də qarşıdurma ritorikası ilə danışırdı; onun dili məntiqin, arqumentin və hesablama qabiliyyətinin dilidir.

Məhz bu səbəbdən Düşənbə görüşü həm də liderin siyasi üslubunun növbəti manifestinə çevrildi. Sakit tonun içində qətiyyət, praqmatik baxışın içində prinsipiallıq, diplomatik dialoqun içində milli gücün ifadəsi.

Azərbaycanın xarici siyasət tərzində artıq uzun müddətdir ki, bir-birini tamamlayan iki xətt aydın görünür: prinsipiallıq və praqmatizm. Düşənbə görüşü bu iki elementin ən zərif tarazlıqda necə işlədiyini bir daha nümayiş etdirdi. İlham Əliyevin diplomatik davranışında prinsipiallıq sistemli dövlətçilik düşüncəsidir. O, kompromisin sərhədlərini milli maraqlarla müəyyənləşdirir və bu sərhədi keçmədən dialoqu davam etdirmək bacarığını nümayiş etdirir. Elə bu amil də siyasi estetika baxımından həm güc, həm də balansın ifadəsidir: güzəşt deyil, nəzakətli israr.

İlham Əliyev üçün prinsipiallıq emosional reaksiya və ya ritorik sərtlik deyil, dövlətin suverenliyinin ölçü alətidir. O, müzakirələrin hər mərhələsində bu aləti aydın şəkildə göstərir: nəyi dəyişmək, nəyi qorumaq, nəyi tamamilə istisna etmək lazım olduğunu müəyyən edir. Düşənbədə də bu xətt açıq idi: Azərbaycan beynəlxalq platformalarda artıq "maraqlarını diktə edən" tərəfdir. Rəsmi Bakının diktəsi isə nə ultimatum, nə də təzyiqdir; sadəcə, məntiqli ardıcıllıqla qurulmuş siyasi arqumentdir. Belə bir prinsipiallıq modeli danışıqlarda Azərbaycanın etibarlılığını artırır, çünki tərəfdaşlar bilir ki, Bakı üçün söz və mövqe arasında fərq yoxdur.

Bununla yanaşı, Prezident İlham Əliyevin siyasətində bəzən "sakit praqmatizm" adlandırılan bir məqam da özünəməxsus gücə malikdir. Azərbaycanın diplomatiyası mürəkkəb strateji məqsədləri real və əldə edilə bilən gündəmlə təqdim edir. Düşənbə platformasında da bu aydın hiss olunurdu: mürəkkəb regional məsələlər iqtisadi əməkdaşlıq, nəqliyyat dəhlizləri, enerji təhlükəsizliyi kimi praktik mövzularla çərçivələnir. Həmin yanaşma həm gərginliyi azaldır, həm də ölkənin diplomatik mövqeyini konstruktiv və etibarlı tərəfdaş kimi göstərir.

Praqmatizm burada məqsədin dəqiqləşdirilməsidir. İlham Əliyev çox yaxşı anlayır ki, beynəlxalq münasibətlərdə qalıcı nəticə yalnız reallıqla hesablaşan siyasətdən doğur. O, Azərbaycanın maraqlarını maksimalist ritorika ilə yox, mərhələli və real planlarla təmin edir. Bunlar həm diplomatik çeviklik, həm də siyasi uzaqgörənlik tələb edir. Düşənbədəki görüş bu modelin növbəti nümayişi idi: prinsipial mövqedən geri çəkilmədən qarşılıqlı fayda imkanlarını genişləndirmək, sərt xətti rasional məntiqlə birləşdirmək, dialoqu nə zəiflik, nə də təslimiyyət kimi göstərməmək.

Nəticədə, İlham Əliyevin siyasət tərzi – "prinsipial praqmatizm" – Azərbaycanın beynəlxalq imicini balanslaşdırılmış, məsuliyyətli və öz gücünə arxalanan dövlət kimi möhkəmləndirir. Prezidentin bu yanaşması həm qarşı tərəflə işləməyi asanlaşdırır, həm də ölkənin mövqeyini sabit saxlayır. Diplomatiyada bu cür tarazlıq nadir hallarda alınır: çoxları prinsipiallığı sərtliklə, praqmatizmi isə güzəştə getməklə qarışdırır. İlham Əliyevin fərqi ondadır ki, o, bu iki bir-birini gücləndirən amili mexanizm kimi tətbiq edir. Düşənbə görüşü məhz bu siyasi fəlsəfənin canlı təzahürü idi: milli maraqların dəyişməzliyində sabitlik, beynəlxalq dialoqda isə çevik rasionalizm.

Düşənbə görüşünün regional və qlobal nəticələri Azərbaycanın xarici siyasət xəttində yeni bir mərhələnin başlanğıcı kimi görünür. Bakı artıq müxtəlif güc mərkəzləri arasında hesablı manevr bacarığına malik balans aktor kimi çıxış edir.

Rusiya ilə münasibətlər baxımından Düşənbə görüşü "nə Moskva orbitində, nə də ondan kənarda" siyasətin davamı idi. İlham Əliyevin bu görüşdə sərgilədiyi mövqe Rusiya ilə münasibətləri nə gərginlik xəttinə gətirdi, nə də asılılıq formulu ilə məhdudlaşdırdı. Əksinə, bu münasibətlərdə tarazlaşdırılmış qarşılıqlı asılılıq modeli aydın hiss olunurdu. Azərbaycan üçün Rusiya regional təhlükəsizlik və nəqliyyat məsələlərində mühüm dövlətdir, lakin Bakı artıq bu əlaqəni qarşılıqlı fayda əsasında qurur. Moskva üçün də Azərbaycanla sabit əlaqələr strateji əhəmiyyət daşıyır, çünki Bakı regionda həm enerji tranziti, həm də diplomatik etimad



baxımından körpü funksiyasına malikdir. Düşənbədə bu reallıq qarşılıqlı şəkildə təsdiqləndi: tərəflər bir-birini tamamlayan, lakin fərqli maraqlara malik partnyorlar kimi davranırdılar.

Sonda qeyd edək ki, Düşənbə görüşü Azərbaycanın çoxvektorlu diplomatiyasının canlı laboratoriyasına çevrildi. İlham Əliyev regional siyasətdə öz yolunu müəyyənləşdirir. Bu yol prinsipiallıqla praqmatizmin, milli maraqla beynəlxalq realistliyin kəsişdiyi məkandır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

---

# Xarici siyasətimizin idman platforması

## *III MDB Oyunları Azərbaycanı dünyaya iri planda təqdim etdi*

**Tacikistan paytaxtı Düşənbədə MDB Dövlət Başçıları Şurasının iclasındakı çıxışında Prezident İlham Əliyevin toxunduğu məsələlərdən biri də bu il ölkəmizdə keçirilən III MDB Oyunları oldu. Dövlət başçımız Azərbaycanın yeni strateji reallıqlarını, tam bərpa edilmiş suverenliyini, hərtərəfli quruculuq missiyasını MDB məkanına və bütün dünyaya təqdim edən möhtəşəm beynəlxalq tədbirə çevrildiyini bildirdi. İlham Əliyevin Oyunların yekunlarına dair səsləndirdiyi konseptual fikir belə tədbirlərin MDB çərçivəsində və onun hüdudlarından kənarda dostluğu, əməkdaşlığı gücləndirməsi, qarşılıqlı maraqlara və hörmətə əsaslanan münasibətlərin möhkəmlənməsinə töhfə verməsi həmin çoxşaxəli idman bayramının əsl fəlsəfəsini və geosiyasi mahiyyətini dəqiq şəkildə müəyyən edir.**



Sentyabrın 28-dən oktyabrın 8-dək davam edən yarışların coğrafiyasının qədim Gəncə, füsunkar Qəbələ, Göygöl, Şəki, inkişaf edən Yevlax, Mingəçevir və ən əsası, Qarabağın ürəyi olan Xankəndi şəhərini əhatə etməsi Azərbaycanın öz qüdrətini və sülhsevər niyyətini nümayiş etdirdiyi düşünülmüş strateji addım oldu. III MDB Oyunlarının təşkilatçılarının seçdiyi coğrafi model Azərbaycanın müasir inkişaf fəlsəfəsinin və regional siyasətinin güzgüsü idi. Yarışların paytaxtdan kənara çıxarılaraq ölkənin 7 fərqli şəhərində keçirilməsi qərarı, ilk növbədə, Azərbaycanın tarazlı və hərtərəfli inkişafını, regionların sosial-iqtisadi potensialını və müasir infrastrukturunu nümayiş etdirmək məqsədi güdürdü. Oyunların mərkəzi kimi Azərbaycanın ikinci böyük şəhəri, mədəniyyət beşiyi Gəncənin müəyyən edilməsi dərin rəmzi məna daşıyırdı. Vətən müharibəsi zamanı mülki əhalisi düşmənin qəddar raket hücumlarına hədəf olan, lakin mətanətini itirməyən Gəncə yarışlara ev sahibliyi etməklə dünyaya dirçəliş və yenilməzlik mesajı verdi. MDB gənclərinin sülh şəraitində yarışması, müharibənin dəhşətləri üzərində quruculuğun və həyatın təntənəsi idi. Yarışların keçirildiyi məkanlar arasında Xankəndi şəhərinin yer alması isə III MDB Oyunlarını idman hadisəsindən tarixi-siyasi akta çevirən həlledici amil oldu. Uzun illər separatizmin qurbanı olmuş Xankəndidə suveren Azərbaycanın bayrağı altında beynəlxalq yarışların təşkili dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam, qeyd-şərtsiz bərpasının dünyaya elanı idi. Bu addım müharibənin bitdiyini, Qarabağda sülh və quruculuq dövrünün başladığını göstərən güclü mesaj idi. Xankəndi stadionunda müxtəlif ölkələrin idmançılarının dostluq və rəqabət şəraitində bir araya gəlməsi Azərbaycanın reinteqrasiya siyasətinin humanist mahiyyətini nümayiş etdirdi.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Oyunlar MDB məkanında çoxtərəfli münasibətlərin inkişafına mühüm töhfələr verdi. İdman siyasətin mürəkkəb labirintlərindən fərqli olaraq xalqları, xüsusilə gəncləri birləşdirən səmimi və effektiv vasitədir. Yarışlar zamanı MDB ölkələrindən və uzaq xaricdən minlərlə idmançının, məşqçinin və rəsmi nümayəndənin Azərbaycana səfəri onlar arasında canlı ünsiyyətin qurulması üçün əlverişli şərait yaratdı. Müxtəlif ölkələrdən olan nümayəndələr Azərbaycan, onun qonaqpərvər xalqı, zəngin mədəniyyəti və müasir inkişafı haqqında şəxsi təəssüratlar əldə etdilər. Dövlətimiz yüksək səviyyəli təşkilatçılıq nümayiş etdirməklə Birlik daxilində etibarlı, məsuliyyətli və inteqrasiya proseslərinə sadiq tərəfdaş olduğunu bir daha təsdiqlədi.

Oyunların əhəmiyyəti, şübhəsiz ki, MDB hüdudlarını aşaraq qlobal miqyasda özünü göstərdi. Hər beynəlxalq tədbir ev sahibi ölkəyə dünyaya özünü təqdim etmək imkanı verir. III MDB Oyunları Azərbaycanın müsbət beynəlxalq imicinin möhkəmləndirilməsi üçün güclü vasitə rolunu oynadı. Dünyanın nüfuzlu media qurumları yarışları işıqlandırarkən istər-istəməz Azərbaycanın müasir reallıqlarını – sabitliyi, təhlükəsizliyi, iqtisadi inkişafı və multikultural mühiti də nümayiş etdirdilər. Yeddi fərqli şəhərdə, mürəkkəb logistika tələb edən yarışları qüsursuz şəkildə təşkil etmək Azərbaycan dövlətinin idarəetmə bacarığının və təşkilati qüdrətinin göstəricisi idi.

III MDB Oyunları Azərbaycanın müasir tarixində idmanla siyasətin, quruculuqla sülhün, milli qürurla beynəlxalq əməkdaşlığın vəhdət təşkil etdiyi parlaq səhifə kimi yadda qaldı. Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində tədbir, sadəcə, medalların və rekordların müəyyən olunduğu yarışlar toplusu funksiyası daşımadı, daha dərin məna kəsb edən strateji əhəmiyyətli hadisəyə çevrildi. Azərbaycan regionda sülhün və tərəqqinin memarlığına ev sahibliyi etməyə qadir qüdrətli və məsuliyyətli dövlət olduğunu bir daha sübut etdi.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

### *Ekspert rəyi*



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

Dövlət başçısının çıxışında vurğuladığı mühüm məqamlardan biri Gəncədə keçirilən idman oyunları ilə bağlıdır. Böyük Nizaminin vətənində belə bir tədbirin təşkili, müxtəlif ölkələrdən idmançıların toplanması və onlara yüksək şəraitin yaradılması Azərbaycanın idman infrastrukturunun və beynəlxalq əməkdaşlıq potensialının göstəricisidir.

Gəncə başqa olmaqla ölkənin 7 şəhərində keçirilən III MDB Oyunları Azərbaycanın regionlarda həyata keçirdiyi inkişaf strategiyasının uğurlu nəticələrini nümayiş etdirdi. Müasir idman arenaları, yenilənmiş kommunikasiya xətləri, inkişaf etmiş nəqliyyat infrastrukturu və təhlükəsizlik tədbirlərinin yüksək səviyyədə təmin olunması Gəncəni bu yarışlar üçün ideal məkana çevirdi.

Eyni zamanda, bu oyunlar qarşılıqlı münasibətlərin gələcək inkişafına yeni impuls verir. Gəncədə keçirilən beynəlxalq idman tədbiri gələcəkdə daha böyük yarışların və forumların təşkili üçün möhkəm zəmin yaradır. Beləliklə, bu oyunlar həm idman diplomatiyasının uğurlu nümunəsi, həm də Azərbaycanın inkişaf və əməkdaşlıq siyasətinin canlı təcəssümüdür.

### *Ekspert rəyi*

**İbrahim Faysal Malik,**
**"Digital Head Pakistan Observer" qəzetinin baş redaktoru**



Azərbaycanın III MDB Oyunlarına uğurla ev sahibliyi etməsi idman yarışından daha geniş mənaya malikdir. Bu, Azərbaycanın bərpa olunmuş suverenliyinin, möhkəmliyinin və strateji baxışının güclü nümayişi idi. Pakistan hər zaman Qarabağ məsələsində Azərbaycanın yanında dayanıb və bu gün Xankəndidə Azərbaycan bayrağı altında beynəlxalq tədbirlərin keçirilməsini görmək onun ədalətli mübarizəsini dəstəkləyən hər bir şəxs üçün qürurverici bir an oldu.

Oyunların Gəncə, Şəki, Qəbələ, Mingəçevir, Yevlax kimi tarixi və inkişaf edən bölgələr də daxil olmaqla 7 fərqli şəhərdə keçirilməsi Azərbaycanın inklüziv inkişaf yanaşmasını nümayiş etdirir. Bu, eyni zamanda, Pakistan da daxil olmaqla bir çox ölkə üçün öyrənilməsi bir modeldir. Lakin ən güclü mesaj Xankəndidən gəldi. Bir vaxtlar münaqişə məkanı olan şəhərdə beynəlxalq idmançıların toplaşması bu gün birliyin, sülhün və yenidənqurmanın rəmzinə çevrilib. Azərbaycan dünyaya göstərdi ki, müharibədən zərər görmüş əraziləri əməkdaşlıq və inkişaf məkanına çevirməyə qadirdir.

Pakistan Azərbaycanla dərin mədəni və strateji bağlara malik ölkə olaraq bu oyunlar vasitəsilə qarşılıqlı hörmət və həmrəyliyə əsaslanan dostluğun əhəmiyyətini bir daha təsdiqlədi. Azərbaycanın idman diplomatiyasını geosiyasi mesajlarla ustalıqla birləşdirməsi təqdirəlayiqdir. Bu, dövlətlərin yumşaq gücdən istifadə edərək beynəlxalq imiclərini formalaşdırmaları və regional əlaqələri möhkəmləndirmələri baxımından ilhamverici bir nümunə kimi dəyərləndirilə bilər.

**Prezident İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının iclası çərçivəsində oktyabrın 9-da Düşənbədə Rusiya Prezidenti Vladimir Putinlə görüşü Bakı-Moskva münasibətlərində müşahidə olunan gərginliyi aradan qaldıracmı? İndi siyasi müşahidəçiləri və ekspertləri bu suala cavab maraqlandırır.**

Bəribaşdan deyək ki, dövlət başçılarının uzun fasilədən sonra bir araya gəlmələri müsbət haldır. Xüsusən, onlar arasındakı danışığın tam mahiyyətə uyğun getməsi. Mahiyyət isə bəllidir. Söhbət ötən ilin dekabrında AZAL-a məxsus sərnişin təyyarəsinin Rusiya səmasında – qəzaya məruz qalması nəticəsində çoxsaylı insan tələfatına yol açan faciənin onların təyyarə olayı fonunda Bakı-Moskva münasibətlərini tamamilə pozmağa hesablanmış ritorikaları iflasla üzləşdi. Onlar oktyabrın 9-da şəxsi faciələrini yaşadılar. Hərçənd, üzsüzlərin hansısa mənəvi diskomfort keçirdiklərini söyləyə bilmərik. Çünki daim rəzil və miskin duruma düşüb, sonra heç nə olmamış kimi bədnam əməllərini davam etdirdiklərini



# AZƏRBAYCAN-RUSİYA: səmimiyyət hərarət gətirəcək

## *"Təyyarə olayı" və Düşənbədən mesajlara sözardı*

yaşanmasından gedir. Nəzərə alaq ki, nəinki dövlətlərarası əlaqələrdəki, eləcə də Azərbaycan və Rusiya cəmiyyətlərinin bir-birinə münasibətindəki gərginliyin səbəbi məhz məlum təyyarə olayı idi. Bu baxımdan Prezident Putinin çıxışında, böyük ölçüdə, əsasən həmin hadisəyə yer verməsi təqdirəlayiqdir.

Deməli, rəsmi Moskva faciəni mahiyyəti üzrə qiymətləndirir. Ən başlıcası, Putin hadisədə günahkarların müvafiq məsuliyyətə cəlb olunacağını vurğulayır: "Sözsüz ki, belə hallarda, bu cür faciəli vəziyyətlərdə tələb olunduğu kimi, Rusiya tərəfindən kompensasiya üzrə hər şey ediləcək və bütün vəzifəli şəxslərin hərəkətlərinə hüquqi qiymət veriləcək".

Beləliklə, Prezident Putinin bildirdiyi fikirlər təyyarə qəzasından sonra Rusiyada bəzi şəxslərin faciənin əsl səbəblərini fərqli təqdim etmək, ictimai rəyi çaşdırmaq yönümlü cəhdlərini heçə endirdi. Məlumdur ki, gərginliyin başlıca səbəbi olaya obyektiv qiymətin verilməməsi, belə demək mümkünsə, nağıl və rəvayət həvəskarlarının ortaya atılmaları idi. Yeri gəlmişkən, həmin vaxt vəziyyətdən Rusiyanın ermənipərəst, anti-Azərbaycan dairələri geninə-boluna yararlandılar.

Bəli, Prezident Putinin dövlətimizin başçısı ilə görüşdə dedikləri simonyanların, solovyovların, zatulinlərin və digərlərinin növbəti fiaskosudur. Düşənbədə az görməmişik. Axı beləleri üçün dəyərlər və prinsiplər heç nədir.

Doğrudur, Azərbaycan və Rusiya prezidentlərinin Düşənbə görüşündən və apardıqları müzakirələrdən sonra ikitərəfli münasibətlərin tam normal məcraya düşdüyünü iddia etmək olmaz. Amma artıq ali səviyyəli məram var. Qarşıdakı müddətdə bu məramın əməli tədbirlərlə daha da dərinləşəcəyinə ümid bəsləmək mümkündür. Prezidentlərin açıqlamalarının ümumi pozitiv tonu da belə düşünməyə əsas verir. Əvvəlcə, dövlətimizin başçısının mövcud xüsusda hansı cəhətlərə nəzər salmasına diqqət yetirək: "Siz qeyd etdiyiniz kimi, bu il təkcə iqtisadi-ticari münasibətlər deyil, həm də bütün istiqamətlər üzrə əlaqələr uğurla inkişaf edir, əmtəə dövriyyəsinin artımında yaxşı dinamika mövcuddur. Həmçinin bütün başqa istiqamətlər üzrə heç bir yerdə hər hansı gecikmə və yaxud geriləmə olmayıb. Əksinə, Sizinlə təsdiq etdiyimiz yol xəritələri uğurla həyata keçirilir".

Azərbaycan-Rusiya münasibətlərinin gündəliyini bir daha nəzərdən keçirmək üçün yaxşı imkanın olduğunu deyən Prezident İlham Əliyev, həmçinin, bu yaxınlarda Rusiya-Azərbaycan Hökumətlərarası Komissiyasının iclasının keçirildiyini, qurumun həmsədrlərinin təkcə iqtisadi-ticari deyil, bütün məsələlərin geniş spektrini ətraflı müzakirə etdiklərini vurğuladı. Rusiya Prezidenti isə bunları bildirdi: "Qeyd etmək istərdim ki, buna baxmayaraq, bizim maraqlarımız, qarşılıqlı maraqlarımız bir çox sahələrdə üst-üstə düşür və çox yaxındır. Əlbəttə, hər şeydən əvvəl, bu, iqtisadi-ticari əlaqələrə aiddir. Bu faciə ilə əlaqədar indi danışdığım bütün nüanslara, onunla əlaqədar hansısa məsələlərə baxmayaraq, iqtisadi-ticari əlaqələr inkişaf edib və uğurla inkişaf edir. Keçən il ticarət dövriyyəsində təqribən 6 faiz, bu il isə 16 faizdən çox artım olub. Bu, çox yaxşı göstəricidir".

Əlbəttə, Azərbaycan Şimal qonşusu ilə əlaqələrin korlanmasının tərəfdarı olmayıb. Baxmayaraq ki, Rusiyadakı destruktiv kəsim ölkəmizin, guya, təyyarə faciəsini bəhanə edərək, Qərbə doğru meyilləndiyi ideyasını tirajlayırdı... Ölkəmiz müasir müstəqillik illərində həmişə özünün balanslı siyasət kursuna sadiq qalıb, habelə, heç vaxt dünyanın anti-Rusiya kampaniyasına qoşulmayıb, qonşuluğun ənənəvi ruhuna sadiq mövqe tutub.

Amma ölkəmiz AZAL-ın təyyarəsi ilə bağlı əsl həqiqətlərin aşkara çıxmasına prinsipial yanaşıb. Bu yanaşma rəsmi Bakının qarşı tərəfdən də münasibətlərin qorunmasına sadiqlik gözləntisi olub. Həqiqətləri isə Prezident Putin açıqladı. O, faciə baş verəndən az sonra etdiyi üzrxahlığını xatırladı. Daha sonra zaman-zaman Rusiya tərəfindən irəli sürülmüş təyyarənin göyərtəsində qaz balonunun partlaması iddiasının yalnız spekulyasiyaya hesablandığı üzə çıxdı. Hava gəmimizin göydə quşlarla toqquşmasına gəlincə, V.Putin fikirləri ilə tələskənlikdən ortaya atılmış bu iddia ilə bağlı vacib nüansa da aydınlıq gətirdi: "İkinci səbəb Rusiyanın hava müdafiə sisteminin özündə texniki nasazlığın olmasından ibarətdir. Buraxılan iki raket birbaşa təyyarəyə dəyməyib, - əgər bu baş versəydi, təyyarə yerindəcə məhv olardı, - raketlər partlayıb, ola bilər ki, bu, bir neçə metr məsafədə, təqribən 10 metrlik məsafədə özünü məhv etmək olub. Ona görə də təyyarə zədələnib, amma əsas məsələ odur ki, məhvedici döyüş elementləri ilə deyil, yəqin raketin parçalarının özü ilə. Məhz bu səbəbdən pilot hadisəni quş sürüsü ilə toqquşma kimi qiymətləndirib, bu barədə rusiyalı dispetçerlərə məlumat verib, bütün bunlar "qara qutular"da qeyd olunub".

Kreml rəhbərinin təyyarəmizə atəşin hansı səbəbdən, nə üçün açıldığına dair detallı izahı, əslində, həqiqətin diqqətə çatdırılması fonunda bir o qədər əhəmiyyət daşımır. Başlıca məqam odur ki, heç nə bilərəkdən, məqsədli şəkildə olmayıb. Yeri gəlmişkən, bunu Azərbaycan dövlətinin təmsilçiləri, şəxsən Prezident İlham Əliyev də dəfələrlə bildirib və hadisəyə görə hüquqi məsuliyyətin müəyyənləşməsini, ən əsası isə üzrxahlıq tələb edib. Məsələyə mövcud prizmadan yanaşsaq, cənab Putinin əvvəlki, yəni hadisə baş verdikdən dərhal sonra etdiyi üzrxahlığı yada salması böyüklük kimi qiymətləndirilməlidir. Onun Prezident Əliyevlə görüşdə birbaşa təyyarə olayına köklənməsi də həmçinin. Elə buna görədir ki, dövlətimizin başçısı bildirdi: "Əlbəttə, Azərbaycan Hava Yollarının təyyarəsinin keçən ilin dekabrında qəzaya uğraması ilə bağlı faciə haqqında ətraflı informasiyaya görə xüsusilə təşəkkür edirəm".

Qeyd edək ki, Prezident İlham Əliyev çıxışının sonunda da rusiyalı həmkarına təyyarə olayına dair informasiyaya görə təşəkkürünü ifadə etdi. Ardınca isə ölkəmizin lideri "cəmiyyətlərimizə göndərdiyiniz mesajların da müsbət qarşılanacağına" əminliyini dilə gətirdi. Necə deyərlər, örtülü bazar, dostluğu pozar. Yəni qaranlıq məqamlar qalmamalıdır ki, münasibətlər səmimi ahəngini qorusun. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskovun açıqlaması da dövlət başçılarının bütün problemləri pozitiv əsaslarla müzakirə etdiklərini söyləməyə əsas verir. Biz də öz növbəmizdə buna ümid edir, Bakı-Moskva əlaqələrinin əvvəlki müsbət məcrasına dönəcəyinə inanırıq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# İrəvanda sülh əleyhdarlarının davakar çağırışları ara vermir

## *"Hayakve"nin ideoloji hədəfi nədir?*

**Ermənistanda radikal revanşist qüvvələr son aylar yenidən fəallaşaraq siyasi səhnədə öz mövqelərini bərpa etməyə çalışırlar. Bu düşərgənin uzun illər qurub-yaratdığı ordunun İkinci Qarabağ müharibəsindəki sarsıdıcı məğlubiyyətindən sonra bir müddət susqun qalan revanşist dairələr hazırda hökumətə qarşı açıq hücuma keçiblər. Ermənistanda revanşist düşüncənin kökləri o qədər dərindədir ki, hər dəfə ölkədə sabitlik yaranan kimi bu qüvvələr yenidən baş qaldırırlar. Sülh gündəliyini qəbul etmək istəməyən radikallar cəmiyyətdə qorxu və çaşqınlıq mühiti formalaşdırmaq üçün bütün vasitələrə əl atırlar. Nikol Paşinyan hökumətinin sülh təşəbbüslərinə qarşı ən sərt müqavimət məhz məğlubiyyət sindromundan xilas ola bilməyən revanşist düşərgədən gəlir.**

Hayastanda revanşist qüvvələrin fəallaşması təkcə daxili siyasi mübarizə deyil, həm də regionda sabitliyə yönəlmiş proseslərə təhdiddir. Öz siyasi varlığını müharibə ritorikası üzərində quran revanşist dairələr bu gün ölkələrinin gələcəyini təhlükə altına atmaqda davam edirlər. Çünki revanşist ideologiyanın yenidən gündəmə gəlməsi Ermənistanın müasir dövlətçilik yoluna ən ciddi zərbələrdən biri sayılır. Digər tərəfdən revanşistlərin fəallaşması bir daha göstərir ki, cəmiyyətin müəyyən hissəsi hələ də keçmişin illüziyasından qopa bilmir.

Ölkədə son 2 il yarım ərzində diqqətçəkən ictimai-siyasi təşəbbüslərdən biri də "Hayakve" adlı hərəkatdır. Formal olaraq bu qurum özünü əvvəllər "mülki-qanunvericilik təşəbbüsü" kimi təqdim edirdi. İndi isə "milli-vətəndaş birliyi" kimi sırımağa üstünlük verir. Qurumun fəaliyyət istiqamətləri və ideoloji xətti radikal revanşist dairələrin mövqeləri ilə tam üst-üstə düşür. "Hayakve" təşəbbüsü xüsusilə gənclər arasında antisülh ritorikasını yaymağa çalışır, cəmiyyətdə revizionist (tarixi və ya siyasi reallıqları yenidən yozmağa çalışmaq – S.H.) düşüncələri təmsil edir. "Hayakve" neologizmi hərfi mənada "ermənilərin seçki səsi" deməkdir. Bu, 2023-cü ilin yazında meydana çıxan və mahiyyət etibarilə "Artsaxın öz müqəddəratını təyinetmə hüququ"nun rədd edilməsini, habelə, qondarma "erməni soyqırımı"nın əhəmiyyətinin azaldılmasının kriminallaşdırılmasını nəzərdə tutan qanun layihəsi idi. Sonra isə müxtəlif maraqlı dairələr təşəbbüsü "ölməyə" qoymadılar və o, tədricən hərəkata çevrildi.

Bu gün də təşəbbüsün əsas ideoloji xəttini "tarixi ədalətin bərpası", "milli ləyaqətin qorunması" kimi pafoslu şüarlar təşkil edir. Amma bu şüarların arxasında konkret məqsəd – Ermənistanı yenidən keçmişdəki təcavüzkar, işğalçı siyasətə qaytarmaq dayanır. "Hayakve"nin təşkil etdiyi aksiyalar, sosial şəbəkələrdəki çağırışlar və bəyanatlarda açıq şəkildə Azərbaycan və Türkiyəyə qarşı nifrət ritorikası hiss olunur. Bu isə bir daha göstərir ki, təşəbbüs, əslində, sülhə və sabitliyə deyil, qarşıdurmaya və revanşist psixologiyanın dərinləşməsinə xidmət edir.

Maraqlıdır ki, "Hayakve"nin maliyyə və təşkilati dayaqları barədə də müxtəlif məlumatlar mövcuddur. Ermənistan mediası qurumun bir sıra diaspor dairələri, xüsusilə Fransa və ABŞ-da fəaliyyət göstərən erməni lobbi strukturları ilə əlaqədə olduğunu bildirir. Bu fakt təşəbbüsün deyil, daha geniş geosiyasi planın tərkib hissəsi olduğunu ehtimal etməyə əsas verir. Ən təhlükəlisi isə odur ki, "Hayakve" hərəkatı gənc nəslin şüurunda revanşist dünyagörüşü formalaşdırmağa cəhd edir.

* * *

Hərəkatın bugünlərdə yaydığı bəyanatda deyilir: "Bu ilin iyulunda – Vaşinqton razılaşmasından əvvəl keçirilən sorğunun nəticələri olduqca maraqlıdır: respondentlərin 74 faizi Azərbaycanla sülhün mümkünlüyünə inanmır. "Tezliklə keçiriləcək yeni sorğular bu razılaşmanın ictimai əhval-ruhiyyəyə necə təsir etdiyini göstərəcək. Hərçənd, çətin ki, köklü dəyişikliklə nəticələnsin. Əvvəlki sorğularla müqayisədə bu faiz xeyli artıb. Bu da ondan irəli gəlir ki, Azərbaycan tərəfi mütəmadi olaraq hərbi ritorikasını artırmaqla (?) sülhdə maraqlı olmadığını nümayiş etdirir. Avqustun 8-dən də eyni hal davam edir. Bakı Ermənistan Konstitusiyasına dəyişiklik edilməsini, ordunun azaldılmasını, dəhliz verilməsini, azərbaycanlıların Ermənistan Respublikası ərazisində məskunlaşdırılmasını tələb etməkdə davam edir", – bəyanatda qeyd edilir.



Qeyd edilib ki, guya, Azərbaycan tərəfi yerinə yetirilməsi qətiyyən mümkün olmayan şərtlər qoyur: "Bu, onu göstərir ki, qarşı tərəf sülhdə maraqlı deyil. Aydındır ki, Paşinyan bu müddət ərzində konstitusiyaya dəyişikliklərlə bağlı bütün söhbətləri gizlətməyə çalışıb. İndi məlum olur ki, bu, Azərbaycan tərəfindən növbəti təzyiqdir. Onlar bunu açıq şəkildə bildirir, sülh müqaviləsinin imzalanmasının şərti kimi təqdim edirlər. Aydındır ki, Ermənistanda Konstitusiyaya dəyişiklik edilsə belə, Bakı yeni şərtlər irəli sürərək bu müqaviləni imzalamayacaq. İndiki mərhələdə isə şərt yeni Konstitusiyanın qəbul edilməsidir".

* * *

"Hayakve" adlanan hərəkatın son bəyanatı bir daha göstərir ki, bu qurum cəmiyyətin sağlam düşüncəsini təmsil etmir, əksinə, revanşist ideologiyanın daşıyıcısına çevrilib. Özünü guya, milli maraqları müdafiə edən və "ictimai rəyin səsini" ifadə edən struktur kimi təqdim edən "Hayakve", əslində, sülh prosesini sabotaj etmək üçün yaradılmış təzyiq mexanizmidir. Bəyanatda göstərilən arqumentlər və təqdim olunan "sorğu nəticələri" də bunu sübut edir. Hərəkat iddia edir ki, respondentlərin 74 faizi Azərbaycanla sülhü mümkün saymır. Halbuki bu rəqəmlər nə real ictimai tendensiyanı əks etdirir, nə də elmi əsaslara söykənir. Ermənistanda istənilən sosial tədqiqatın siyasi sifarişlə aparıldığı faktını nəzərə alsaq, belə "sorğular"ın məqsədinin ictimai rəy yaratmaq yox, ictimai şüuru yönləndirmək olduğu aydın görünür.

"Hayakve"nin ritorikasında diqqətçəkən əsas məqam ondan ibarətdir ki, bütün məsuliyyət birtərəfli qaydada Azərbaycanın üzərinə atılır. Guya, Bakı "sülhdə maraqlı deyil", "Konstitusiyanın dəyişdirilməsini və ordunun ixtisarını tələb edir". Əslində, bu kimi iddialar Ermənistan cəmiyyətində sülhə qarşı qorxu və etimadsızlıq mühiti yaratmaq üçün düşünülmüş ideoloji manipulyasiyadır. Azərbaycanın mövqeyi açıq və birmənalıdır: sülh müqaviləsi beynəlxalq hüquq prinsipləri və dövlətlərin suverenliyinə hörmət əsasında imzalanmalıdır. Amma "Hayakve" kimi təşəbbüslər bu sadə həqiqəti bilərəkdən təhrif edirlər.

Təşəbbüsün bəyanatında diqqətçəkən digər məqam Paşinyan hökumətinə yönəlmiş ittihamlardır. "Hayakve" guya, hökumətin "Konstitusiya ilə bağlı söhbətləri gizlətdiyini" bildirir və bunu "Azərbaycanın təzyiqi" kimi təqdim edir. Halbuki burada məqsəd hökuməti zəiflətmək, Paşinyanı "xain" kimi göstərmək və cəmiyyəti onun əleyhinə yönləndirməkdir. Yəni bu, sıradan bir vətəndaş təşəbbüsü deyil, konkret siyasi sifarişin icrasıdır.

"Hayakve"nin fəaliyyəti göstərir ki, Ermənistanda məğlubiyyət sindromu hələ də siyasi silaha çevrilir. Bu cür təşəbbüslər xalqı reallıqdan uzaqlaşdırır, cəmiyyətə saxta qəhrəmanlıq, "ədalət uğrunda mübarizə" görüntüsü sırımaqla regionda sülh gündəliyini baltalayır. Onların düşüncəsində gələcək yox, yalnız keçmiş var. O keçmiş ki, məğlubiyyətin, nifrətin və revanşın kölgəsində qalıb.

Reallıq isə başqadır. Ermənistanın gələcəyi silah və nifrət üzərində deyil, sülh və əməkdaşlıq üzərində qurulmalıdır. "Hayakve" kimi qruplar bu yoldakı ən böyük maneələrdən biridir. Onların fəaliyyəti nə ictimai rəyə, nə də milli maraqlara xidmət edir. Bu cür təşəbbüslərin səsi nə qədər gur çıxsa da, reallıq qarşısında o səsin mənası yoxdur. Çünki reallıq regionda yeni dövrün başlandığını göstərir.

**Mövzu ilə bağlı fikirlərini XQ ilə bölüşən Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq Zaur Məmmədov** bildirdi ki, "Hayakve" adlanan təşəbbüs özünü milli maraqların müdafiəçisi kimi təqdim etsə də, əslində, bu qurum köhnə düşüncənin müasir libasda təqdim olunmuş formasıdır: "Onun son bəyanatı bir daha sübut etdi ki, "Hayakve" sülh prosesini dəstəkləmək deyil, ictimai şüuru manipulyasiya etmək məqsədi güdür. Hərəkatın təqdim etdiyi sorğu nəticələri, guya, Azərbaycanla sülhə inamın azaldığını göstərir. Amma burada məqsəd reallığı göstərmək yox, onu formalaşdırmaqdır. Yəni qorxu, etimadsızlıq və düşmən obrazını diri saxlamaq".



Politoloq hesab edir ki, bu təşəbbüs cəmiyyətdə süni narazılıq yaratmaqla siyasi təzyiq alətinə çevrilir: "Əslində, "Hayakve"nin ritorikası Ermənistanın gələcəyi üçün təhlükəlidir. O, xalqı keçmişin mifləri ilə yaşamağa, cəmiyyətdə məğlubiyyət hissini ideoloji dayağa çevirməyə çalışır. Ancaq regionun reallıqları dəyişib. Bu gün əsgərlər artıq səngərdə yox, kazarmadadır. Regional inteqrasiyadan bəhrələnmək üçün isə sağlam düşüncə lazımdır. "Hayakve"də cəmləşənlər bunu nə qədər tez dərk etsələr, ölkələri üçün bir o qədər yaxşı olacaq".

***Səxavət HƏMİD***
***XQ***

# Milli Məclisin plenar iclasında cari məsələlərin müzakirəsi

**Oktyabrın 10-da Milli Məclisin növbəti plenar iclası spiker Sahibə Qafarovanın sədrliyi ilə keçirildi. İclasda gündəliyə daxil edilmiş 13 məsələ müzakirə olundu. İclas ənənəyə uyğun olaraq deputatların cari məsələlərə dair çıxışları ilə başladı. Deputatlar ölkə rəhbərinin həyata keçirdiyi siyasi kursun nəticələri, regional və beynəlxalq müstəvidə Azərbaycanın artan roluna dair fikirlərini səsləndirdilər.**




Milli Məclisin deputatları Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın son dövrlərdə əldə etdiyi mühüm nailiyyətlərə toxundular. Qeyd olundu ki, cari ilin yay mövsümündən başlayaraq ölkəmiz yeni siyasi mərhələyə qədəm qoyub. Bu mərhələ Azərbaycanın həm regional, həm də qlobal diplomatik mövqelərinin güclənməsi, milli maraqların beynəlxalq səviyyədə daha təsirli müdafiəsi ilə xarakterizə olunur.

Deputatlar xüsusilə vurğuladılar ki, Azərbaycan Prezidenti İlham Əliyevin xarici siyasət xətti ölkəmizi beynəlxalq dialoqun mühüm iştirakçısına çevirib. Vaşinqtonda keçirilən mühüm görüşlər, Şanxay Əməkdaşlıq Təşkilatında fəal iştirak, "Avropa Siyasi Birliyi"nin sammitində nümayiş etdirilən prinsipial mövqe, eləcə də Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünə yüksək səviyyəli ev sahibliyi Azərbaycanın diplomatik nüfuzunu daha da möhkəmləndirib.

* * *

Gündəliyə keçməzdən əvvəl deputatlar cari məsələlər barədə öz fikirlərini bildirdilər. Buraya Bakının uğurlu xarici siyasətindən tutmuş mənzillərin qiymətlərinin bahalaşmasının başlıca səbəbi, dövlət qurumlarının vətəndaş müraciətlərinə vaxtında cavab verməməsi kimi çeşidli və aktual məsələlər daxil idi.

Çıxışında son aylar ölkəmizin xarici siyasət kursunda artım tempinin diqqəti cəlb etdiyini deyən deputat Ceyhun Məmmədov xüsusilə TDT-nin Qəbələ Zirvə Görüşündən və ölkə başçımızın Düşənbə səfərinin əhəmiyyətindən söz açdı: "Artıq bu cür mötəbər görüşlərin Azərbaycanda keçirilməsi onu göstərir ki, ölkəmiz Türk dünyasının diplomatik, iqtisadi və mədəni inteqrasiyasında aparıcı mərkəzə çevrilib".

Deputat Prezident İlham Əliyevin Tacikistanda Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşünə diqqət çəkdi: "Prezident İlham Əliyevin prinsipial, milli maraqlara əsaslanan və uzaqgörən siyasəti nəticəsində bu münasibətlərdə yeni bir mərhələ başlayır. Azərbaycan diplomatiyası növbəti dəfə öz haqlı tələblərini irəli sürərək məqsədinə nail oldu. Rusiya tərəfinin bu tələbi yerinə yetirməsi Prezident İlham Əliyevin siyasi qətiyyəti və diplomatik ustalığının daha bir parlaq göstəricisidir".

Cari məsələlərdən danışan deputat Razi Nurullayev son dövrlər qum-çınqıl yataqlarının istismarı ilə bağlı yeni tənzimləmə mexanizmlərinin müəyyənləşdirildiyini, bu prosesin sürətləndirilməsinə ehtiyac duyulduğunu dedi: "Prezident İlham Əliyevin 23 dekabr 2024-cü il tarixli sərəncamına əsasən, qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinə həvalə edilib. Qərar faydalı qazıntıların istismarında şəffaflığın təmin olunması, ekoloji təhlükəsizliyin qorunması və resursların səmərəli idarə olunması baxımından mühüm əhəmiyyət daşıyır. Lakin bağlanmış karxanaların fəaliyyətinin bərpa olunmaması bölgədə həm məşğulluq səviyyəsinə, həm də tikinti sektorunda qiymətlərə mənfi təsir göstərir. Qeyri-filiz yataqlarının qısa müddətdə yenidən istifadəyə verilməsi həm dayandırılmış iş yerlərinin bərpasına, həm də bazarda bahalaşmanın qarşısının alınmasına xidmət edər". Deputat onu da qeyd etdi ki, bu məsələ həm iqtisadi sabitlik, həm də regionlarda məşğulluğun təmin olunması baxımından prioritet istiqamətlərdən biri kimi diqqət mərkəzində saxlanılmalıdır.

Daha sonra çıxış edən Milli Məclisin deputatı Səyyad Aran dövlət qurumlarının vətəndaşların müraciətlərinə vaxtında cavab verməməsini gündəmə gətirdi. O, bu barədə danışarkən bildirdi ki, bəzi rəsmi qurumlar müraciətləri formallıq kimi qəbul edir və qanunvericilikdə nəzərdə tutulmuş qaydalara əməl etmirlər: "Vaxtilə insanlar Kremlə məktub yazırdılar və 30 gün ərzində onlara cavab gəlirdi. O vaxt bu, sadəcə, formal prosedur idi, amma indi rəsmi qurumlara məktub göndərirsən, cavabı yenə 30 gün gözləməli olursan. Ayın 1-də müraciət edirsən, sanki qəsdən ayın 30-u, bəzən isə 31-i cavab gəlir. Bu, vətəndaşların müraciətlərinə məsuliyyətsiz yanaşmadır".

* * *

Milli Məclisin plenar iclasının cari məsələlər bölümü bitdikdən sonra gündəlikdə duran məsələlərin müzakirəsinə başlanıldı. Əvvəlcə "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirəyə çıxarıldı. Bu barədə danışan Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirdi ki, "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə Azərbaycan Respublikası Konstitusiyasının hazırlanmasına, təkmilləşdirilməsinə və təbliğinə, qanunvericilik və hüquq sisteminin inkişafına, Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsinə, dövlət müstəqilliyinin möhkəmləndirilməsinə, Konstitusiya ilə təsbit olunmuş əsas insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə, konstitusion ideya və prinsiplərin formalaşdırılması və inkişafına töhfələr vermiş, habelə Azərbaycan dövləti qarşısında xüsusi xidmətləri olan şəxslər təltif edilirlər. Qanun layihəsi müzakirəyə çıxarılaraq qəbul edildi.

Daha sonra "Nağdsız hesablaşmalar haqqında" qanuna dəyişiklik müzakirə edildi. Dəyişikliyə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı mülki hüquqi xarakterli müqavilələr əsasında mövsümi işlərə cəlb edilən fiziki şəxslər üçün nağd qaydada ödənilən məbləğ 50 faiz artırılaraq 20 manatdan 30 manata qaldırılıb.

"Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" qanun layihəsinə təklif olunan dəyişiklikdə isə bildirilir ki, prospekt, küçə, meydan və müvafiq ərazi vahidinin digər tərkib hissələrinə ad verilməsi və onların adlarının dəyişdirilməsi həmin ərazinin əhalisinin rəyi və dövlət dilinin normaları nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçiriləcək.

Plenar iclasda müzakirə olunan "Azərbaycan Respublikasının daxili qoşunları haqqında" yeni qanun layihəsində daxili qoşunların fəaliyyəti ilə bağlı dövlət orqanlarının səlahiyyətləri müəyyənləşdirilir. Layihəyə əsasən, daxili qoşunların tərkibi idarəetmə orqanı daxili qoşunların funksional vəzifələri üzrə hərbi hissə və bölmələr, xüsusi təyinatlı təhsil müəssisələri, təminat hərbi hissə və bölmələrindən ibarət olacaq. Müzakirələrdən sonra məsələ səsverməyə qoyularaq birinci oxunuşda qəbul edildi.

Daha sonra gündəlikdə duran digər məsələlər – "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət xidmətləri haqqında", "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında", "Avtomobil nəqliyyatı haqqında, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "İpoteka haqqında", Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, "Tibbi sığorta haqqında" və Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri müzakirəyə çıxarılaraq səs çoxluğu ilə qəbul edildi.

***Tacir SADIQOV***
***XQ***

# Paytaxtın küçə adlarında təkrarçılıq

## *Eyni şəxsin xatirəsi Bakının müxtəlif rayonlarında 3-4 dəfə əbədiləşdirilib*

**"Ötən gün Milli Məclisin plenar iclasında müzakirəyə çıxarılan "Azərbaycan Respublikasının Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Qanuna edilən dəyişiklik ictimaiyyətin diqqət mərkəzində olan aktual məsələlərindən bəhs edir. Məlumdur ki, oktyabr ayının hər anı Zəfər salnaməmizdə öz əksini tapmaqla şanlı tariximizin qızıl hərflərlə yazıldığı dövrü xatırladır".**



Bu fikirləri XQ-yə eksklüziv açıqlamasında **Milli Məclisin deputatı Məlahət İbrahimqızı** bildirdi. Deputat qeyd etdi ki, 44 günlük Vətən müharibəsindən beş il keçməsinə baxmayaraq, hələ də əziz şəhidlərimizin adlarının əbədiləşdirilməsi ilə bağlı müəyyən boşluqlar qalmaqdadır: "Ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda canından keçmiş qəhrəman oğullarımızın xatirəsinin əbədiləşdirilməsi həm onların ailələri, həm də ictimaiyyət tərəfindən davamlı olaraq müzakirə olunur. Prezident İlham Əliyev ən mötəbər kürsülərdə, o cümlədən BMT Baş Assambleyasının 80-ci sessiyasında və Türk Dövlətləri Təşkilatının (TDT) 12-ci Zirvə Görüşündə çıxış edərkən şəhidlərimizin xatirəsinin xalqımızın qəlbində əbədi yaşayacağını xüsusi vurğuladı".

Deputat həmçinin onu da qeyd etdi ki, qanun layihəsində dəyişikliklər birbaşa bu məsələyə aiddir: "Sənəddə göstərilir ki, prospekt, küçə, meydan və müvafiq ərazi vahidinin digər tərkib hissələrinə ad verilməsi və onların adlarının dəyişdirilməsi həmin ərazinin əhalisinin rəyi və dövlət dilinin normaları nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir. Yerli icra hakimiyyəti orqanları prospekt, küçə, meydan və müvafiq ərazi vahidinin digər tərkib hissələrinə ad verilməsi və ya adlarının dəyişdirilməsi ilə bağlı qərar barədə yuxarı icra hakimiyyəti orqanını müəyyən olunmuş müddətdə məlumatlandırır. Bu baxımdan hesab edirəm ki, bu dəyişikliklərin qəbul olunması şəhidlərimizin adlarının daha düzgün və sistemli şəkildə əbədiləşdirilməsinə töhfə verəcək".

Son yüz il ərzində, xüsusilə Bakı şəhərində küçə adlarının müəyyənləşdirilməsi prosesində bir sıra uyğunsuzluqların və ziddiyyətlərin müşahidə olunduğunu təəssüflə bildirən deputat dedi: "Bakı şəhəri vahid inzibati ərazi olsa da, bəzi hallarda eyni şəxsin adı şəhərin müxtəlif rayonlarında 3-4 dəfə əbədiləşdirilib. Şübhəsiz ki, Azərbaycanın elə tarixi şəxsiyyətləri var ki, onların adlarının ölkəmizin bütün bölgələrində yaşadılması zəruridir. Lakin bu kimi istisna hallar diqqətlə araşdırılmalı və balanslı şəkildə yanaşılmalıdır. Hesab edirəm ki, aidiyyəti dövlət qurumları Bakının bütün küçə, prospekt və meydanlarının adlarını yenidən nəzərdən keçirməli, bu sahədə vahid yanaşma təmin edilməlidir. İnternetdə yerləşdirilən məlumatlara baxdıqda, paytaxtın toponimikasında hələ də ciddi boşluqların mövcud olduğu aydın görünür".

Məlahət İbrahimqızı Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Qəbələ Zirvə Görüşündəki çıxışında Prezident İlham Əliyevin gələn il Türkoloji Qurultayın 100 illik yubileyinin təntənəli şəkildə keçirilməsi ilə bağlı təşəbbüsünü yüksək qiymətləndirdiyini dedi: "Bu mühüm təşəbbüs Qəbələ Bəyannaməsində də öz əksini tapdı.

Xatırladaq ki, 1926-cı ildə türkdilli xalqlarının yaşadığı müxtəlif ərazilərdən 130-dan çox görkəmli alim və ziyalı Bakıda, İstiqlaliyyət küçəsində yerləşən İsmailiyyə binasında toplanaraq 10 gün davam edən qurultayda iştirak ediblər. Təəssüf ki, həmin parlaq şəxsiyyətlərin çoxu sonradan Sovet–Stalin rejiminin qurbanı oldu. Hesab edirəm ki, Prezidentin bu tarixi hadisə ilə bağlı səsləndirdiyi təşəbbüs əsasında müvafiq dövlət qurumları Birinci Türkoloji Qurultayın keçirildiyi binada xatirə barelyefinin quraşdırılmasını təmin etməlidirlər".

***T.ARAZOĞLU***
***XQ***

**Bugünlərdə avroparlamentdə çoxluq təşkil edən deputat qrupları Avropa İttifaqının korporativ dayanıqlılıq qanununa dəyişiklik edilməsi barədə razılığa gəliblər. Əldə olunan razılaşma iqtisadi inkişaf və siyasi balansı qorumaq istiqamətində müşahidə edilən mürəkkəb dilemmanı əks etdirir. Ötən il iyulun 25-də qüvvəyə minən Avropa İttifaqının Korporativ Dayanıqlılıq üzrə Lazımi Araşdırma Direktivinin (CSDDD) əsas öhdəliklərinə görə, şirkətlər insan hüquqları və ətraf mühitin qorunmasına zidd fəaliyyətləri müəyyənləşdirməli və qiymətləndirməlidirlər. Bununla yanaşı, aşkarlanan risklərin qarşısını almaq, onları azaltmaq və ya aradan qaldırmaq üçün tədbirlər görmək mütləqdir.**

# Avropada insan haqları və ekoloji məsuliyyət davası

## *Hüquqi və siyasi qarşıdurma avroparlamentdə qütbləşmə yarada bilər*




Təsirlənmiş tərəflər üçün şikayət mexanizmləri yaradılmalı, lazımi araşdırma prosesləri korporativ siyasət və idarəetmə sistemlərinə inteqrasiya edilməlidir. Şirkət fəaliyyətindən zərər görmüş şəxslər üçün hüquqi müdafiə və ədalət imkanları təmin olunmalıdır. Sadalanan öhdəliklərin hər biri Məsuliyyətli Biznes Təcrübəsi üzrə Lazımi Araşdırma Qaydaları ilə uyğunlaşdırılıb və davamlı inkişaf, məsuliyyətli biznes praktikasını təşviq etməyi hədəfləyir. Əgər şirkətlər bu öhdəlikləri yerinə yetirməsələr, qlobal dövriyyələrinin 5 faizi qədər cərimə ilə üzləşə bilərlər. Lakin sənədin tətbiqi ilə bağlı yaranan siyasi və iqtisadi gərginlik Avropanı qanunda dəyişiklik etmək məcburiyyətində qoydu.

Hazırda CSDDD Avropanın ən mübahisəli məsələlərindən biri hesab olunur. Qanunun əhatə dairəsi də genişdir – 1000, yaxud daha çox işçisi olan və illik dövriyyəsi 450 milyon avronu keçən şirkətlər üçün bu qaydalar keçərlidir. Bu isə iri müəssisələrə həm əlavə məsuliyyət, həm də bürokratik yük anlamına gəlir. Brüssel rəsmiləri hesab edirlər ki, direktivi tətbiq etməzdən əvvəl şirkətləri mürəkkəb hesabat tələbləri ilə yükləmək iqtisadi aktivliyi zəiflədə bilər. Ona görə də qanunun daha praktik olması üçün müzakirələr aparılır. Təsadüfi deyil ki, Mərkəz-sağ Avropa Xalq Partiyası (EPP) sosialist və liberal qruplarla birgə qanunun tətbiq dairəsini məhdudlaşdırmaq barədə razılığa gəlib. Yeni qaydalara əsasən, qanun 5000 və ya daha çox işçisi olan, ən azı 1,5 milyard avro dövriyyəyə malik şirkətlər üçün tətbiq olunacaq. Bu isə o deməkdir ki, kiçik və orta müəssisələr artıq ağır öhdəliklərdən azad olacaq. Keçirilən rəy sorğularının əksəriyyətində direktivə ediləcək dəyişikliklərin onların gələcəkdə fəaliyyəti üçün problem yaradacağı düşünülür.

Qanunun yumşaldılması prosesində siyasi oyunlar da nəzərə çarpır. Ümumiyyətlə, Avropa Parlamentindəki fikir ayrılıqları qitənin siyasətinə təsir göstərir. Mərkəzçi, sağçı və solçu fraksiyalar arasında fikir fərqlilikləri Korporativ Davranış və Dayanıqlılıq Öhdəlikləri Direktivi kimi təşəbbüslərin qəbulunda kompromisin çətin tapılmasına gətirib çıxarır. Nəticədə direktivlər ya yumşaldılır, ya da tətbiq müddəti uzanır ki bu da Avropa İttifaqının beynəlxalq standartlarda liderlik rolunu zəiflədə bilər.

Parlamentdəki parçalanma üzv ölkələrin milli siyasi meyllərini də əks etdirir. Mərkəzçi qrupların direktivi yüngülləşdirmək qərarı iqtisadi maraqları sosial və ekoloji öhdəliklərdən üstün tutmaq meylini göstərir. Sağçı və populist qruplar isə bəzən iqtisadi müstəqilliyi ön plana çəkir və Avropa səviyyəsində vahid siyasi mexanizmlərin tətbiqinə mane olur. Üzv ölkələr arasında maraqların toqquşması və koalisiyaların dəyişkənliyi qərarların vahid şəkildə həyata keçirilməsini çətinləşdirir. Parlamentdəki parçalanma həmçinin Avropanın qlobal nüfuzuna təsir edir. Korporativ məsuliyyət və dayanıqlılıq standartlarının tətbiqi Avropanın beynəlxalq liderliyinə bağlıdır. Əgər kompromis tapmaq çətinləşirsə, qitə qlobal standartlarda lider mövqeyini itirə bilər.

Qanunun yumşaldılması ilə bağlı razılaşmanın səsvermədə qəbulolunma şansı yüksəkdir. Amma onun son variantı üzərində Aİ ölkələri ilə danışıqlar hələ başa çatmayıb. Brüssel rəhbərliyi daxili balansı təmin etmək üçün uğurlu diplomatik oyun aparmalıdır. Əslində qanunun özündə ehtiva etdiyi məsələləri təhlil etdikdə onun Avropada iş yerləri və investisiya mühitini daha az risk altında qoyacağı aydın görünür. Eyni zamanda, bu, qitədə siyasi qütbləşmənin və müxtəlif maraqların necə tənzimləndiyini göstərir.

CSDDD-yə dəyişikliklərin tətbiqi siyasi müstəvidə bir sıra problemlər yarada bilər. Üzv ölkələr, xüsusilə iqtisadi baxımdan zəif və ya sənaye strukturu mürəkkəb olan dövlətlərdə əlavə öhdəliklərin milli qanunvericiliyə müdaxilə kimi qiymətləndirilməsi mümkündür. Bu, Aİ daxilində balansın itirilməsinə və siyasi mübahisələrin dərinləşməsinə gətirib çıxara bilər. Xarici siyasət və diplomatik gərginlik riski də mövcuddur. Bir sıra ölkələrin Avropa bazarında fəaliyyət göstərən şirkətlərin yeni qaydalara uyğunlaşmasını tələb edərək ittifaqa diplomatik təzyiq göstərmək ehtimalı da var. Təzyiqlər Avropa İttifaqının xarici siyasətində balans yaratmaq və iqtisadi maraqları qorumaq üçün əlavə çətinliklər yarada bilər. Hüquq müdafiəçiləri və ətraf mühit təşkilatlarının da qanunun yumşaldılmasını tənqid edərək siyasi partiyalara və parlament qruplarına təzyiq göstərməsi mümkündür. Bu, həm daxili siyasi balansı, həm də qanunun həyata keçirilməsini çətinləşdirə bilər. Gələcəkdə siyasi qütbləşmənin dərinləşmə ehtimalı yüksəkdir. Hazırkı kompromis qısamüddətli balans yaratsa da, uzunmüddətli perspektivdə qanunun sərtləşdirilməsi və ya daha da yumşaldılması yeni mübahisələr doğuracaq. Bu, Avropa Parlamentində və üzv ölkələr arasında siyasi qarşıdurmaları artıraraq qərarvermə prosesini mürəkkəbləşdirə bilər.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**

Direktivə edilən dəyişikliklərin kiçik və orta biznes sahibləri üçün problem yaratması o qədər də real görünmür. Çünki Avropa İttifaqı onlar üçün kifayət qədər geniş güzəştlər tətbiq edir. Hazırda Aİ-də məşğulluğun 64 faizi və ümumi daxili məhsulun 62 faizi kiçik sahibkarlar tərəfindən formalaşdırılır. Yəni kiçik sahibkarlar həm iqtisadiyyatın inkişafında əsas rol oynayır, həm də iş yerlərinin yaradılması, innovasiyaların tətbiqi və məşğulluğun təmin olunmasında böyük paya malikdir. Eyni zamanda, Aİ iqtisadiyyatın böyüməsi və inflyasiya meyllərini nəzərə alaraq kiçik sahibkarların fəaliyyətinin davamlı təsirini təmin edir. İşçi sayı və dövriyyə artdıqca, praktik olaraq güzəştlərdən faydalanan sahibkarların sayı da artır. Avropa İttifaqı növbəti mərhələdə kiçik sahibkarların dəstəyinin daha da gücləndirilməsini planlaşdırır. Bu baxımdan iqtisadi böyümə, alıcılıq qabiliyyəti və inflyasiya meyarları nəzərə alınaraq müvafiq addımlar atılır. Məqsəd yeni məhsulların payını müəyyən qədər kiçik sahibkarların payının artması hesabına tarazlaşdırmaq və nəticədə onların ümumi iqtisadiyyatdakı rolunu gücləndirməkdir. Avropa Komissiyası tərəfindən belə qərarlar mütəmadi olaraq müşahidə edilir.

Gözləntilər ondan ibarətdir ki, son qərarlar kiçik sahibkarların payının azalmasına səbəb olmayacaq. Məsələyə siyasi aspektdən baxdıqda isə direktivin tətbiq dairəsinin daraldılması üzv ölkələr arasında fikir ayrılıqlarını artıra bilər. Mərkəzçi qruplar tərəfindən təşəbbüslərin yumşaldılması isə bəzi üzv dövlətlərin iqtisadi və sosial maraqları ilə ziddiyyət təşkil edə bilər. Bu, xüsusilə insan hüquqları və ekoloji öhdəliklərin icrası baxımından problemlər yaradır, çünki bəzi ölkələr və fraksiyalar bu sahədə daha sərt standartları müdafiə etmək istəyir.

Parlament daxilindəki parçalanma, milli maraqların ön plana çıxması və ideoloji fərqliliklər direktivin yekdil şəkildə qəbulunu çətinləşdirir. Bu, enerji siyasəti, dayanıqlılıq və sosial məsuliyyət kimi strateji sahələrdə Avropanın vahid mövqeyinin zəifləməsi ilə nəticələnə bilər.

# Türk dünyasının nüfuzlu lideri



## III MƏQALƏ

### TDT təşəkkülün yeni mərhələsində

Qəbələdə keçirilən XII Zirvə görüşü türk dövlətlərinin siyasi birliyinin perspektivi baxımından prinsipial əhəmiyyət daşıyır. Müzakirə edilən məsələlərin məzmunu və əldə olunan razılıqlar göstərir ki, TDT faktiki olaraq təşkilatlanmanın yeni pilləsinə qədəm qoymuşdur. Təşkilatın 2009-cu ildən başlayaraq baş verən transformasiyaları üçün xarakterik olan və müəyyən mənada artıq ənənəyə çevrilməkdə olan bir neçə əlamət Qəbələ Zirvəsində də müşahidə edildi.

Birincisi, Azərbaycan TDT-nin gücləndirilməsi kursuna tam sadiq qalaraq, maraqlı təşəbbüslərlə çıxış etdi.

İkincisi, təşkilatın digər üzvləri öncəki mərhələlərdə aparıcılıq təşkil edən sivil, siyasi, iqtisadi, mədəni, maliyyə və informasiya istiqamətləri üzrə əlaqələri daha da gücləndirmək xəttini gözlədilər.

Üçüncüsü, XXI əsrin geosiyasi dəyişmə dinamikasına uyğun olaraq TDT üzvləri çevik yeniləşmə kursunu növbəti dəfə nümayiş etdirdilər. Onun iki əsas əlaməti vardı. Onlardan biri Azərbaycan Prezidenti İlham Əliyevin TDT-nin ortaq hərbi və müdafiə sistemini yaratmaq zərurəti ilə bağlıdır. Digəri Türkiyə Prezidenti R.T.Ərdoğanın obrazlı ifadə etdiyi "laqeyd bir beynəlxalq sistemlə üz-üzəyik" tezisidir. Burada "laqeydlik" (və ya biganəlik) beynəlxalq miqyasda nizamsız, haqsız və humanitarlığı çox zəif olan bir tendensiyanın getdikcə güclənməsini ifadə edir.

TDT-nin gücləndirilməsi, sivil özünütəşkil mahiyyətinin saxlanması və beynəlxalq miqyasda baş verən geosiyasi proseslərə Türk dünyasının maraqları işığında çevik reaksiyasının verilməsi istiqamətləri Qəbələdə yeni təşəbbüslərin xarakterini müəyyən etmişdir. Bu aspekt üzərində bir qədər geniş dayanmaq gərəkdir.

### Prezident İlham Əliyevin liderlik nüfuzu və TDT

Azərbaycan dövlət başçısının liderlik nüfuzu artıq TDT üçün siyasi kriteriyalardan birinə çevrilmişdir. Faktiki olaraq, Azərbaycan Respublikası türk dövləti kimi və İlham Əliyev siyasi lider olaraq təşkilatın aparıcı faktoru rolunu oynayırlar. Buna üç aspektdə izah vermək olar.

Birincisi, Azərbaycan coğrafi mövqeyinə və ənənəvi geosiyasi roluna görə Türk dünyasını birləşdirə biləcək faktordur. Türkiyə ilə Mərkəzi Asiyanı coğrafi ərazi və geosiyasi güc kimi Bakı inteqrasiya edə bilər. Türkiyədən Mərkəzi Asiyaya "yol" sözün bütün anlamlarında Bakıdan keçir. Eynilə, Mərkəzi Asiyadan "yol" Türkiyəyə Azərbaycandan keçir.

Bu metaforanın müxtəlif real əyani ifadəsini çoxlu sayda layihələrdə və Prezident İlham Əliyevin təşəbbüs etdiyi əməkdaşlıq platformalarında görə bilirik. Daha dərində olan bir fəlsəfi məqam da mövcuddur.

İkincisi, ilk dəfə Azərbaycan siyasi xadimi Heydər Əliyev "bir millət, iki dövlət" kəlamı ilə eyni mədəniyyətə, lakin müstəqil dövlətlərə malik etnosun hansı mənada siyasi birlik yarada biləcəklərinin fundamental şərtlərini müəyyən etmişdir. İndi bu məna sərhədi bütün türk dövlətlərinə qədər genişlənir. Prezident İlham Əliyevin siyasi varis olaraq bu çox əhəmiyyətli fəlsəfi anlamı olan prosesi inkişaf etdirməsi tamamilə təbiidir!

Üçüncüsü, TDT-ni müxtəlif sferalarda Qərblə Şərq arasında mühüm geosiyasi məkana çevirməyi hədəfləyən əsas layihələrin müəllifi Azərbaycandır. Bu sırada son zamanlar Orta Dəhliz kontekstində Zəngəzur məsələsinin qlobal güclərin maraq dairəsinə gətirilməsi də Azərbaycan Prezidentinin liderlik fəaliyyəti ilə birbaşa bağlıdır.

Qəbələ Zirvəsində TDT-yə üzv dövlət başçılarının söylədikləri fikirlər bu üç tezisi təsdiq edir.

Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Macarıstan rəhbərlərinin irəli sürdükləri təşəbbüslər mahiyyətcə Azərbaycan tərəfinin təşəbbüsləri ilə həm səsləşirdi, həm də ona yardımçı olurdular. Məsələn, enerji təhlükəsizliyi ilə bağlı V.Orbanın fikirləri, R.T.Ərdoğanın türk dövlətlərinin bir-birini dəstəkləməsi ilə əlaqədar (xüsusilə, Şimali Kipri) ifadə etdiyi fikirlər, Qazaxıstan tərəfinin kibertəhlükəsizlik, ortaq maliyyə sisteminin yaradılması kimi məsələni aktuallaşdırması (Prezident İlham Əliyev: "Ölkəmiz təşkilatın işinə dəstək məqsədilə Katibliyin hesabına 2 milyon ABŞ dolları məbləğində ianə köçürmüşdür"), Özbəkistan, Qırğızıstan və Türkmənistan rəhbərlərinin əməkdaşlığı inkişaf etdirmək üçün irəli sürdükləri fikirlər vurğuladığımız tezisləri təsdiq edirlər.

Bunların fonunda Prezident İlham Əliyevin Qəbələdə irəli sürdüyü təşəbbüs üzərində dayana bilərik.

### TDT ciddi geosiyasi mərkəz kimi

Prezident İlham Əliyev Qəbələdəki çıxışında vurğulamışdır: "Bu gün Türk Dövlətləri Təşkilatı, sadəcə, əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır. Təşkilatımızın beynəlxalq səviyyədə nüfuzunun artması məmnunluq doğurur. Ortaq tarixi və etnik köklərimiz, müştərək milli-mənəvi dəyərlərimiz bizi bir ailə kimi birləşdirir".

Təşkilatın qlobal geosiyasi arenada ciddi geosiyasi mərkəzlərdən biri olması ideyasını Prezident İlham Əliyev Naxçıvan Zirvə görüşündən bu yana həmişə önə çəkmişdir. Bu istiqamətdə ardıcıl olaraq təkliflər vermiş və təşəbbüslər irəli sürmüşdür. Onların fonunda Qəbələdə ifadə edilən fikir onu göstərir ki, TDT artıq ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşmanın yeni mərhələsinə qədəm qoymuşdur.

Bir tərəfdən, dünya miqyasında geosiyasi proseslər daha həssas mərhələyə keçmişdir, digər tərəfdən isə həmin proseslərin Türk dünyasına təsiri artmışdır. Buna reaksiya kimi TDT-nin özünü ciddi geosiyasi güc kimi formalaşdırması təbii və məntiqidir. Prezident İlham Əliyevin Qəbələdən verdiyi bu mesaj olduqca əhəmiyyətlidir və bir sıra dairələri özünə gətirməlidir.

Bundan başqa, Azərbaycan dövlət başçısının TDT-nin vurğulanan istiqamətdə perspektivini əks etdirən arqumentləri əsaslı görünür.

### 7 fundamental arqument

Azərbaycan lideri fikirlərinə davam edərək vurğulamışdır: "Daxili siyasi və iqtisadi sabitlik, əhəmiyyətli geostrateji mövqe, müsbət demoqrafiya və gənc əhali, nəqliyyat-logistika sahəsində böyük imkanlar, təbii resurslar, habelə hərbi və hərbi-texniki sahədə artan potensial TDT-ni qlobal arenada vacib aktora çevirir".

Belə alınır ki, daxili siyasi sabitlik, daxili iqtisadi sabitlik, əhəmiyyətli geostrateji mövqe, müsbət demoqrafiya və gənc əhali, nəqliyyat-logistika sahəsində böyük imkanlar, təbii resurslar, habelə hərbi və hərbi-texniki sahədə artan potensial kimi çox mühüm 7 arqument TDT-nin qlobal miqyasda ciddi aktor olmasının möhkəm bazasını təşkil edirlər.

Bu arqumentlərin ayrı-ayrılıqda geosiyasi və siyasi-nəzəri təhlili çox vacibdir. Məsələnin Prezident İlham Əliyev tərəfindən qoyuluşunun olduqca əhəmiyyətli cəhətini mütləq vurğulamaq gərəkdir.

### Sülhün qorunması və təhlükəsizlik

Azərbaycan Prezidenti fikirlərinə davam edərək ayrıca vurğulamışdır: "Təşkilatımızın təməl sənədi olan Naxçıvan Sazişində sülhün qorunması və təhlükəsizlik əsas məqsəd və vəzifələr sırasında yer alıb. Dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışları fonunda, ötən il Şuşada qeyri-rəsmi Zirvə Görüşü zamanı qəbul edilmiş Qarabağ Bəyannaməsinə və bugünkü Zirvə Görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusuna uyğun olaraq, türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi olduqca vacibdir".

Bu müddəalar faktiki olaraq yuxarıda qeyd edilən tezislərin ümumi siyasi-nəzəri təməlini təşkil edirlər. Birincisi, Naxçıvan Sazişi TDT-nin təməl sənədidir. İkincisi, orada sülhün qorunması və təhlükəsizlik əsas məqsəd və vəzifələr sırasında yer almışdır. Üçüncüsü, təşkilat həmişə dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışları fonunda fəaliyyət göstərməlidir. Dördüncüsü, 2024-cü ildə Şuşada qeyri-rəsmi Zirvə Görüşü zamanı qəbul edilmiş Qarabağ Bəyannaməsində əks olunan müddəalarla Qəbələ Zirvə Görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusu arasında ciddi məna, məzmun və məqsəd bağlantısı vardır.

Bütün bunların əsasında Prezident İlham Əliyev iki mühüm ümumiləşdirici tezis irəli sürür. Birincisi, "təhlükəsizlik təmin edilmədən inkişaf mümkün deyil". İkincisi, "Beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulduğu dövrdə ölkələrimiz arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq çox önəmli amillərdən biridir".

Nəhayət, ifadə edilən fikirlərin məntiqi yekunu kimi Azərbaycan lideri vacib bir tezisi irəli sürür.

### Birgə hərbi təlimlər

Prezident İlham Əliyev Qəbələdə indi tarixi adlandırılan bir fikri təklif etmişdir. Dövlət başçısı demişdir: "Ölkələrimiz arasında hərbi, müdafiə və təhlükəsizlik sahələrində geniş əməkdaşlığı nəzərə alaraq, 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif edirəm.

Bugünkü dünyada hərbi güc hər bir ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün əsas amilidir".

Bu tarixi təklifdə iki mühüm cəhətin sintezini görürük. Onlardan biri əsaslandırıcı rolunu oynayır. Konkret olaraq, türk dövlətləri arasında hazırda hərbi, müdafiə və təhlükəsizlik sahələrində geniş əməkdaşlıq mühiti yaranmışdır. Bu, möhkəm bünövrədir və TDT çərçivəsində daha da inkişaf etdirilməsi zəruridir.

Digər cəhət buradan avtomatik olaraq məntiq əsasında alınır. Yəni strateji məqsəd hər bir türk ölkəsinin müstəqilliyi və ərazi bütövlüyü təmin edilməsindən ibarətdir.

Sonuncu tezisin ümumi konteksti bütövlükdə TDT nümunəsində türk dövlətlərinin siyasi birliyinin fəlsəfəsinin təməlini təşkil edir. Azərbaycan lideri ifadə edir ki, TDT-yə üzv olan hər bir türk ölkəsi müstəqil dövlətçiliyini daim saxlamalıdır və bu kontekstdə onların hər birinin ərazi bütövlüyünün təmini mütləq yerinə yetirilməlidir.

Bir sıra qərəzli dairələr üçün bu çox vacib və aktual mesajdır. Çünki onlar TDT-də kimlərinsə "böyük qardaş" rolunu üzərinə götürəcəyi kimi xülyalara qapılırlar. İlham Əliyev isə vurğulayır: türk xalqları eyni millətin təmsilçiləridirlər və onların hər biri əbədiyyən müstəqil dövlətə və toxunulmaz əraziyə sahib olacaqlar!

Türk dövlətləri müasir mərhələdə dünyada ilk dəfə xalq birliyini uğurlu və perspektivli siyasi birlik modelinə proyeksiya etmək təcrübəsini formalaşdırırlar. Bu xüsusiyyət TDT-ni başqa bütün təşkilatlardan prinsipial olaraq fərqləndirir.

Burada biz ümumi fəlsəfi və siyasi-nəzəri səviyyədə "bir millət, iki dövlət" tarixi kəlamından "bir millət, çoxlu dövlət" formuluna uğurlu ideya və konseptual keçidi görürük.

Qarşıda bizi daha geniş əhatədə bu kimi aktual məsələləri elmi təhlil etmək məsuliyyəti gözləyir!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

*Naxçıvanda təqdimatlar*

# "Yaşıl enerji zonası" konsepsiyası

**Dünən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının inkişafı məqsədilə bir sıra prioritet istiqamət müəyyənləşdirib. Bunlardan biri də muxtar respublikanın zəngin enerji resurslarından səmərəli istifadə və "yaşıl enerji zonası" üzrə layihələrin icrası, eləcə də enerji ixracı imkanlarının təmin edilməsinə geniş imkanlar açır.

Energetika naziri Pərviz Şahbazov qeyd edib ki, Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, muxtar respublikanın energetika sistemi yenilənir və daha da təkmilləşdirilir, bərpaolunan enerji istehsalı və ixracı ilə bağlı ardıcıl tədbirlər həyata keçirilir. Zəngəzur dəhlizinin reallaşması ilə Naxçıvan hərtərəfli inkişaf edəcək, muxtar respublikanın enerji təhlükəsizliyi təmin ediləcək, bu diyar Avrasiyanın mühüm enerji qovşağına çevriləcək.

Görüşdə Naxçıvan Muxtar Respublikasında "Yaşıl enerji zonası" konsepsiyası təqdim olunub. Konsepsiya əsasında Nax-



sıdır. Dövlət başçısının 23 dekabr 2024-cü il tarixli sərəncamına əsasən, Naxçıvanda yeni istilik elektrik stansiyası da tikiləcək. Naxçıvanın mövcud alternativ və bərpaolunan enerji resursları bu layihələrin icrasına, çıvanın "yaşıl enerji zonası"na çevrilməsi, muxtar respublikada yeni elektrik stansiyalarının inşası və enerji ixracı layihələrinin icrası ilə bağlı görüləcək işlər diqqətə çatdırılıb.

# "Naxçıvan" biblioqrafiyası

**AMEA Naxçıvan Bölməsində isə Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə hazırladığı "Naxçıvan" biblioqrafiyasının təqdimatı keçirilib.**

Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov Naxçıvanın tarixi, iqtisadiyyatı, mədəniyyəti, ədəbiyyatının araşdırılıb sistemləşdirilməsi baxımından "Naxçıvan" biblioqra-



AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev muxtar respublikanın 100 illik tarixini əhatə edən "Naxçıvan" biblioqrafiysının mükəmməl hazırlandığını, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün gərəkli məlumat mənbəyi olduğunu söyləyib. O, Prezident İlham Əliyevin sərəncamının, AMEA prezidenti, akademik İsa Həbibbəylinin "Nuhçıxandan Naxçıvana" adlı əhatəli giriş sözünün və ümummilli lider Heydər Əliyevin Naxçıvanla bağlı fikirlərinin nəşrə mötəbərlik və zənginlik gətirdiyini qeyd edib.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov "Naxçıvan" biblioqrafiyası, bütövlükdə, Azərbaycanın elmi və mədəni yaddaşının bir hissəsi olduğunu, 200-ə yaxın belə nəşrin sırasında xüsusi dəyər daşıdığını bildirib.

fiyasını yüksək qiymətləndirib. AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Əbülfəz Quliyev, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktor müavini, tarix elmləri doktoru Eynulla Mədətli, AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü, professor Vəli Baxşəliyev, tarix elmləri doktoru, professor Xəzər Hüseynov da biblioqrafiyanın yüksək peşəkarlıqla tərtib edildiyini deyib, müəlliflərə təşəkkürlərini ifadə ediblər.

Mərasimdə Milli Kitabxananın hazırladığı "Qədim diyarın bir əsrlik yolu" adlı virtual sərgiyə baxış da keçirilib.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Xocalının Təzəbinə və Ballıca kəndlərinə növbəti köç



**Oktyabrın 10-da Xocalı rayonunun Təzəbinə və Ballıca kəndlərinə növbəti köç olub. Bu mərhələdə iki kəndə ümumilikdə 43 ailə qayıdıb.**

Qeyd edək ki, bundan əvvəlki köç mərhələlərində Ballıca kəndinə 912 nəfərdən ibarət 200 ailə, Təzəbinə kəndinə isə 28 ailə - yəni, 125 nəfər köçürülüb. Hazırda hər iki kənddə sakinlərin rahat yaşayışı üçün bütün şərait yaradılıb, zəruri infrastruktur və kommunal xidmətlər tam təmin edilib.

***XQ***

# BTC Gürcüstanın da sosial-iqtisadi inkişafına önəmli töhfə verib

## *20 il əvvəl boru kəmərinin qonşu ölkədən keçən hissəsində işlər başa çatıb*

**Ümummilli lider Heydər Əliyevin qalibiyyətli neft strategiyasının təntənəsi olan Bakı – Tbilisi – Ceyhan (BTC) əsas ixrac boru kəməri uzun illərdir ki, Azərbaycan, Gürcüstan və Türkiyənin sosial-iqtisadi inkişafına, dost və qonşu ölkələrin xalqlarının rifahına xidmət edir. Təsadüfi deyil ki, 2002-ci il sentyabrın 18-də üç ölkənin dövlət başçılarının iştirakı ilə Səngəçal terminalında keçirilən təməlqoyma mərasimi zamanı torpağa basdırılan “Zaman kapsulu”nda gələcək nəsillərə ünvanlanmış müraciətdə qeyd olunurdu: “…Əminik ki, Bakı – Tbilisi – Ceyhan Boru Kəməri layihəsinin gerçəkləşməsi ülvi amallara xidmət edərək regionun simasını dəyişdirəcək, siyasi iqlim sabitləşəcək, iqtisadi inkişafa ciddi təkan verəcək, xalqlarımızın rifahı yüksələcəkdir”.**



Xatırladaq ki, ümumi uzunluğu 1768 kilometr olan boru kəmərinin 249 kilometrlik hissəsi Gürcüstan ərazisindən keçir. Boru xətti bu ölkənin Qardabani, Marneuli, Tetritskaro, Tsalka, Borjomi, Axaltsixe və Agideni rayonlarının ərazisi boyu uzanır. Burada 46 düymlük borularla çəkilmiş kəmər boyunca 2 nasos stansiyası inşa olunub. BTC-nin Gürcüstan hissəsində tikinti-quraşdırma işləri isə Fransa – ABŞ alyansı olan “Spi Kapaq-Petrofak” şirkəti tərəfindən həyata keçirilib.

2004-cü ilin oktyabr ayında Azərbaycanın Ağstafa rayonunun Böyük Kəsik kəndində, Gürcüstanın Qardabani rayonu ilə sərhəddə BTC kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsi mərasimi keçirilib. “Qızıl qaynaq” adlanan həmin mərasimdə hər iki ölkənin dövlət başçıları boru kəmərinin Azərbaycan və Gürcüstan hissələrini rəmzi olaraq qaynaqlayıb birləşdiriblər. Bu, BTC-nin çəkilişi müddətində həyata keçirilən 15 min qaynaq əməliyyatından biri idi.

Yeri gəlmişkən, regional enerji xəritəsinin əsas arteriyalarından olan bu nəhəng neft kəmərinin “qızıl qaynaq” əməliyyatı ilə birləşdirilməsi, həm də zəmanəmizin möhtəşəm layihələrindən biri, nəhəng inşaat və mühəndis qurğusu sayılan BTC-nin tamamlanmasına doğru növbəti mühüm addım sayılırdı. Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsində həm də qarşılıqlı inam məsələsi vardı. Bu, iqtisadi inkişafla yanaşı, insanların bir-birinə sosial-mədəni sahədə daha da yaxınlaşmasına xidmət edirdi.

2005-ci il mayın 25-də Səngəçal terminalında Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin iştirakı ilə xam neftin BTC-yə vurulmasına start verilib. Bununla da, boru xəttinin Azərbaycan hissəsi istifadəyə verilib. Həmin ilin oktyabrında xam neft ölkəmizin sərhədini aşaraq Gürcüstan ərazisinə daxil olub. Ayın 12-də isə bu ölkənin Qardabani rayonunda yerləşən 1 nömrəli nasos stansiyasının ərazisində təntənəli mərasim keçirilib. Beləliklə, boru kəmərinin Gürcüstan hissəsi də istifadəyə verilib.

“Üç dənizin əfsanəsi” adlandırılan bu nəhəng neft ixracı marşrutu Gürcüstan üçün, sadəcə, tranzit marşrutu deyil, həm də sosial-iqtisadi inkişafın mühüm sütunlarından birinə çevrilib. 2006-cı ildən fəaliyyət göstərən bu layihə ölkəyə sabit gəlir, yeni iş yerləri və infrastruktur imkanları qazandırmaqla yanaşı, regionlarda sosial rifahın artırılmasına da töhfə verib. Eyni zamanda, Gürcüstan bu layihə ilə mühüm tranzit ölkə statusunu möhkəmləndirərək beynəlxalq enerji təhlükəsizliyində öz yerini daha da gücləndirib.

Təsadüfi deyil ki, 2002-ci il sentyabrın 18-də boru kəmərinin təməlqoyma mərasimində Gürcüstanın o zamankı dövlət başçısı Eduard Şevardnadze “Bakı – Tbilisi – Ceyhan” layihəsini müstəqillik əldə etdikdən ötən 10 ildə Gürcüstan üçün ən böyük nailiyyətlərdən biri kimi dəyərləndirmişdi. Dost ölkənin Prezidenti bu təntənənin səbəbkarına, layihənin əsas yaradıcısı Heydər Əliyevə gürcü xalqı adından dərin minnətdarlığını bildirimişdi. “Heydər Əliyevin qəhrəmanlığı, müdrikliyi, mətanəti və qarşısına qoyduğu məqsədinə sarsılmaz sədaqəti olmasaydı, Şərq-Qərb enerji dəhlizi gerçəkləşə bilməzdi”, – deyə o əlavə etmişdi.

Layihənin inşaat mərhələsində Gürcüstan iqtisadiyyatına, təxminən, 620 milyon ABŞ dolları həcmində birbaşa sərmayə yönəldilib. Bu mərhələdə ölkədə, təqribən, 4 min 800 yerli vətəndaş işlə təmin olunub ki, bu da xüsusilə regionlarda məşğulluq səviyyəsinin yüksəlməsinə səbəb olub. Ümumilikdə isə, əməliyyat dövründə bu ölkədə 500-dən artıq daimi iş yeri yaradılıb.

BTC-nin istismarı Gürcüstan üçün sabit maliyyə axını təmin edir. Kəmərdən keçən neftə görə ölkə illik, təxminən, 50 milyon dollar həcmində tranzit haqqı alır. Bu məbləğ isə Gürcüstanın ümumi daxili məhsulunun, təqribən, 1 faizinə bərabərdir. Yeri gəlmişkən, Beynəlxalq Maliyyə Fondu bu gəlirləri Gürcüstan iqtisadiyyatında sabitliyin təmin olunmasında əsas amillərdən biri kimi qiymətləndirir.

Bununla yanaşı, layihə Gürcüstanda özəl sektora da fayda verib. Belə ki, BTC-nin inşaat mərhələsində bu ölkədə yerli şirkətlərlə, ümumilikdə, 300 milyon ABŞ dolları dəyərində müqavilələr bağlanıb. Bu, yerli sahibkarlığın inkişafına və biznes mühitinin fəallaşmasına ciddi təkan verib.

Kəmərin keçdiyi ərazilərdə sosial və humanitar layihələr də həyata keçirilib. Ötən müddətdə BP və layihənin digər tərəfdaşları Gürcüstanda sosial məsuliyyət proqramları çərçivəsində 46 milyon dollardan çox vəsait ayırıb. Həmin vəsait hesabına qonşu ölkədə məktəblər bərpa edilib, təmiz su layihələri icra olunub, qadınların iqtisadi fəallığına dəstək verilib və kənd təsərrüfatı təşəbbüsləri maliyyələşdirilib.

BTC, həmçinin infrastrukturun inkişafına da töhfə verib. Kəmərin çəkilişi zamanı Gürcüstan ərazisində yeni yollar, körpülər, elektrik xətləri və digər kommunikasiya xətləri salınıb. Bu, yalnız texniki təhlükəsizliyi deyil, həm də yerli icmaların gündəlik həyat şəraitini yaxşılaşdırıb.

Növbəti illərdə ölkələrimizin iştirakı ilə bir sıra digər qlobal enerji və nəqliyyat layihələri də həyata keçirilib. Həmin layihələrə Bakı – Tbilisi – Ərzurum qaz kəməri və Bakı – Tbilisi – Qars dəmir yolunu misal çəkmək olar. Hazırda isə iki ölkə “yaşıl” enerji istiqamətində fəal əməkdaşlıq edirlər. Məlum olduğu kimi, ölkəmizdə istehsal olunan təmiz enerjinin yaxın gələcəkdə Gürcüstan ərazisindən keçməklə Qara dəniz sualtı kabel xətti ilə Avropaya nəqli nəzərdə tutulur. Bu isə Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft kəməri ilə başlanan enerji əməkdaşlığının yeni mərhələyə qədəm qoyması deməkdir.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

**Son illərdə ekoloji davamlılıq yalnız idealistlərin və elm adamlarının deyil, həm də bankların, investorların və dövlət qurumlarının gündəminin mərkəzinə çevrilib. Yaşıl kreditlər isə məhz bu dönüşün maliyyə aləti kimi önə çıxır. Ətraf mühitə müsbət təsir göstərən, karbon emissiyasını azaltmağa və enerji səmərəliliyini artırmağa yönəlmiş layihələrin maliyyələşdirilməsini təmin edir.**

# Yaşıl kreditlər gələcəyə qoyulan investisiyadır

Yaşıl kreditlərin spektri genişdir. Bərpa olunan enerji mənbələri – günəş, külək, hidro və biokütlə, binalarda istilik izolyasiyasının yaxşılaşdırılması, enerjiyə qənaət edən texnikaların tətbiqi, elektrik avtomobillərinin alınması, tullantıların idarə olunması, geri dönüşüm və s. Hər bir layihə ictimai və ekoloji dəyər yaradır. Daha təmiz hava, azalan istixana qazları və enerji sərfiyyatında qənaət.

Yaşıl kredit əldə etmək istəyən layihələrin qarşısında duran əsas şərtlər də aydındır. Müraciət edən şəxs və ya müəssisə layihənin ekoloji təsirini — məsələn, karbon emissiyasının nə qədər azaldılacağını ölçülə bilən formada təqdim etməli, bank və ya maliyyə təşkilatının xüsusi meyarlarına cavab verməli və layihənin həyata keçirilməsinin gözlənilən nəticələri haqqında detallı hesabat verməlidir. Bu şəffaflıq həm kredit verən, həm də cəmiyyət üçün riskləri azaldır və investisiyanın nə dərəcədə məqsədəuyğun olduğunu sübut edir.



Üstünlüklər isə göz qabağındadır: yaşıl kreditlər adətən aşağı faiz dərəcələri ilə təmin olunur, dövlət və beynəlxalq təşkilatlardan subsidiyalar, texniki və məsləhət dəstəyi alınması mümkündür. Bunun nəticəsində həm ekoloji təsirin yaxşılaşdırılması, həm də iqtisadi qənaət eyni anda reallaşa bilər. Məsələn, enerji səmərəli binalar uzun müddətdə xərclərin əhəmiyyətli dərəcədə azalmasını təmin edir. Ümumiyyətlə, 1980-ci illərdə ABŞ banklarının ekoloji zərərlərə görə məhkəmələrlə üzləşməsi və cərimələnməsi bu sahədə dönüş nöqtəsi hesab olunur. Məhz o vaxtdan etibarən maliyyə institutları yalnız gəlirə deyil, həm də ətraf mühitə olan təsirə görə qiymətləndirilir.

“Ökobank” və “South Shore” kimi ilk yaşıl banklar bu yeni yanaşmanın canlı nümunələrinə çevrildi. Onlar maliyyələşdirdikləri layihələrdə ekologiyanı və sosial məsuliyyəti önə çəkərək, yalnız kredit verməklə kifayətlənməyib, eyni zamanda yerli cəmiyyətlərin rifahına və təbii resursların qorunmasına yatırım etdilər. Bu bankların fəallığı göstərdi ki, maliyyə kapitalı ictimai və ekoloji fayda üçün də güclü alət ola bilər. Yaşıl bankçılıq bank investisiyalarını ekoloji davamlılıq və sosial məsuliyyət prinsipləri əsasında istiqamətləndirən yanaşmadır. Bu, həm banklar üçün yeni biznes imkanları, həm də cəmiyyət üçün real dəyər deməkdir. Bu çərçivədə təqdim olunan “yaşıl kreditlər” də xüsusi əhəmiyyət daşıyır. Onlar ekologiyaya və cəmiyyətə fayda verən layihələrin reallaşması üçün nəzərdə tutulmuş maliyyə resurslarıdır. Belə kreditlər sayəsində iqtisadiyyat daha təmiz, daha səmərəli və daha ədalətli istiqamətə doğru hərəkət edir.

Azərbaycanda da yaşıl kreditlərə maraq sürətlə artır. Müstəqil maliyyə institutlarımızdan biri – Mərkəzi Bank tərəfindən hazırlanan və təsdiqlənən Yaşıl Taksonomiya bu sahədə vacib addımdır. İqtisadi sektorlar üzrə yaşıl fəaliyyət növlərinin və onların texniki təsnifat meyarlarının müəyyənləşdirilməsi maliyyə bazarında standartlaşmanı və şəffaflığı gücləndirir. Bu, yerli bankların və investorların yaşıl layihələri daha rahat qiymətləndirməsinə və maliyyələşdirməsinə imkan yaradır.

Maraqlı və eyni zamanda düşündürücü statistika da vəziyyətin necə inkişaf etdiyini aydın göstərir. Bu ilin I yarısında Azərbaycan bankları tərəfindən verilən 12 min 756 ədəd yaşıl kreditdən 12 min 285-i, yəni əksər hissəsi heyvandarlıq və akvakultura sahəsinin payına düşüb. Məbləğ olaraq isə ümumi 289,9 milyon manat məbləğin 91 milyon manatı bu sahəyə yönəlib. “Yaşıl nəqliyyat”a 284 ədəd (112,1 milyon manat), enerji səmərəliliyinə 89 ədəd (37,5 milyon manat), bərpaolunan enerjiyə 5 ədəd (18,6 milyon manat), suyun dayanıqlı idarə olunmasına 31 ədəd (14,6 milyon manat), çirklənmənin qarşısının alınmasına 4 ədəd (1,2 milyon manat) və dairəvi iqtisadiyyat və tullantıların idarə olunmasına 58 ədəd (14,7 milyon manat) yaşıl kredit verilib. Bu ilkin nəticələr bank sektorunun “yaşıl maliyyə” fəaliyyətinin başlanğıc mərhələsini əks etdirir.

Bu rəqəmlər iki əsas mesaj verir. Bir tərəfdən, yaşıl kreditlər artıq real iqtisadiyyata daxil olur və fermerdən tutmuş sahibkara qədər müxtəlif seqmentləri əhatə edir. Digər tərəfdən isə maliyyələşmənin sahələr üzrə paylanmasında tarazlığın olmadığını görürük: heyvandarlıq və akvakultura böyük həcmdə resurs alarkən, bərpa olunan enerji və enerji səmərəliliyi kimi uzunmüddətli iqlim faydası verən sahələr hələ daha məhdud maliyyə dəstəyi alır. Bu, həm bankların risk qiymətləndirmə meyarları, həm də bazar tələbatı ilə bağlı strateji suallar doğurur.

Qlobal təcrübə isə göstərir ki, yaşıl maliyyələşmənin effektiv olması üçün yalnız kredit mexanizmləri kifayət etmir — ona uyğun olaraq siyasət alətləri, vergi təşviqləri, texniki kömək və layihələrin monitorinqi də eyni dərəcədə vacibdir. Avropa İttifaqı ölkələri, Çin, ABŞ, Yaponiya və Kanada kimi liderlər bu kombinasiya üzərində qurulan sistemlər vasitəsilə yüksələn yaşıl investisiya həcmlərinə nail olublar.

Uğurlu yaşıl transformasiya üçün isə bir neçə amil vacib qalır: peşəkar layihə idarəçiliyi, şəffaf monitorinq, nəticələrin ölçülməsi və cəmiyyətin maarifləndirilməsi. Bank xətləri açmaq başlanğıcdır. Lakin bu xətlərdən maliyyələşən layihələr ölçüləbilən və davamlı faydalar verməlidir. Əks halda, yaşıl etiket yalnız kağız üzərində qalacaq.

Nəticə etibarilə, yaşıl kreditlər həm ölkələr, həm şirkətlər, həm də fərdlər üçün həm mənfəət, həm də dəyər yaradan alətdir. Azərbaycanda Yaşıl Taksonomiyanın tətbiqi və artan maraq bu prosesin başlanğıcıdır. Yaşıl Taksonomiya Azərbaycan Respublikası Mərkəzi Bankının təşəbbüsü ilə aidiyyəti dövlət qurumları nümayəndələrinin iştirakı və Dünya Bankı ekspertlərinin dəstəyi ilə hazırlanıb və 2024-cü il 7 noyabr tarixində Mərkəzi Bank tərəfindən təsdiqlənib. Növbəti və ən vacib addım isə həmin marağı siyasətə, institutlara və icra mexanizmlərinə çevirərək layihələri kütləvi şəkildə həyata keçirməkdir.

Sonda qeyd edək ki, “yaşıl kredit” ideyasına hazırda çox güclü maliyyə dəstəyi gərəkdir. Ölkəmizdə “yaşıl enerji” resurslarının işlənilməsi və ixracına paralel bu sahəyə də getdikcə daha geniş diqqət ayrılması gözlənilir.

*Nurlan ABDALOV*
*XQ*

# BMT-də Azərbaycan uğurlarının təqdimatı

**BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində keçirilən Üçüncü Komitənin (“Sosial inkişaf”) iclasında Azərbaycanın sosial-iqtisadi inkişaf sahəsində həyata keçirdiyi tədbirlər, o cümlədən Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olunması istiqamətində əldə edilən irəliləyişlər barədə məlumat verilib.**

Bu barədə **Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyinin birinci katibi Şəhriyar Hacıyev** çıxış edib. O qeyd edib ki, Azərbaycanda vətəndaşların rifahının, sosial müdafiəsinin və həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəlmiş tədbirlər mütəmadi olaraq həyata keçirilir.



Diplomat bildirib: “Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiqlənmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” proqramı müəyyən edilmiş milli prioritetlərə uyğun kompleks tədbirləri nəzərdə tutur. Azərbaycan 2024-cü ildə təqdim etdiyi dördüncü Könüllü Milli İcmal vasitəsilə 2021–2024-cü illər üzrə milli öhdəlikləri barədə ətraflı məlumat verib və 2030-cu ilədək olan Gündəliyə daxil edilmiş DİM-lərə doğru irəliləyişi nümayiş etdirib”

Ş.Hacıyev xatırladıb ki, son 10 ildə həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində Azərbaycanda aylıq minimum əməkhaqqı 3,3 dəfə, minimum pensiya məbləği isə 2,4 dəfə artıb.

Diplomat Azərbaycanın münaqişədən sonrakı bərpa və yenidənqurma sahəsində əldə etdiyi irəliləyişlərdən də bəhs edib: “Hökumətin bu proses üzrə prioritetləri mina təmizlənməsi, infrastrukturun inkişafı, iqtisadi və sosial bərpa, eləcə də ətraf mühitin davamlılığını əhatə edir. Mina təmizlənməsi, partlayıcı sursatların riskləri ilə bağlı maarifləndirmə və zərərçəkmişlərə dəstək də daxil olmaqla, mina fəaliyyəti sahəsində təcili ehtiyacı nəzərə alaraq Azərbaycan 18-ci Milli DİM-i qəbul edib. Təəssüf ki, münaqişədən sonrakı dövrdə Azərbaycanda mina qurbanlarının sayı 409 nəfərə çatıb ki, bu da bu sahədə hesabatlılığın artırılmasını və adekvat beynəlxalq yardımın göstərilməsini tələb edir”.

*XQ*

## Qeyri-neft sektorunda yeni əmək müqavilələri

**2025-ci il oktyabr ayının 1-nə ölkədə əmək müqavilələrinin sayı 2019-cu ilin əvvəli ilə müqayisədə 466 min 613 vahid artaraq 1 milyon 868 min 528-ə çatıb. Bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən məlumat verilib.**




Qeyd olunub ki, oktyabrın 1-nə qeyri-neft sektorunun özəl bölməsində əmək müqavilələrinin sayı 1 milyon 11 min 208 təşkil edib. 2019-cu ilin əvvəlindən indiyədək bu sektorda əmək müqavilələrinin sayı 471 min 286 vahid və ya 87,3 faiz artıb. Ümumi əmək müqavilələrinin 54,1 faizə yaxını qeyri-neft sektorunun özəl bölməsinin payına düşüb. Bütövlükdə, cari ilin 9 ayında qeyri-neft özəl sektorunda qeydə alınmış 28 min artımın əsas hissəsi xidmət, ticarət və tikinti sahələrində müşahidə edilib.

Məlumatda o da bildirilib ki, əldə olunan nailiyyətlər Azərbaycan iqtisadiyyatının post-neft dövrü üçün dayanıqlı və inklüziv inkişaf modelinə keçidini sürətləndirir, eyni zamanda, dövlətin əsas hədəfinin – qeyri-neft sektorunun özəl bölməsində dayanıqlı məşğulluğun və sosial rifahın yüksəldilməsinin uğurla həyata keçirildiyini nümayiş etdirir.

*XQ*

## Ən yeni kassa aparatları ilə ticarət artır

**Cari ilin yanvar–sentyabr aylarında Azərbaycanda yeni nəsil nəzarət-kassa aparatları (NKA) vasitəsilə qeydə alınan dövriyyə 20 milyard 126 milyon manat olub. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 12,7 faiz çoxdur.**



İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına əsasən, indiyə qədər ölkə ərazisində 108 min 631 ədəd yeni nəsil NKA quraşdırılıb. Bildirilib ki, yeni nəsil NKA-dan istifadə ticarət proseslərinin optimallaşdırılmasına, hesablaşmaların daha şəffaf aparılmasına, malların qanunsuz dövriyyəsinin qarşısının alınmasına və dövriyyəyə nəzarətin təmin edilməsinə imkan yaradıb.

*XQ*

# Qarabağın Zəfər ünvanlı yolları

## *Bölgədə qısa müddətdə yaradılmış yol-nəqliyyat şəbəkəsi Böyük Qayıdışa əzəmətli meydan açır*

**Son illər ölkəmizdə müasir və keyfiyyətli yol-nəqliyyat infrastrukturunun formalaşdırılması istiqamətində çoxsaylı layihələr həyata keçirilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan bu layihələrin icrası ilə ölkə daxilində bölgələrarası əlaqələr möhkəmlənib, eyni zamanda, respublikamız beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevrilib. Başqa sözlə, yol-nəqliyyat infrastrukturu müasir avtomobil magistralları, körpülər, tunellər, yeni logistika mərkəzləri və beynəlxalq tranzit dəhlizləri əsasında qurularaq qlobal rəqabətədavamlı nəqliyyat sisteminin tərkib hissəsinə daxil edilib.**

Yol infrastrukturunu inkişaf və rifahın simvolu kimi dəyərləndirən, bu sahənin texniki cəhətləri ilə bərabər, sosial-iqtisadi və strateji əhəmiyyətini də yüksək qiymətləndirən ölkə rəhbəri bölgələrdə həyata keçirilən genişmiqyaslı layihələrin əhalinin hərəkət imkanlarını artırmaqla yanaşı, kənd təsərrüfatı, turizm, sənaye və xidmət sektorlarının inkişafına da güclü təkan verdiyini bildirib.

Azərbaycan hökuməti son illərdə yol-nəqliyyat siyasətində sistemli və ardıcıl proqramlara əsaslanaraq bu sahənin inkişafını daim diqqətdə saxlayıb. Bu istiqamətdə önəmli təşəbbüslərin gerçəkləşdirilməsini şərtləndirən "Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulan layihələrin icrası ilə minlərlə kilometr uzunluğunda avtomobil yolları yenidən qurulub, yüzlərlə körpü və keçid tikilib. Təkcə 2004–2024-cü illər ərzində respublikanın müxtəlif bölgələrində 25 min kilometrdən çox avtomobil yolu inşa edilib və ya əsaslı təmir olunub. Bununla da ölkə ərazisinin, demək olar ki, hər guşəsinə rahat və təhlükəsiz nəqliyyat çıxışının gerçəkləşməsinə əlverişli imkan yaradılıb.

Ümumiyyətlə, yeni avtomobil yollarının inşası bölgələr arasında iqtisadi balansın qorunmasına, işsizlik səviyyəsinin azalmasına, kənd təsərrüfatı və sənaye məhsullarının bazarlara operativ çatdırılmasına mühüm təsir göstərib. Bu proses, həmçinin kəndin şəhərlə əlaqəsini möhkəmləndirərək əhalinin sosial rifahını daha da yaxşılaşdırıb.



### 20 ilin yol salnaməsi

Azərbaycan yol infrastrukturu 2004–2024-cü illər ərzində ən parlaq inkişaf mərhələsini yaşayıb. Bu dövrdə 335 körpü və yol ötürücüsü, 163 piyada keçidi, 45 tunel inşa edilib. Hazırda yalnız Qarabağ və Şərqi Zəngəzurda 44 avtomobil yolu layihəsi icra olunur. Həmin yollar üzərində 70 kilometrdən çox tunel, 447 körpü tikilir. Bu göstəricilər Azərbaycanın iqtisadi gücünün, müasir mühəndislik təcrübəsinin və dövlətin planlı fəaliyyətinin real nəticəsidir. Təbii ki, bu qurğuların istismara verilməsi nəqliyyat sistemində sıxlıq və tıxacların aradan qaldırılması, vətəndaşların avtomobil yollarını rahat və təhlükəsiz şəkildə keçməsinin gerçəkləşdirilməsi baxımından xüsusi önəm daşıyır.



Azərbaycanda icra olunan nəhəng infrastruktur proqramı, bir tərəfdən, əhalinin doğma torpaqlara təhlükəsiz qayıdışını təmin edir, digər tərəfdən isə ölkənin iqtisadi mərkəzləri ilə bölgələr arasında yeni əlaqə kanalları yaradır. Yolların salınması ilə bölgələr arasında malların və xidmətlərin mübadiləsi intensivləşir. Bu isə regional bərabərlik və milli həmrəyliyin mühüm təməlidir. Hazırda respublikada avtomobil yolları şəbəkəsinin yenilənməsi və inkişafı istiqamətində çoxsaylı yol ötürücüləri, körpülər, tunellər və yeraltı-yerüstü piyada keçidlərinin inşası davam etdirilir.

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbə ölkədə yol-nəqliyyat məsələləri ilə bağlı vəzifələri və hədəfləri də yenilədi. Dövlət başçısının birbaşa tapşırıq və sərəncamları, eləcə də "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" əsasında işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında dünyanın ən modern yol infrastrukturunun yaradılmasına başlanıldı.

### Murovdağ tuneli: MDB məkanında 1-ci

Prezident İlham Əliyev bu il avqustun 21-də Kəlbəcər şəhərinə köçən sakinlərlə görüşündə bu barədə deyib: "Kəlbəcər həmişə ucqar rayon sayılırdı, çünki yollar yox idi. Yüz il bundan əvvəl, ümumiyyətlə, yol yox idi, ancaq atlarla hərəkət etmək mümkün idi. Sovet hakimiyyəti dövründə çəkilmiş yollar da ensiz və təhlükəli idi. Biz Mehriban xanımla işğaldan sonra ilk dəfə Kəlbəcərə, təbii ki, Ömər aşırımından gəldik. O vaxt o yol demək olar ki, bir cığır olmaqla çox təhlükəli idi… Mən o vaxt dərhal göstəriş verdim ki, biz mütləq Gəncə istiqamətindən Kəlbəcərə müasir yol çəkməliyik. Çünki bilirsiniz ki, o vaxt biz Ağdərə – Kəlbəcər yolundan istifadə edə bilmirdik. Ona görə dərhal işlər başlandı və bu gün biz Mehriban xanımla Kəlbəcərə gələndə daha Ömər aşırımından yox, ilk dəfə olaraq tuneldən keçdik. Bu da uzunluğuna görə Avropada beşinci tuneldir. Təxminən 12 kilometr uzunluğunda ən böyük tunel".

Dövlət başçısının sözlərinə görə, Kəlbəcərə getmək üçün inşa edilən digər yol Naftalandan başlayaraq, Ağdərədən keçir. İşğal dövründə qəsbkarların istifadə etdikləri bu magistral da kələ-kötürlüyü səbəbindən narahatlıq doğurur. İndi o yol da genişləndirilir. Üçüncü istiqamət isə Kəlbəcər-Laçın yoludur, təhlükəlidir. Hazırda o yol da dördzolaqlı tunellərlə, körpülərlə tamamilə yeni görkəmə salınır.

Qarabağ və Şərqi Zəngəzurda inşa olunan ən mühüm layihələrdən biri Toğanalı – Kəlbəcər – İstisu avtomobil yoludur. Bu yol təkcə Kəlbəcər rayonunu əsas magistral şəbəkəyə bağlamır, eyni zamanda, bölgənin təbii resurslara, turizm obyektlərinə və sərhəd infrastrukturuna çıxışını gerçəkləşdirir. Magistralın 56 kilometrini Toğanalı-Kəlbəcər hissəsi, 26 kilometrini isə Kəlbəcər-İstisu hissəsi təşkil edir. Avtomobil yolunun 13,5-ci kilometrliyindən Murovdağ silsiləsi başlayır. Beləliklə, yolun ən mühüm hissəsi Murovdağ silsiləsindən keçir. Burada yüksəklik 1700 metrdən 3250 metrədək artır.



Ümumi uzunluğu, təxminən, 80 kilometr olan və üzərində çoxsaylı körpülər, qalereyalar, süni qurğular, eləcə də yüksək dağ massivlərini aşmaq üçün nəhəng tunel sistemləri yerləşən bu layihə həm çətin relyef, həm də ekstremal iqlim şəraiti baxımından ölkə tarixində ən mürəkkəb mühəndislik işlərindən biridir. Müasir texnologiyalar əsasında inşa edilən bu magistral xəttin əsas xüsusiyyəti onun sosial-iqtisadi və turistik təsirinin çoxşaxəli olmasıdır. Kəlbəcərin zəngin mineral su mənbələrinin, o cümlədən məşhur İstisu sanatoriyasının yenidən fəaliyyətə başlaması üçün bu yol həyati əhəmiyyət daşıyır. Yol, eyni zamanda, regionun ekoturizm, dağ turizmi və sağlamlıq istirahəti potensialını reallaşdırmaqla yanaşı, yerli əhalinin məhsullarını bazarlara çıxarma imkanlarını da genişləndirir.

Xatırladaq ki, dövlətimizin başçısının iştirakı ilə 2021-ci ilin avqustunda Toğanalı – Kəlbəcər – İstisu avtomobil yolunun təməlqoyma mərasimi keçirilib. Bu il avqustun 21-də isə yolun 13,5-ci kilometrliyində inşa edilən və uzunluğu 11,7 kilometr olan Murovdağ tunelinin texniki açılışı gerçəkləşdirilib.

İşlərin 87 faizi icra olunan Toğanalı–Kəlbəcər–İstisu avtomobil yolu Göygöl rayonunun Toğanalı kəndindən başlayaraq işğaldan azad edilmiş Kəlbəcərdən keçir və məşhur İstisu istirahət zonasına qədər uzanır. Yolun rayon mərkəzi ilə yanaşı, bölgənin yaşayış məntəqələrinə rahat və təhlükəsiz nəqliyyat əlaqəsini təmin edəcəyi, kənd təsərrüfatının, turizmin inkişafına töhfə verəcəyi gözlənilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş rayonlarımızın qısa müddətdə bərpası, o cümlədən həmin bölgələrdə müasir yol-nəqliyyat infrastrukturunun yaradılması, eləcə də çox çətin coğrafi şəraitdə Toğanalı – Kəlbəcər – İstisu avtomobil yolu kimi strateji əhəmiyyətə malik layihənin icrası diqqətdə saxlanılır.

Toğanalı – Kəlbəcər – İstisu avtomobil yolunun mühüm tərkib hissəsi kimi inşa olunan Murovdağ tuneli Azərbaycan mühəndisliyinin simvoluna çevrilməkdədir. Dünyanın ən uzun avtomobil tunellərindən biri olan bu infrastrukturun iki gediş və iki gəliş olmaqla 4 hərəkət zolaqlı olacağı planlaşdırılır. Tuneldə sağ və sol hissələri birləşdirən 38 keçid artıq istismara hazırdır. Layihə çərçivəsində Murovdağ tunelindən əlavə ümumi uzunluğu 2636 metr olan daha dörd tunel də tikilir.

Uzunluğuna görə Murovdağ tuneli dünyada 18-ci, Avropada 5-ci, MDB məkanında isə 1-ci olacaq. Murovdağ silsiləsini keçən bu nəhəng infrastruktur, eyni zamanda, Azərbaycanı Şərqi Zəngəzurla birləşdirən strateji qovşaqlardan biri kimi çıxış edəcək, mühəndislik baxımından çətinliyinə və strateji əhəmiyyətinə görə isə misilsiz layihə olaraq tarixə düşəcək. Bu tunel vasitəsilə qış aylarında da fasiləsiz nəqliyyat əlaqəsi təmin olunacaq, dağlıq relyefin yaratdığı maneələr aradan qaldırılacaq. Beləliklə, Azərbaycanın qərb rayonları ilə Kəlbəcər və Laçın istiqamətində hərəkət ilboyu sabit və təhlükəsiz şəkildə gerçəkləşəcək.

Yeri gəlmişkən, yol tunelləri, xüsusilə dağlıq ərazilərdə və ya sualtı keçidlərin tələb olunduğu yerlərdə nəqliyyat infrastrukturunun vacib komponentlərindən biridir. Tunellərin uzunluğu həm texniki çətinliklər, həm də layihə təhlükəsizliyi baxımından mühüm rol oynayır. Dünyada ən uzun yol tunellərinə gəldikdə isə qeyd edək ki, hazırda bu infrastruktur (Lærdal) Norveçdə yerləşir və uzunluğu 24,51 kilometrdir. İkinci sırada "WestConnex" (Avstraliya)", təxminən, 22,4 kilometr, sonrakı sırada isə "Yamate" (Yaponiya) 18,20 kilometr uzunluğundadır.

### Regional inteqrasiyanın və təhlükəsizliyin təminatı

Qarabağ və Şərqi Zəngəzurda yaradılan yeni yol şəbəkəsi təkcə iqtisadi məqsədlərə deyil, həm də strateji təhlükəsizliyə xidmət edir. Yolların bərpası regionun müdafiə qabiliyyətini gücləndirir, sərhədyanı ərazilərə nəzarəti asanlaşdırır, fövqəladə hallarda operativ hərəkətliliyi reallaşdırır. Bu yollar, eyni zamanda, Azərbaycanın qərb bölgələri ilə Naxçıvan və Türkiyəyə qədər uzanan geniş kommunikasiya xəttinin tərkib hissəsi kimi də mühüm funksiyaya malikdir. Uzunmüddətli perspektivdə bu şəbəkənin Zəngəzur dəhlizi ilə inteqrasiya olunaraq ölkəmizin tranzit imkanlarını daha da artıracağı proqnozlaşdırılır.



Qeyd edək ki, Azərbaycan və Türkiyə prezidentlərinin təməlini qoyduğu Horadiz – Cəbrayıl – Zəngilan – Ağbənd avtomobil yolu (Zəngəzur dəhlizi) strateji əhəmiyyətə malik olmaqla, regionda yeni iqtisadi, nəqliyyat və kommunikasiya əlaqələrinin qurulmasına mühüm töhfə verəcək. Zəngəzur dəhlizi layihəsi müasir standartlara və yüksək keyfiyyət tələblərinə uyğun şəkildə inşa olunur. Layihənin ümumi uzunluğu 150 kilometr təşkil edir ki, bunun 124 kilometri əsas yoldur. Magistralın texniki dərəcəsi 1B-dir, bu isə yüksək sürətli və təhlükəsiz hərəkətə imkan yaradır.

Horadiz – Cəbrayıl – Zəngilan – Ağbənd avtomobil yolu, Hacıqabul – Horadiz – Ağbənd – Zəngəzur dəhlizi magistralının bir hissəsi kimi, Azərbaycanın digər bölgələrini Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından mühüm əhəmiyyət daşıyır. Bu layihə təkcə nəqliyyat infrastrukturunun inkişafı deyil, həm də regionda iqtisadi inteqrasiyanın sürətlənməsi, yeni ticarət marşrutlarının formalaşması və strateji əməkdaşlığın möhkəmlənməsi baxımından xüsusi önəm kəsb edir. Yolun tam istismara verilməsi yaxın gələcəkdə region üçün yeni iqtisadi və geosiyasi imkanlar yaradacaq.

Yeni yollar, həm də azad edilmiş ərazilərdə məskunlaşmanın əsas təkanverici qüvvəsidir. İnfrastrukturun bərpası sayəsində Kəlbəcər, Laçın, Zəngilan, Füzuli və digər rayonlara köç prosesləri mərhələli şəkildə həyata keçirilir. Avtomobil yolları ilə təmin olunmuş yaşayış məntəqələri iqtisadi fəaliyyətin bərpası, sosial xidmətlərin təşkili və turizm layihələrinin reallaşdırılması üçün əlverişli mühit yaradır. Bu da öz növbəsində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın uğurla icrasını, insanların doğma yurdlarına inamla dönməsini şərtləndirir.

Bu gün Qarabağda və Şərqi Zəngəzurda tikilən hər bir yol Azərbaycanın müasir dövlət quruculuğu fəlsəfəsinin canlı təcəssümüdür. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan bu nəhəng infrastruktur proqramı təkcə regionun deyil, bütövlükdə, ölkənin iqtisadi dinamikasını dəyişir. Yeni yollar, tunellər və körpülər həm Azərbaycanın texnoloji gücünü, həm də iradəsini nümayiş etdirir, bu coğrafiyada həyatın canlandığını, dövlətin hər qarış torpağına qayğı ilə yanaşdığını göstərir.

Beləliklə, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən avtomobil yolu layihələri, o cümlədən Toğanalı – Kəlbəcər – İstisu magistralı və Murovdağ tuneli Azərbaycanın postmüharibə dövründə inkişaf modelinin simvoluna çevrilir. Bu infrastruktur layihələri dövlətin strateji baxışının, iqtisadi planlaşdırma gücünün və milli birliyin təcəssümüdür. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan azad edilmiş ərazilərdə yalnız yollar deyil, həm də gələcəyə aparan yeni inkişaf marşrutları inşa edir.

### Beynəlxalq yollar Azərbaycanda kəsişir

Azərbaycanın yol-nəqliyyat infrastrukturu son illərdə daxili ehtiyaclara cavab verməklə bərabər, həm də beynəlxalq tranzit sistemlərinin ayrılmaz hissəsinə çevrilir. Şimal-Cənub, Şərq-Qərb, Orta Dəhliz kimi qlobal nəqliyyat marşrutları məhz ölkəmizin ərazisindən keçərək Avrasiyanın əsas ticarət xəritəsini formalaşdırır. Bu gün Bakı-Ələt-Qazax-Gürcüstan, Bakı-Astara-İran sərhədi və Bakı-Quba-Rusiya istiqamətlərində inşa edilən magistral yollar beynəlxalq tranzit yüklərinin daşınmasında mühüm rol oynayır. Bu yollarda tətbiq edilən müasir texnologiyalar – intellektual nəqliyyat sistemləri, elektron ödəmə terminalları, təhlükəsizlik kameraları Azərbaycanın yol infrastrukturunu beynəlxalq standartlara uyğunlaşdırır.

Dəhlizlərin regional inkişafa təsirlərini daha da artırmaq, yük cəlbediciliyini yüksəltmək, ümumilikdə, dəhlizlərdən daha səmərəli istifadəyə nail olmaq üçün infrastruktur təminatının təkmilləşdirilməsi qarşıda mühüm vəzifə kimi durur. Şimal-Cənub və Şərq-Qərb dəhlizləri boyunca Azərbaycan daxilində TIR avtomobillərinin parklanması və sürücülərin istirahəti, texniki baxış və xidmətlər üçün xüsusi məntəqələrin yaradılması kimi məsələlər də diqqətdə saxlanılır.

Tarixi İpək Yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan Azərbaycan həm də digər dəhlizlərlə müqayisədə yüklərin ölkəmizin ərazisindən keçməklə müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı təminat verir, daha əlverişli şərtlərlə qısa müddətdə təhlükəsiz və vaxtında çatdırılmasına, tranzit daşımaların həcminin dəfələrlə artmasına imkan yaradır.

Beləliklə, son illərdə Azərbaycanda həyata keçirilən yol-nəqliyyat layihələri təkcə infrastrukturun yenilənməsi deyil, həm də dövlətin sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bu layihələr ölkə iqtisadiyyatının dayanıqlı artımını gerçəkləşdirir, regionların inkişafını balanslaşdırır və Azərbaycanı beynəlxalq nəqliyyat sistemlərinin strateji mərkəzinə çevirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu siyasət nəticəsində Azərbaycan bu gün Cənubi Qafqazda müasir yol-nəqliyyat şəbəkəsinə malik qabaqcıl dövlətlərdən biri kimi tanınır. Yollar ölkələri birləşdirir, xalqları yaxınlaşdırır, gələcəyə aparır və bu, Azərbaycanın inkişaf fəlsəfəsinin əsas mahiyyəti kimi qürur doğurur.

***Vaqif BAYRAMOV***
***XQ***

# Yevlaxda “Kür qırağının seyrəngahı” daha gözəldir

**Müstəqillik dövründə daha sürətlə inkişaf edərək beynəlxalq aləmdə də diqqət mərkəzində olan Yevlax şəhəri haqqında hazırladığımız bu yazıya Azərbaycan Prezidenti İlham Əliyevin fikirlərini epiqraf seçməyimiz təsadüfi deyil. Bildiyimiz kimi, dövlət başçısı bu il iyunun 23-də və sentyabrın 27-də bu şəhərə səfər edib. Beynəlxalq aləmdə gedən ictimai-siyasi proseslərin bütün ölkələrin dövlət başçılarının iş qrafikini necə sıxlaşdırması hamıya məlumdur. O da məlumdur ki, dünyada baş verənlərə ən çevik və adekvat cavab verən liderlərdən biri məhz Azərbaycan Prezidentidir. Ancaq bütün bunlara baxmayaraq, cənab Prezident üç ayda iki dəfə Yevlaxda olub.**



Yevlax ölkəmizin coğrafi mərkəzidir, böyük və strateji mərkəzdir. İndi burada gedən quruculuq işləri inkişaf etmiş şəhərlərdə gedən işlərdən geri qalmır. Əslində mən bir neçə dəfə demişəm, bəzi hallarda, xüsusilə müstəqilliyimizin ilk illərində deyirdik ki, “Avropa standartları”, “Avropa standartlarına çatmalıyıq”, belə bir anlayış var idi. Amma indi görürük ki, bizim öz standartlarımız da geri qalmır. Yəni, indi artıq demək olar ki, Azərbaycan standartları vardır – səliqə, zövq, təmizlik, quruculuq, inkişaf, abadlıq işləri. Azərbaycan standartları digər sahələrdə də özünü göstərir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Yerli tərcüməçi əcnəbi turistlərə danışdı ki...

Hazırlamaq istədiyimiz qəzet materialını məhz bu iki faktla başlamağa tamamilə haqqımız var. Ancaq mən bir haşiyə də çıxmaq fikrinə düşdüm. Belə ki, iki ay əvvəl Yevlaxda təsadüfən tanış olduğum bir sakinin əcnəbi turistə dedikləri indi də qulaqlarımda səslənir: “Yevlax coğrafi baxımdan Azərbaycanın mərkəzində yerləşir, Kür çayı bu şəhərin mərkəzindən keçir, çayın sağ və sol sahilləri eyniadlı rayonun ərazisidir. Ölkəmizdə rayonları sıralayanda “Kürün sağ sahilindəki rayonlar” və “Kürün sol sahilindəki rayonlar” ifadələri işlədilir. Yevlax rayonu və şəhəri isə Kürün hər iki sahilindədir. Yəni Kürün əsrarəngiz gözəlliklərini Yevlaxın mərkəzində görə bilərsiniz. Bu şəhər dövlət və hökumətin, xüsusilə də cənab Prezidentin həmişə diqqət mərkəzində olub”.

## Prezidentin 3 ayda 2 səfəri

Dövlət başçımız üç ay əvvəl bu şəhərdə inşa edilən Olimpiya İdman Kompleksində görülən işlərlə tanış olmuşdu. Sentyabrın 27-də isə həmin qurğunun açılış mərasi-



mində iştirak etdi. Prezidentə məlumat verildi ki, tikintisinə 2024-cü ildə başlanılan kompleksin ərazisi 5,8 hektardır. Burada açıq havada idman meydançaları, stadion, 1100 tamaşaçı yerlik böyük zal, universal idman, güləş, cüdo, bədii gimnastika, boks, kikboksinq, taekvondo, karate, fitnes və trenajor zalları, üzgüçülük hovuzu yaradılıb. Bunlardan başqa, kompleksdə iclas zalı, kafe, hakim, məşqçilər, həkim, şərhçilər üçün otaqlar, restoran, 42 yerlik mehmanxana binası da fəaliyyət göstərir.

Əlavə edək ki, Azərbaycanın ev sahibliyi etdiyi Müstəqil Dövlətlər Birliyi ölkələrinin III Oyunları zamanı boks idman növü üzrə yarışlar Yevlax Olimpiya İdman Kompleksində təşkil olunub. “Xalq qəzeti”nin əməkdaşı Cavid Qaçayev tək Yevlaxda yox, Gəncədə, Şəkidə, Mingəçevirdə, Qəbələdə qəzetimizi təmsil edib, həmin boks yarışlarının ən maraqlı məqamlarını lentə köçürərək redaksiyamızın idman fotoları arxivini xeyli zənginləşdirib.



## Uğurlar gəl-gəl deyir

...Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyevlə çox görüşmüşəm. Yevlax və yevlaxlılar haqqında həmişə həvəslə danışıb. Kürün sahilində görülən tikinti-quruculuq işlərindən qürur hissi ilə söhbət açıb. Hər dəfə bura gələndə yevlaxlı dostlarımla şəhərin küçələrini həvəslə gəzirəm. Abad həyətlərdə uşaqların, böyüklərin necə həvəslə istirahət etdiklərinin şahidi oluram. Tələbə yoldaşım Məzahir Quliyev Yevlaxın hər gün dəyişdiyini xüsusi vurğulayır. Bu bir həqiqətdir ki, Anar Tağıyev Yevlax camaatı ilə çox tez dil tapa bildi və 2019-cu ilin oktyabrından rayonun da, şəhərin də inkişafında mühüm uğurlara imza atdı. Bu gün hər şey göz qabağındadır. Hara gedirsə, rayon rəhbərini hamı öz doğması kimi qarşılayır. Problemini ürəklə deyir...

Cənab Prezidentin Gəncədə Ermənistan tərəfindən atılan raket atəşləri nəticəsində hər iki valideynini itirmiş körpə Nilayla görüşü mütərəqqi düşüncəli insanların olduğu hər yerdə, hamıda duyğusal hisslər yaradıb. Mən isə həmin lentə baxanda Yevlaxda şahidi olduğum bir faktı xatırladım. Belə ki, sentyabr ayında Anar Tağıyev Aşağı Qarxun kəndində 44 günlük Vətən müharibəsi şəhidi Özal Yusiflinin ailəsinin qonağı oldu, şəhidin yeganə övladı Sahibə Yusiflini 1-ci sinfə getməsi münasibətilə evində ziyarət etdi.

O, ailənin sosial qayğıları ilə maraqlandı, şəhidin övladını təbrik etdi, ona gələcək təhsil həyatında uğurlar arzuladı. Xatırladaq ki, Özal Yusifli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub, Yevlax şəhər Şəhidlər xiyabanında dəfn edilib. O, Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda”, “Suqovuşanın azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə təltif olunub.

## Daha 372 tələbə

Söhbət ki, təhsildən düşdü, deyim ki, yeni dərs ilinin başlanmasından əvvəl Yevlaxda ali təhsil müəssisələrinə 600-dən yüksək balla daxil olan məzunlarla keçirilən görüş yaddaşlardan silinməyib. “Konstitusiya və Suverenlik İli” çərçivəsində silsilə tədbirlərdən olan görüşdə şəhər icra hakimiyyətinin başçısı, Mərkəzi Aran Regional Təhsil İdarəsinin müdiri, 600-dən yüksək bal toplayaraq tələbə adını qazanan məzunlar iştirak edib.

Bildirilib ki, rayonun orta ümumtəhsil məktəblərini bitirən məzunlardan 372 nəfəri ali məktəblərə qəbul olub. Gənclərdən 15 nəfər 600-dən yuxarı, 40 nəfər isə 500-dən yuxarı bal toplayıb. Uğurlu göstəricidir. Xüsusi qeyd edilib ki, dövlətimizin təhsil strategiyasının təməlində milli-mənəvi dəyərlərin qorunması, xalqın tarixi, mədəniyyəti, cəmiyyətimizin uğurlu gələcəyi, ölkəmizin davamlı və dayanıqlı inkişafı dayanır. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xüsusilə uğurlu iqtisadi, siyasi, hərbi-müdafiə quruculuğu, eləcə də uğurlu təhsil və gənclər siyasətinin nəticəsində mümkün olub. Məmnunluqla vurğulanıb ki, Şıxəli Qurbanov adına 8 nömrəli şəhər tam orta məktəbinin məzunu Ziynət Məcnunova 668 balla rayon üzrə ən yüksək nəticə göstərərək, Azərbaycan Tibb Universitetinin Tibb fakültəsinə Müalicə işi ixtisası üzrə qəbul olunub.

## Nyu-Yorkdan Gəncəyə, Yevlaxdan Vaşinqtona

Məzahirlə söhbətdə dedim ki, gördünüz də, mənim doğulub-böyüdüyüm Gəncənin adı beynəlxalq aviasiya daşıyıcılarının dünya miqyaslı siyahısına düşdü. Əlavə etdim ki, bu faktı Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri, Prezidentin köməkçisi Hikmət Hacıyev dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə Nyu-Yorkda BMT Baş Məclisinin 80-ci sessiyasının açılışında iştirak edən nümayəndə heyətinin Vətənə qayıdışı ilə bağlı etdiyi paylaşımda yazıb: “27 Sentyabr – Anım Günü Vətənimiz Azərbaycanda! Uçuş marşrutu: Nyu-York–Gəncə!”

Həmsöhbətim gülümsündü: “Yəqin ki, yadından çıxmayıb. 2023-cü il sentyabrın 19–20-də bir sutkadan da az davam edən antiterror əməliyyatından sonra Qarabağdakı erməni separatçılarının tör-töküntüləri rəsmi Bakıdan aman istəmişdilər. O vaxt bizim Prezident Administrasiyasının təklifi ilə Azərbaycan Konstitusiyası və qanunları əsasında reinteqrasiya məsələlərinin müzakirə edilməsi üçün Qarabağın erməni sakinlərinin nümayəndələri ilə sentyabrın 21-də Yevlaxda görüş keçirilmişdi. Həmin görüşdə hansısa razılıq əldə edilməsə də, dövlət başçımız sonradan ermənilərə çox məsələləri başa saldı. Nəhayət, bu il avqustun 8-də Vaşinqtonda keçirilmiş görüşlər, aparılmış müzakirələr və imzalanmış sənədlər məhz Azərbaycan tərəfinin Yevlaxda nümayiş etdirdiyi sülhpərvər siyasətin davamı kimi tarixə düşdü. Düz sözə nə deyəsən?

Birinci Qarabağ müharibəsi dövründə hegemon himayədarlarına güvənən ermənilər Azərbaycan ərazilərini Yevlaxa qədər işğal etmək, əhalimizi Kür çayının sol sahilinə qədər qovmaq istəyirdilər. O zaman rəzilcəsinə “Biz Yevlaxa çatıb Azərbaycanın neft ixracının yolunu kəsməliyik” bəyanatları verilir, erməni donuzlarının Yevlaxda Kür çayından su içdiyini əks etdirən karikaturalar yayırdılar. Hətta 44 günlük müharibənin ilk günlərində erməni təbliğat maşını “Azərbaycanı Yevlaxa qədər qovmuşuq” eyforiyasına da qapılmışdı.

Sonra həqiqətən də Yevlaxa kimi gəldilər, ancaq aman diləmək məqsədilə. Azərbaycan ordusu cəmi 24 saata erməni silahlı dəstələrini təslim etməyə, erməni əhalisini bayrağımız altında yaşamaq şərtlərini müzakirə etmək üçün Yevlaxa gəlməyə məcbur etdi. Yevlaxa qədər olan erməni iddiaları məhz Yevlaxda – obrazlı desək, Kür çayının sahilində dəfn olundu.



## Çörək boldur, Vətən isə basılmaz

İstənilən kənd rayonundan qəzet materialı hazırlayarkən mənim maraqlandığım ilk məqam taxıl istehsalı olur və istər-istəməz həmişə də ölməz şairimiz Səməd Vurğunun “Çörək bol olarsa, basılmaz Vətən!” misrasını yada salıram. Allaha şükür ki, ölkənin ən böyük aqrar rayonlarından olan Yevlaxda taxıl istehsalı hər il əvvəlki ildən üstün olur. Öyrəndim ki, aqrar sahədə həyata keçirilən sistemli tədbirlər, eləcə də məhsuldarlığa yönəlmiş düzgün aqrotexniki qulluq nəticəsində 2025-ci ildə bu sahədə yüksək nəticələr əldə olunub. Belə ki, biçin mövsümünün sonunda ümumilikdə 16 730 ton buğda, 18 667 ton arpa tədarük edilib. Ən maraqlısı isə bu isti Aran rayonunda, həm də əvvəlki illərə nisbətən daha quraq keçən bu il hər hektardan məhsuldarlıq göstəricisi 37, 8 sentner olub. Bərəkətli olsun! Xüsusilə qeyd edim ki, aqrar sahədə qazanılan uğurlardan nə qədər istəsən, danışmaq olar.



## “Ocaq” da nurludur, teatr səhnəsi də

Maraqlı təsadüf idi. Bir dəfə Mərziyyə Davudova adına Mingəçevir Dövlət Dram Teatrının tamaşasından çıxanda mənə bildirdilər ki, gələn şənbə də Bəşir Səfəroğlu adına Yevlax Xalq Teatrının yeni tamaşası var və məni Yevlaxa dəvət etdilər. Getdim və tamaşaya baxdım. Həmsöhbətimə dedim ki, İlham Rəhimli kimi görkəmli teatrşünasın doğulub-böyüdüyü şəhərin teatrı məhz bu şəkildə, Azərbaycan mədəniyyət tarixinə özünəməxsus səhifələr yaza bilən səviyyədə olmalıdır.

Bir dəfə də Yevlax Şəhər Mədəniyyət Mərkəzinin filialı – Şəhər Yaradıcılıq Evinin nəzdində fəaliyyət göstərən “Ocaq” ədəbi birliyinin tədbirində iştirak etmişəm. Fikirləşmişəm ki, üzümü tutub hamıya deyim: Gəlin, siz də Kür sahilindəki ocağın nurunu görün, məmnun olun, zövq alın.

## Müstəqillik dövrü futbolumuzda yazılmış “ilk”

“Qarabağ” futbol komandasının son günlər nail olduğu uğurlar hamımızı sevindirir. Tez-tez eşidirik ki, bu əzmkar komanda Azərbaycan futbol tarixinə yazılmış bir neçə “ilk”in müəllifidir. Komandanı alqışlayır, Qurban Qurbanovu təbrik edirik.

Ancaq onu da əlavə etmək istəyirik ki, bir vaxtlar Yevlaxın “Karvan” futbol komandası UEFA kubokunda mərhələ keçən ilk Azərbaycan klubu olub. Həmçinin “ağ-qaralar” Azərbaycanda rəsmi internet səhifəsində çempionat matçı canlı yayımlanan ilk klub kimi də tarixə düşüb. Bundan başqa, komandaya cəlb olunan yeni transferlərlə imza mərasimləri, klub broşürləri, oyun bukletləri kimi ilklər də məhz “Karvan”a məxsusdur.

## 59 il sonra bəraət

Bəzən dostlar məndən soruşurlar ki, nə üçün Yevlax sənə bu qədər əziz və doğmadır? Cavab verirəm ki, mərhum anam Qarxunlu Əşrəf bəy kimi tanınan Əşrəf bəy Həsənbəy oğlu Tağıyevin nəslindəndir. Tarixi sənədlərdə Əşrəf bəy haqqında kifayət qədər material var. 1867-ci ildə Qarxun kəndində anadan olub, Tiflis gimnaziyasında oxuyub, 1908-ci ildə Yevlaxda mazutla işləyən zavod tikdirib, 1910-cu ildə öz xərci ilə Yuxarı Qarxun kəndində dördsinifli, 1919-cu ildə isə yeddisinifli rus-tatar məktəbi açdırıb.

O, Nuru Paşa başda olmaqla, Türk ordusunun qarşılanmasında, Ərəş suvari alayının tərkibində türk qoşunları ilə bərabər bolşevik-daşnak ordusuna qarşı döyüş əməliyyatlarında iştirak edib. Əşrəf bəy 1918-ci ilin dekabrından Ərəş mahalından Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentinə üzv seçilib. 1919-cu ildə qəza rəisi olub, 1930-cu ildə həbs edilib və həmin il də əks-inqilabi təbliğatla məşğul olduğuna görə güllələnib. Ancaq Azərbaycan SSR Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasının 29 avqust 1989-cu il tarixli qərarı ilə ölümündən 59 il sonra ona bəraət verilib.

Bu da Yevlaxın tarixi şəxsiyyətlərindən biri haqqında qısa bir məlumat. Yevlaxın təpərli oğul və qızları haqqında yazılmalı o qədər faktlar var ki...



## “Alov saçan Yevlax...”

Mən Yevlaxın “Regionların sosial-iqtisadi inkişafı” Dövlət proqramlarının icrası zamanı qazandığı uğurlar, xidmət sahələrinin müasirləşdirilməsi, tikinti-quruculuq və abadlıq işlərinin yeni vüsət alması, təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin fəaliyyətinin zamanın tələbləri səviyyəsinə qaldırılması, xüsusən, şəhid ailələri və qazilərin diqqət mərkəzində saxlanılması barədə çox yazmışam. Həmin yazıların hamısında da sevimli şairimiz, yevlaxlı gözəl insan Zahid Xəlilin bir ifadəsini işlətmək istəyib, növbəti dəfə həmin fikirdən vaz keçmişəm. İndi isə vaz keçmək fikrimdən “vaz keçirəm”. Şair bir şeirində yazır:

***Sən məni yaz çağı, çiçək fəslində,***
***Nə gözəl bir vaxtda yaratdın, Allah!***
***Sevgin alovluymuş, bəlkə onunçün***
***Od saçan Yevlaxda yaratdın, Allah!***

Alovun, odun, ocağın həmişə gur olsun, ana yurdum Yevlax!

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Gediş haqları qalxır, xidmət isə yerində sayır

## *İctimai nəqliyyatda problemin həllini təkcə tariflərdə axtarmaq nəticə vermir*

**Bəzən xoşbəxtliyi böyük uğurlarda, var-dövlətdə, şöhrətdə axtarırıq. Amma əsl xoşbəxtliyin səhər işə, axşamlar isə isti ocağımıza dönərkən tələsik addımlarımızda gizləndiyinin fərqinə varmırıq. Sözsüz ki, bu tələskənlik gərginliyə, narahatlığa çevrilmirsə…**

Hər səhər küçələrdə eyni mənzərə müşahidə olunur: işə, məktəbə vaxtında çatmaq üçün kimisi avtobusa, kimisi metroya tələsir. Hələ bir neçə gün əvvəl çox böyük çətinliklə yazıldığı həkim növbəsinə və ya hansısa probleminin həll olunacağı ümidilə bir dövlət məmurunun qəbuluna gecikmək ehtimalı insanları darıxdırır. Taksi xidmətindən istifadə etmək və ya şəxsi avtomobillə yola çıxmaq isə uzun-uzadı tıxac səbəbindən gündən-günə çətinləşir. Səhər saatlarında metro və avtobuslarla mənzilbaşına vaxtında çatmaq isə müşkül məsələdir.

Prezident İlham Əliyevin 30 yanvar 2025-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"nda qarşıya qoyulan hədəflərə nail olmaq, sərnişindaşıma xidmətinin səviyyəsini yüksəltmək məqsədilə metro nəqliyyatında, həmçinin müasir tələblərə cavab verən və yalnız nağdsız ödəniş alətləri vasitəsilə fəaliyyət göstərən müntəzəm şəhərdaxili (rayondaxili), qəsəbələrarası və şəhərətrafı avtobus marşrutlarında sərnişindaşıma xidmətlərinin tariflərinin aşağı həddi məsafədən asılı olaraq 60 qəpik müəyyən edilib. Qısacası, gediş haqqı 10 qəpik qalxıb. Bəs xidmət səviyyəsi?..

**BDU-nun ikinci kurs tələbəsi Nəzrin Baxşıyeva deyir ki, hər gün dərsə metro ilə gedib-gəlirəm. "Həzi Aslanov" stansiyasından "Elmlər Akademiyası"na qədər yol gedirəm. Amma necə...**

– Yolumun uzaqlığını nəzərə alıb evdən tez çıxsam da, eyni vəziyyətlə üzləşirəm: vaqonlarda sözün əsl mənasında "iynə atsan yerə düşməz". Ya insanları itələyərək qatara minməli, ya da ən azından iki-üç qatarı buraxmalısan. Birtəhər qatara minməklə iş bitmir, bu qədər uzun yolu ayaqüstə, yıxıla-dura getmək çox çətindir. Havasızlıqdan, sıxlıqdan ürəyi gedən, huşunu itirənlər olur. Belə hallara dəfələrlə rast gəlmişəm. Bəzi maşinistlər, avtobus sürücüləri isti yay günlərində belə kondisionerləri işə salmırlar, havalandırma sistemi işləmir. Avtobuslarda da eyni vəziyyətlə qarşılaşırıq.

**Hər gün "Elmlər Akademiyası" metrostansiyasının qarşısından yola düşən 39 saylı avtobusla işə gedən Mahirə Allahverdiyeva bu yaxınlarda həmin avtobusun sürücüsü ilə mübahisə etdiyini dedi:**

– Həftənin 6 günü metronun "Xalqlar dostluğu" stansiyasından "Elmlər Akademiyası" stansiyasına gəlirəm. Daha sonra 39 saylı avtobusdan istifadə edirəm. Bu marşrutun avtobusları dayanacaqda bəzən 6-7 dəqiqə dayanırlar. Hətta maşını işlək vəziyyətdə saxlayır, elə görüntü yaradırlar ki, elə bil bu dəqiqə yola düşür. Özünü qaranəfəs çatdırırsan, amma yerindən tərpənmir ki, tərpənmir. Bir dəfə sürücüdən soruşdum ki, nə vaxt yola düşürsünüz? Kobud tərzdə "nə vaxt istəsəm", – dedi. Ona müvafiq qurumlara şikayət edəcəyimi bildirsəm də, heç əhəmiyyət vermədi. Belə çıxır ki, sərnişini getdiyi yerə necə gəldi, hansı vəziyyətdə olur-olsun çatdırmaq olar? Bəs, sərnişindaşıma xidmətinin səviyyəsinin yüksəldilməsi üçün həyata keçirilən işləri niyə görmürük? Təbii ki, qiymət artımından savayı...

Metroda qatarlar arasında intervalların çox olması, bir stansiyadan o biri stansiyaya gec çatması, bəzən stansiyada bir neçə dəqiqə dayanması, marşrut xəttində avtobusların sayının az olması, sonuncu dayanacaqlarda çox gözləməsi ilə bağlı suallarımızı müvafiq qurumlara ünvanladıq.

**"Bakı Metropoliteni" QSC sualımızı belə cavablandırdı:**

– Bakı Metropoliteni sərnişinlərin təhlükəsizliyini və rahatlığını təmin etmək üçün bütün resurslarını maksimum dərəcədə səfərbər edir. Xüsusilə, bu il sentyabrın 15-dən ilk dəfə olaraq 34 cüt/saat prinsipi ilə hərəkət qrafikinin tətbiqinə başlanılıb. Bununla da iş günlərinin pik saatlarında qatarlar arasındakı interval 1 dəqiqə 45 saniyəyə (Yaşıl və Qırmızı xətlərin müstəqil sahələrində 3,5 dəqiqəyə) qədər azaldılıb. Bu, mövcud texniki imkanlar çərçivəsində tətbiq olunan ən qısa intervaldır.

Səhər saatlarında (08:00–09:00) bir qatar sərnişinsiz şəkildə metropolitenin ən çox sərnişin daşıyan "Koroğlu" stansiyasına yönləndirilir. Eyni vaxtda Yaşıl xətt üzrə "Memar Əcəmi" stansiyasında iki qatar geri qaytarılmaqla, səhər saatlarında sərnişin sıxlığı ilə seçilən "20 Yanvar" stansiyasında tənzimləmə işləri aparılır. Bundan əlavə, günorta saatlarında "Nərimanov" deposundan "28 May"a, eləcə də "Memar Əcəmi"-dən "Elmlər Akademiyası" stansiyasına qədər sərnişinsiz hərəkət edən qatarlar yönləndirilir. Bu tədbirlər pik saatlarda texniki baxımdan mümkün olan ən optimal tənzimləməni həyata keçirməyə imkan verir.




Pik saatlarda sərnişin axını daha gur olan stansiyalarda sərnişinlərin qatarlara daha rahat minməsi və platforma boyunca bərabər paylanması üçün əlavə əməkdaşlar cəlb olunur. Günün müəyyən vaxtlarında "28 May" və "Elmlər Akademiyası" kimi pilon tipli stansiyalarda ön və arxa vaqonlara doğru bərabər paylanmanı təmin etmək məqsədilə əlavə işçi qüvvəsi də səfərbər edilir. Bununla yanaşı, sərnişinlərin də məsuliyyəti böyükdür. Onlar da bərabər paylanmaya diqqət yetirməli və stansiya əməkdaşlarının çağırışlarına əməl etməlidirlər.

Qeyd edək ki, "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində metro sahəsində tədbirlər mərhələli şəkildə həyata keçirilir. Proqram üzrə yeni metro stansiyalarının inşası, mövcud infrastrukturun yenilənməsi, əlavə vaqonların alınması, yeni depo tikintisi və enerji təminatı sistemlərinin gücləndirilməsi istiqamətində mühüm işlər görülür. Hazırda 10 yeni stansiyanın layihələndirilməsi işləri yekunlaşmaq üzrədir. Bununla yanaşı, 2026-cı ildə daha bir yeni stansiyanın sərnişinlərin istifadəsinə verilməsi nəzərdə tutulur. Metronun vaqon parkı da mütəmadi olaraq yenilənir və son dövrdə alınmış 65 yeni vaqondan 35-i artıq xəttə buraxılıb. Dövlət Proqramına əsasən 299 yeni nəsil vaqonun da alınaraq metropoliten xətlərinə buraxılması planlaşdırılır.

Paytaxtın sürətlə artan nəqliyyat tələblərini qarşılamaq, sərnişindaşıma xidmətlərinin davamlılığını təmin etmək və Dövlət Proqramında qoyulan hədəflərə çatmaq üçün tariflərin tənzimlənməsi zəruri addım kimi qiymətləndirilir. Bu istiqamətdə əsas hədəflər qatar parkının yenilənməsi, sərnişindaşıma xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, infrastrukturun genişləndirilməsi, müasir texnologiyaların tətbiqi və ekoloji baxımdan daha səmərəli nəqliyyat mühitinin yaradılmasıdır. Bakı Metropoliteni qarşıdakı illərdə bu hədəflərə çatmaq üçün fəaliyyətini davam etdirəcək, sərnişinlərə daha yüksəkkeyfiyyətli, müasir və təhlükəsiz xidmət göstərilməsi üçün bütün imkanlardan istifadə olunacaq.



Tarif dəyişikliyi bu məqsədlərə nail olmaq, beynəlxalq standartlara cavab verən dayanıqlı və innovativ metro sistemi qurmaq istiqamətində atılmış vacib addımlardan biri kimi dəyərləndirilir.

**"Baku Bus" MMC-nin mətbuat xidmətindən bildirildi ki, avtobusların hərəkət qrafiki marşrut xəttinin başlanğıc və son dayanacaq məntəqələri üzrə sərnişin axınının intensivliyinə əsasən tənzimlənir.**

– Gündəlik hərəkət planı marşrut pasportuna uyğun hazırlanır və bu zaman günün müxtəlif saatlarında müşahidə olunan sərnişin axını nəzərə alınır. Səhər və axşam saatlarında sərnişinlərin daha çox cəmləşdiyi istiqamətlərdə avtobusların hərəkət intervalları qısaldıla və hərəkət saatları uzadıla bilər. Xüsusilə, axşam saatlarında sərnişin axınının daha çox olduğu istiqamətdə hərəkət qrafiki bu göstəricilərə uyğunlaşdırılaraq, həmin istiqamətdən sonuncu reysin çıxış vaxtı digər məntəqəyə nisbətən bir qədər gec müəyyən edilə bilər. Əks istiqamətdə isə hərəkət qrafiki marşrut pasportunda təsdiqlənmiş qaydada tənzimlənir. Bu tənzimləmələr aparılan mütəmadi monitorinqlər və sərnişin axınına dair müşahidələr əsasında həyata keçirilir və əsas məqsəd sərnişinlərin rahat, fasiləsiz və təhlükəsiz daşınmasını təmin etməkdir.

Ümumiyyətlə, sürücülər cədvəldən, tənzimlənmiş qaydalardan kənara çıxaraq öz intervalını dəyişə bilmirlər. Eyni zamanda, Bakı Nəqliyyatın Monitorinq Mərkəzi mütəmadi olaraq hər bir avtobusun və hər bir sürücünün fəaliyyətini izləyir və müşahidə edir. Belə hallar baş verdiyi təqdirdə vətəndaşlar Bakı Nəqliyyatının rəsmi səhifələrinə, informasiya xidmətlərinə və ya ALO 141 qaynar xəttinə zəng edərək şikayətlərini bildirə bilərlər.




**Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin** məlumatında qeyd olunur ki, sürətlə artan nəqliyyat tələblərini qarşılamaq üçün tariflərin tənzimlənməsi zəruri addımdır. Şəhər əhalisinin və sərnişin axınının dinamik şəkildə artması mövcud nəqliyyat sisteminin daha çevik və effektiv şəkildə işləməsini tələb edir.

– Avtobus intervallarında gecikmələrə əsasən yollardakı sıxlıq və ümumi yüklənmə səbəb olur. Bu, sürücülərin iş qrafikinə də təsir göstərir. Hazırda Bakıda təxminən 2.300 avtobus fəaliyyət göstərir. Bu ilin sonuna qədər, həmçinin növbəti illər ərzində paytaxtda hər il təxminən 400, Sumqayıtda isə 100 yeni avtobusun alınması və daşımalara cəlb edilməsi planlaşdırılır. Bu, həm sərnişin sıxlığının azaldılmasına, həm də xidmətin keyfiyyətinin yüksəldilməsinə yönəlib. Eyni zamanda, ictimai nəqliyyatda differensial ödəniş sisteminin tətbiqi üçün xüsusi infrastruktur qurulmalı, nağdsız ödənişlərə keçid tam təmin edilməlidir. Diferensial ödəniş sistemində sərnişin məsafəyə uyğun pul ödəyəcək. Yəni qısa məsafəyə gedənlə uzun məsafə qət edən eyni miqdarda ödəniş etməyəcək.

**Nəqliyyat eksperti Aslan Əsədov ictimai nəqliyyatda sərnişin daşınması prosesində hələ də müəyyən çətinliklərin olduğunu dedi:**



- Metro ilə harasa gedən insanın rahat şəkildə hərəkət etməsi, oradan digər nəqliyyat vasitəsinə keçməsi bəzən səmərəli şəkildə təşkil olunmur. Bu, həm infrastrukturla, həm də ictimai nəqliyyatın ümumi əlaqələndirilməsi ilə bağlıdır. Elə hallar olur ki, sərnişin avtobusdan qatara dərhal keçid edə bilir. Bu, təbii ki, həmin vətəndaş üçün böyük bir rahatlıq deməkdir. Çünki o, vaxt itirmədən, gözləmədən yoluna davam edir. Amma başqa bir sərnişin metrodan çıxdıqdan sonra uzun müddət dayanacaqda avtobus gözləyir. Bu cür hallar ictimai nəqliyyat sistemindəki əsas problemlərdən biridir. Ümumilikdə, sistemin balanssız işlədiyini göstərir. Yəni metro ilə avtobus xətləri arasında düzgün əlaqələndirmə olmadıqda, insanlar bir nəqliyyat vasitəsindən digərinə keçid edərkən vaxt itirirlər. Bu da gərginlik yaradır, vətəndaşın narazılığına səbəb olur. Eyni zamanda, nəqliyyatın effektivliyi təmin olunmur.

Biz bu məsələlərə yalnız texniki detallar deyil, sosial aspektdən də baxmalıyıq. Çünki bu sistemin mərkəzində insan dayanır. Vətəndaş özünü rahat, təhlükəsiz və xoşbəxt hiss edirsə, deməli, sistem düzgün işləyir. Əks halda, insanlar hər gün eyni sıxlıq, tıxac, narahatlıq içində yol qət edəndə, bu, artıq sosial narazılığa çevrilir. Problemin kökü koordinasiyasızlıqdır. Yəni metro, avtobus, marşrut və piyada axınları bir-birindən asılı olmadan işləyir. Halbuki şəhərdaxili nəqliyyat zəncirvaridir — bir halqada gecikmə olsa, bütöv sistem dayanır. İşin düzgün irəliləməsi üçün üç əsas istiqamət vacibdir: inteqrasiya, cədvəl sinxronluğu və real vaxt məlumat sistemi. Metrodan çıxan sərnişin üçün ən yaxın avtobus dayanacağına qədər məsafə minimal olmalıdır. Avtobus xətləri metro qatarlarının hərəkət qrafiki ilə uyğunlaşdırılmalıdır. Yəni qatar stansiyaya çatanda avtobusların hərəkət intervalları da həmin ana uyğun tənzimlənməlidir. Bu, artıq rəqəmsal idarəetmə ilə mümkündür.

Bu gün dünyanın bir çox şəhərlərində "smart transport" tətbiqləri işləyir. İstifadəçi mobil tətbiqdən həm metro, həm avtobus, həm də marşrutun hansı dəqiqədə gələcəyini görür. Əgər vətəndaş görsə ki, növbəti avtobus 15 dəqiqəyə gələcək, o zaman boş yerə dayanacaqda 10-15 dəqiqə əsəblə gözləməz. Biləcək ki, "15 dəqiqəyə gəlir, ya gözləyim, ya da alternativ marşrut seçim, ya da bu vaxtı dəyərləndirim". Yəni insan məlumatlı olduqda, vaxtına nəzarət edə bilir.

Bundan başqa, pik saatların düzgün idarə edilməsi də vacibdir. Bəzi stansiyalar həddindən artıq yüklənir, digərləri isə demək olar ki, boş qalır. Bu, sərnişin axınının bərabər paylanması mexanizminin olmadığını göstərir. Metroda əlavə qatarlar və avtobus xətlərində çevik intervallar tətbiq edilməlidir – səhər və axşam saatlarında sıxlıq yarandıqda avtomatik əlavə reyslər buraxılmalıdır.

Müvafiq qurumlar rüblük, illik hesabatlarında texniki göstəriciləri – "bu qədər sərnişin daşındı", "bu qədər marşrut işləyir" kimi rəqəmləri önə çəkir. Amma real göstərici insanların rahatlığı olmalıdır. Çünki ölkəmizdə insanların rifah halının yaxşılaşdırılması, vətəndaş məmnuniyyəti dövlət siyasətinin prioritet istiqaməti olaraq müəyyənləşdirilib.

***Mehparə ƏLİYEVA***
***XQ***

# Gəncənin vurulması bəşəriyyətin qəlbinə açılan atəş idi

## *Birinci xanım Mehriban Əliyevanın paylaşımı isə yatmış vicdanları ayıltmaq çağırışı olmuşdu*

**2020-ci ilin 11 oktyabr gecəsi tarixə insanlıq adına utanc gətirən bir hadisə ilə yazıldı. Ermənistan ordusunun Gəncə şəhərinə endirdiyi raket zərbəsi nəticəsində çox sayda dinc sakin həyatını itirdi. Bu qanlı gecədə işğalçının təcavüzkar siyasətini yalnız cəbhə xəttinə deyil, həm də mülki əhalinin hədəfə alınmasına yönəltdiyi bir daha təsdiqini tapdı.**

Həmin gecə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində yayımladığı bəyanatla təkcə xalqımızın deyil, bütövlükdə beynəlxalq ictimaiyyətin diqqətini bu faciəyə yönəltdi. Onun paylaşımı həm humanist çağırış, həm beynəlxalq hüququn pozulmasına qarşı kəskin etiraz, həm də milli həmrəyliyin simvolu idi.



Mehriban xanım Əliyeva bu bəyanatında Gəncə faciəsini beynəlxalq humanitar hüququn, xüsusilə 1949-cu il Cenevrə konvensiyalarının açıq-aşkar pozulması kimi qiymətləndirdi. Ermənistan ordusunun yaşayış məntəqələrini və mülki obyektləri məqsədyönlü şəkildə hədəfə alması müharibə qanunlarının kobud şəkildə tapdanması idi. Atəşkəs rejiminin elan olunduğu bir vaxtda mülki insanların üzərinə raketlərin yağdırılması sadəcə hərbi əməliyyatın tərkib hissəsi deyildi, bu, planlaşdırılan terror aktı idi. Bu baxımdan, Birinci vitse-prezidentin paylaşımı həm beynəlxalq hüquqa, həm də humanitar dəyərlərə əsaslanan – “dünya artıq susmamalı, ədalət mütləq bərpa edilməlidir” – güclü siyasi mesaj kimi diqqət çəkdi.

Azərbaycanın Birinci vitse-prezidenti Gəncə faciəsini beynəlxalq aləmə təkcə bir şəhərin deyil, bütövlükdə Azərbaycanın sarsıdılması məqsədi daşıyan akt kimi təqdim etdi. O, öz paylaşımında humanitar atəşkəsin qüvvəyə mindiyi andan bəri Ermənistan ordusunun Azərbaycanın müxtəlif rayonlarına yüzlərlə mərmi atdığını qeyd etdi. Bu fakt Ermənistanın döyüş meydanında aldığı ağır məğlubiyyətlərə cavab olaraq dinc əhalini hədəf seçdiyini bir daha sübuta yetirdi. Məğlubiyyətin acısını günahsız insanların qanı ilə ört-basdır etməyə çalışan işğalçı dövlətin bu hərəkəti beynəlxalq hüquqa meydan oxumaq idi.



Birinci vitse-prezident çıxışında beynəlxalq ictimaiyyəti bu barbarlığa, vəhşiliyə laqeyd qalmamağa, münasibət bildirməyə səsləyərək, insan haqları institutlarını, media nümayəndələrini və ictimai rəyin liderlərini məsuliyyətli mövqe nümayiş etdirməyə çağırdı. Onun bu fikirləri həm diplomatik, həm də mənəvi cəhətdən böyük əhəmiyyət daşıyırdı. Çünki o dövrdə bir çox beynəlxalq təşkilat Ermənistanın törətdiyi cinayətlərə qarşı susqun mövqe sərgiləyir, regionda baş verən hadisələri birtərəfli şərh edirdi. Mehriban Əliyevanın paylaşımı isə bu susqunluğa mənəvi sarsıntı gətirdi, beynəlxalq vicdanın oyanışı üçün siqnal oldu.

Ermənistanın Gəncəyə endirdiyi zərbələr nəticəsində binalar dağıldı, dinc insanlar vəhşiliyin, barbarlığın qurbanı oldu, bu, eyni zamanda, beynəlxalq hüququn dayaqlarını sarsıtdı. Amma Mehriban Əliyevanın sözləri həmin dağıntılar içində yenidən dirçəlişin, inamın və birliyin təməlini qoydu. Birinci vitse-prezident müraciətində bu ağır sınaq günlərində Azərbaycan xalqının öz ən yüksək keyfiyyətlərini – birlik, mərhəmət, həmrəylik və qarşılıqlı yardım hisslərini nümayiş etdirdiyini vurğuladı.

Həqiqətən də Gəncə terrorunun ertəsi gün bütün ölkə bir ürək kimi döyünürdü. İnsanlar bir-birinə dayaq olur, xeyriyyə aksiyaları keçirilir, terror qurbanlarının ailələrinə mənəvi və maddi dəstək göstərilirdi. Mehriban xanım Əliyevanın çağırışı bu ümummilli həmrəyliyin ideya dayağına çevrildi.

Birinci vitse-prezident çıxışındakı “Həqiqət və ədalət bizim tərəfimizdədir! Biz zəfər çalacağıq!” sözləri təkcə o günün deyil, bütövlükdə, 44 günlük Vətən müharibəsinin mənəvi manifestinə çevrildi. Bu ifadə xalqda böyük ruh yüksəkliyi yaratdı, ordumuza, döyüşçülərimizə, cəbhədə canını fəda edən igidlərimizə inamı daha da gücləndirdi. Mehriban Əliyevanın səmimi, ürəkdən gələn bu çağırışı hər bir vətəndaşın içindəki qələbə əzmini daha da alovlandırdı. Bu gün biz o günlərin tarixini vərəqləyərkən aydın görürük ki, qələbə yolunun ideoloji dayaqlarından biri də məhz belə mənəvi mesajlar olub.

Mehriban xanım Əliyevanın paylaşımında xüsusi vurğulanan məqamlardan biri də Ermənistanın beynəlxalq konvensiyalara və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə qarşı açıq-aşkar etinasızlığı idi. İşğalçı ölkə uzun illər boyu beynəlxalq sənədlərə məhəl qoymadan regionda qeyri-sabitlik yaradan təxribatlar törədirdi. Gəncə terroru isə bu etinasızlığın kulminasiya nöqtəsi idi. Bu fakt beynəlxalq sistemin ikili standartlardan uzaqlaşmayacağı təqdirdə təcavüzkar dövlətlərin cəzasız qalmaqda davam edəcəklərini bir daha göstərdi.



Mehriban Əliyevanın sözügedən paylaşımı beynəlxalq ictimaiyyətə ünvanlanan açıq mesaj – “ədalət yalnız bəyanatlarda deyil, əməli addımlarda öz əksini tapmalıdır” çağırışı idi. Eyni zamanda, Birinci vitse-prezidentin sözləri dərin mənəvi dərinliyi ilə diqqət çəkirdi. Belə ki, o, faciəvi hadisə qarşısında xalqımıza səbir, təmkin və inam aşılayır, şəhidlərə rəhmət, yaralılara şəfa diləyirdi. Bu, sadəcə rəsmi bəyanat deyildi, bu, bir ananın, bir vətən övladının, xalqının dərdini öz dərdi bilən liderin səsi idi. Hər zaman humanist dəyərləri ilə seçilən Mehriban xanımın Gəncə faciəsi ilə bağlı bəyanatı da insan həyatına, ədalətə, sülhə olan sarsılmaz inamın ifadəsi idi.

Xatırladaq ki, bu hadisədən sonra Azərbaycan dövləti Ermənistanın törətdiyi müharibə cinayətlərinin beynəlxalq səviyyədə tanınması istiqamətində mühüm addımlar atdı. Prezident İlham Əliyevin siyasi iradəsi, Mehriban xanım Əliyevanın humanitar sahədəki səmərəli fəaliyyəti nəticəsində bu cinayətlər sənədləşdirildi, beynəlxalq tribunalarda səsləndirildi. Gəncə terroru artıq dünya mediasında mülki əhaliyə qarşı törədilmiş cinayət kimi təqdim olunmağa başladı. Bu məsələdə Birinci vitse-prezidentin sözügedən paylaşımında səsləndirdiyi çağırışın rolu danılmaz idi.

Həmin bəyanat təkcə bir hadisəyə münasibət deyildi. Bu, Azərbaycan qadınının, Azərbaycan dövlətçiliyinin, Azərbaycan humanizminin təntənəsi idi. Mehriban Əliyeva bu çağırışla bir daha sübut etdi ki, Vətənə sədaqət, insanlığa inam və ədalətə bağlılıq onun fəaliyyətinin əsas qayəsidir. Onun sözləri təkcə xalqımıza təsəlli vermədi, həm də dünya miqyasında sülhə, ədalətə, insan haqlarına çağırış kimi səsləndi.

Bu gün Gəncə faciəsindən illər keçsə də, o gecənin ağrısı hələ də unudulmayıb. Amma Azərbaycan xalqı o ağrını qürura, ədalət uğrunda mübarizəyə çevirdi. Vətən müharibəsində əldə etdiyimiz möhtəşəm Qələbə o qaranlıq gecələrin, o itkilərin, o çağırışların məntiqi nəticəsi idi. Mehriban xanımın “Uca Tanrı Ordumuzu, xalqımızı və Vətənimizi qorusun!” duası bu gün də hər bir azərbaycanlının dilində, qəlbində yaşayır.

Beləliklə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəsmi “Instagram” səhifəsində yayımladığı 11 oktyabr 2020-ci il tarixli bəyanatı sadəcə bir sosial şəbəkə paylaşımı deyildi, o, diqqətə çatdırılan andan milli yaddaşa, milli birliyin və beynəlxalq ədalət mübarizəsinin tarixinə yazıldı və tarixin heç zaman unudulmayacaq parlaq bir səhifəsinə çevrildi. Mehriban Əliyevanın paylaşımındakı sözlərlə həm o günün, həm də gələcəyin tarixi yazıldı. Çünki bu sözlərdə xalqına sevgi, dövlətinə sədaqət və ədalətə inamın əbədi izləri var idi.

***Vaqif BİNYATOĞLU***
***XQ***

# Vətən müharibəsinin xronikası

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**



## 11 oktyabr

• Müdafiə Nazirliyinin məlumatında Ermənistanın Gəncənin dinc sakinlərini növbəti dəfə hədəfə aldığı, gecə saatlarında şəhərə atılan raketlərdən bir neçəsinin yaşayış binalarına düşdüyü, ölənlər və yaralananların olduğu bildirilib. Hadisə yerinə Fövqəladə Hallar Nazirliyinin, hüquq-mühafizə orqanlarının əməkdaşları, eləcə də Təcili Tibbi Yardım Briqadası cəlb edilib.




• Baş Prokurorluğun məlumatına görə, işğalçının gecə saat 2 radələrində Gəncə şəhərini raket atəşinə tutması nəticəsində 5-i qadın olmaqla, 10 nəfər həlak olub, 16-sı qadın, 6-sı azyaşlı olmaqla, 34 nəfər yaralanıb. Həmçinin 10-dan çox çoxmənzilli yaşayış binasına və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib.

Məlumata əsasən, düşmən ölkə beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların əlavə protokollarını, habelə 2020-ci il oktyabrın 10-u saat 12:00-dan etibarən elan olunan humanitar atəşkəs rejiminin tələblərini pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə alıb yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutaraq terror əməllərini davam etdirir.



• Fövqəladə Hallar Nazirliyinin məlumatına görə, düşmənin raket atəşi nəticəsində Gəncədə dağılan binada axtarış-xilasetmə işləri yekunlaşıb. Dağıntılar altından xəsarət almış 17 nəfər və 9 cəsəd çıxarılıb.

• Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərində mülki əhaliyə qarşı törətdiyi qanlı terror aktı ilə bağlı dünya birliyinə müraciət edib.

• Müdafiə Nazirliyinin yaydığı digər bir məlumatda bildirilir ki, Azərbaycan Ordusunun uğurlu əməliyyatları nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 5 T-72 tankı, 6 D-20 və D-30 haubitsası, sursatla dolu 5 yük maşını, 11 digər avtomobil texnikası, 3 BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 5 “Qvozdika” özüyeriyən haubitsası, 8 hava hücumundan müdafiə sistemi və radiolokasiya stansiyası sıradan çıxarılıb.

• Düşmənin gecə saat 4 radələrində Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan “Azərbaycan” İstilik Elektrik Stansiyasını hədəfə almaqla cəbhə zonasından 100 kilometr uzaqdakı Mingəçevirə atdığı raketlər ordumuzun hava hücumundan müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilib.

• İtirdikləri mövqeləri geri qaytarmaq məqsədilə oktyabrın 10-dan 11-nə keçən gecə hücuma cəhd göstərən düşmənin qüvvə və vasitələrini Azərbaycan Ordusu məhv edib.



• Baş Prokurorluğun məlumatına əsasən, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində 11 oktyabr saat 13:00-a olan məlumata görə, 41 mülki şəxs həlak olub, 205 nəfər isə xəsarət alıb, 1165 ev, 57 çoxmənzilli yaşayış binası və 146 mülki obyekt yararsız vəziyyətə düşüb.

***Mustafa KAMAL***
***XQ***

*Vətən müharibəsi qəhrəmanları*

# Şuşa savaşının şəhidi

**Azərbaycan Silahlı Qüvvələrinin kapitanı, Aprel döyüşlərinin və İkinci Qarabağ müharibəsinin iştirakçısı olmuş Surxay Noçuyev sanki hərb işi üçün doğulmuşdu. Bəlkə də əslən Zəngilandan olması, uşaq vaxtlarından ermeni qəddarlığını görməsi və ailəsinin məcburi köçkünlük əzabları yaşaması onu Vətənə məhəbbət, düşmənə nifrət hissi ilə yaşatmışdı.**

Surxayın arzusuna doğru yolda açdığı ilk qapı Cəmşid Naxçıvanski adına Hərbi Lisey olub. Sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib. 2010-cu ildən "leytenant" rütbəsində hərbi qulluğa başlayıb. Motoatıcı taqım, bölük komandiri, qərargah rəisi, tabor komandiri vəzifələrini layiqincə yerinə yetirib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində kapitan Noçuyev xüsusilə fərqlənən zabitlərdən olub. Komandirlik etdiyi mexaniklədirilmiş taborun şəxsi heyəti ilə birlikdə döyüşlərdə şücaət nümunələri göstərib. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Xocavənd və Şuşa istiqamətlərində, necə deyərlər, iz qoya-qoya irəliləyib: düşmənin çoxsaylı canlı qüvvəsini və texnikasını məhv edib.

Silahdaşları deyirlər ki, Füzuli rayonunun Qaraxanbəyli kəndi uğrunda gedən döyüşlərdə həyata keçirilən döyüş taktikası Surxayın adı ilə bağlıdır. Məhz həmin kənddə tətbiq olunan taktikaya "Surxay Noçuyev taktikası" adı verilmişdi. O taktika özünü təsdiq etdiyi üçün sonrakı döyüşlərdə də uğurla tətbiq olunmuşdu. "Surxay Noçuyev taktikası"ndan hansı döyüşdə istifadə edilirdisə, orada minimum itki və yüksək qələbə olurdu.

Qismətə baxın ki, şanlı Qələbənin qazanıldığı, "Qarabağ Azərbaycandır!" şüarının bayraq olub zirvələrdə dalğalandığı 9 noyabr günündə qəhrəmanlıq şəhid olub. Çoxdan qoynuna can atdığı Şuşa şəhəri ərazisində hərbi əməliyyatlarla onun ömür kitabının son səhifəsi yazılıb. Bundan 3 gün sonra Bakıda 2-ci Fəxri xiyabanda torpağa tapşırılıb. Bir ay sonra isə "Vətən müharibəsi Qəhrəmanı" adına layiq görülüb.

...Ötən ilin yayında Şuşada idik. Bir gün şair dostlarım Avdı Qoşqar və Nəcməddin Mürvətovla taksiyə minib İsa bulağına yollandıq ki, can dərmanı olan suyundan içək. Orada şəklimizi çəkən gənc dedi ki, bilirsinizmi, şəhidlərdən biri məhz İsa bulağının yanında ağır yaralanıb, alışıb-yanan ürəyini soyutmaq istəsə də, bulağın suyuna əli yetməyib. Bura həm təbiətin gözəl guşəsidir, həm də bax, belə bir müqəddəs yerdir. Doğrusu, su dolu bardaq tutan əlim həyəcandan əsməyə başladı, 1 qurtum da içə bilmədim. Çünki qulaqlarımda son nəfəsində (özü də İsa bulağında) "Su, su..." deyən şəhidin pıçıltısı səslənirdi.

Bədahətən bu misraları söylədim:

***O, canından keçsə də,***
***Anddan keçə bilmədi.***
***Şır-şır axan bulaqdan***
***Su da içə bilmədi.***

Nəcməddin Mürvətov ardını gətirdi:

***Vətən deyib torpağı***
***Qucaqlayan şəhidim.***
***Şöhrətiylə, şanıyla***
***Hey çağlayan şəhidim!..***

Avdı Qoşqar da "borclu" qalmadı:

***Ciyəri yana-yana***
***Son nəfəsdə dedi: "Su..."***
***Aydınlığa qovuşdu***
***Əbədiyyət yolçusu.***



O zaman həmin şəhidin kim olduğunu öyrənə bilmədik. Amma mən indi düşünürəm ki, bəlkə də o, elə Surxay Noçuyev olub. Döyüş yolu Şuşayadək uzanan və Qələbə çalınan gün – noyabrın 9-da orada həlak olan Surxay Noçuyev. Hər bir halda, Şuşa səfərimiz zamanı belə kövrək anlar yaşamışıq.

Adını qızıl qanı ilə Zəfər salnaməmizə yazan Surxay Noçuyev ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub. Onu da qeyd edək ki, 2021-ci ilin oktyabrında Zəngilana onun doğma sakinləri ilə birlikdə səfər edən Prezident İlham Əliyev qəhrəmanın atası Əbdül Noçuyevlə çox səmimi görüşüb və həmin kadrlar televiziya ilə göstərilib. Dövlətimizin başçısı şəhid atasını qucaqlayaraq kövrəlib, ona ürək-dirək verib. Vətən uğrunda canını qurban verən Surxayın timsalında bütün şəhidlərimizin ruhuna ehtiramını ifadə edib.

***Ə.DOSTƏLİ***
***XQ***

# Murov qartalı

## *"Biz qalib gələcəyik!" – "Qarabağ" ordenli şəhidimiz Mehman Şirvanovun son sözü bu olub*

**Birinci Qarabağ müharibəsi başlayanda Mehmanın cəmi 12 yaşı vardı. Döyüş səhnələrini ancaq kinolarda, televiziya ekranlarında görmüşdü. 20 Yanvar faciəsi, Xocalı qətliamı, Qarabağın, Şərqi Zəngəzurun namərd düşmən tərəfindən işğalı, şəhid analarının fəryadı, qaçqın və məcburi köçkünlərin acı taleyi onun qəlbində kədərli izlər qoymuşdu. Məktəbi bitirəndən sonra hərbçi olacağını, şəhidlərimizin qisasını alacağını, torpaqlarımızı xain, alçaq düşmənin tapdağından azad edəcəyini düşünürdü.**

Lənkəran rayonunun Ürgə kəndində 7 övladlı zəhmətkeş bir ailədə böyüyən Mehman 1998-ci ildə orta məktəbi bitirəndə arzusuna sadiq qalaraq sənədlərini Bakı Ali Birləşmiş Komandirlər Məktəbinə verib və qəbul olunub. Kursant yoldaşları arasında mərdliyi, cəsurluğu, hərbçi peşəsinə sonsuz marağı, təlim və məşqlərdə fəallığı ilə seçilib.



Mehman 2002-ci ildə ali hərbi təhsilini başa vurub, ardınca 1 il təkmilləşdirmə kursunda biliyini artırıb. İlk xidmətə Sumqayıt şəhərinin ətrafında yerləşən hərbi hissədə zabit kimi başlayıb. Sonra Naxçıvanda xidmətini davam etdirib. Zəngin peşəkar təcrübə qazanıb, mayor rütbəsinə yüksəlib. Mingəçevirdə və Goranboyda da nümunəvi xidmət edib. Məsul vəzifələr tutub. Ona növbədənkənar polkovnik-leytenant rütbəsi verilib.

Türkiyə, Gürcüstan, Avstriya və Rumıniyada təkmilləşdirmə kurslarında, NATO-nun təşkil etdiyi təlimlərdə fəal iştirak edən Mehman Şirvanovun mükəmməl təhsili, peşəkarlığı xarici ölkələrdə yüksək rütbəli zabitlərin diqqətini cəlb edib. Qardaş Türkiyədə işləmək təklifinə razı olmayıb. "Torpaqlarımız düşmən işğalı altındadır, belə vaxtda Vətənimi qoyub heç yerə getmərəm", – deyib.

Mehman Şirvanov 2016-cı ilin Aprel döyüşlərinin fəal iştirakçısı olub. Hər döyüş başlananda igid komandir öndə gedərək, şəxsi heyəti yağı düşmənlə ölüm-dirim savaşına ruhlandırardı.

General Polad Həşimovla Naxçıvanda xidmət zamanı yaxından tanış olduğuna görə, onun 2020-ci ilin iyul ayında Tovuz döyüşlərində həlak olması xəbəri Mehmanı çox sarsıdıb. Milli Qəhrəmanın ruhuna üz tutaraq: "Sənin qanını yerdə qoymarıq, qisasını mütləq alacağıq!", – deyib.

Sonuncu dəfə avqust ayının axırında evə gələndə qohumları, məktəb yoldaşları, dostları ilə görüşüb. Atası Mirəziz kişi ilə qəbiristanlığa gedib, dünyasını vaxtsız dəyişmiş anasının qəbrini ziyarət edib. Atasından soruşub ki, niyə burada şəhidlər üçün yer ayrılmayıb? Sonra məscidin yanındakı boş sahəni göstərərək deyib ki, buranı şəhidlər üçün saxlayın. Mehman şəhid olacağını sanki bilirdi. Sentyabrın 25-də ürəyini döyüş dostu Nail Daşdəmirova da açıb: "Hiss edirəm, illərlə gözlədiyim o gün yaxındadır. Geriyə dönüş yoxdur, arzum budur ki, Vətən uğrunda savaşda ilk şəhid mən olum".

Sentyabrın 27-də Vətən müharibəsi başlananda Mehmanın rəhbərlik etdiyi tabor Murov yüksəkliyini götürməli, düşməni oradan təmizləməli idi. Səhər tezdən Mehman şəxsi heyət qarşısında çıxış edərək deyib: "Biz heç vaxt məğlub olmuruq. Biz ya şəhid, qazi, ya da qalib oluruq. Möhkəm durun, biz qalib gələcəyik!".

Mehmanın taboru ilk hücuma keçənlərdən oldu. Mehman qabaqda, şəxsi heyət arxasınca gedirdi. Ordumuzun gücü həmlələrinə dözməyən düşmən geri çəkilirdi. Düşmən gülləsi gizirlərdən birinin həyatına son qoydu. Cəsur komandir tez özünü ona çatdırdı. Həmin anda namərd düşmənin atdığı mərmi nəticəsində "Murov qartalı" Mehman da qəhrəmancasına həlak oldu. Arxadan köməyə gələn hərbçilərimiz düşmənin texnikasını, xeyli canlı qüvvəsini məhv etdilər. Yüksəkliyi ələ keçirib igid komandirin qisası yerindəcə alındılar.

O, əsl vətənpərvər kimi, torpaq, Vətən yolunda uca şəhidlik məqamına yüksəldi. Bu gün Mehman doğma Ürgə kəndində Vətən müharibəsinin şəhidləri ilə yanaşı uyuyur. Nuray adlı 7 yaşlı yeganə övladı yadigar qalıb.

Polkovnik-leytenant Mehman Şirvanov ömrünün 23 ilini Milli Ordunun sıralarında Vətənə sədaqətlə xidmət edib. Müdafiə Nazirliyi tərəfindən beş dəfə "Qüsursuz xidmətə görə" medalı, Milli Ordumuzun yaradılmasının 90, 95 və 100 illik yubiley medallları, çoxlu fəxri fərman, təşəkkürnamələrlə təltif olunub. Ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə o, ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif olunub.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Xalqımız Qələbə təşnəsi idi...

## *Həmsöhbətimiz Vətən Müharibəsi Qəhrəmanı, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi, polkovnik Anar Mirzəyevdir*

**Anar Mirzəyev 1982-ci il oktyabr ayının 25-də İsmayıllı rayonunda anadan olub. Heydər Əliyev adına Ali Hərbi Məktəbi bitirdikdən sonra 2004-cü ildən motoatıcı ixtisası üzrə zabit kimi hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmət edib. Qulluq borcunu şərəflə yerinə yetirib. 3-cü, 2-ci və 1-ci dərəcəli "Qüsursuz xidmətə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və digər medallarla təltif olunub. Prezident İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. İkinci dərəcəli müharibə əlilidir. Döyüşlər zamanı dəfələrlə yaralanan polkovnik müalicədən sonra dərhal döyüş xəttinə qayıdıb. Qəhrəmanla Böyük Zəfərimizin 5 illiyi ilə əlaqədar söhbət etdik, xatirələrini dinlədik.**

**– Cənab polkovnik, möhtəşəm Qələbəmizlə başa çatan Vətən müharibəsi yaddaşınızda necə qalıb?**




– Atəşkəs olsa da, dinc durmayan, tez-tez silahlı təxribatlar törədən düşmənə tutarlı cavab vermək üçün Ali Baş Komandan İlham Əliyevin əmrini səbirsizliklə gözləyirdik. Nəhayət, 2020-ci il sentyabrın 27-də Füzuli rayonu ərazisində döyüşə başladıq. Müharibənin ən ağır anları əsasən ilk günlər oldu. Düşmən 30 ilə yaxın zəbt etdiyi həmin yerlərdə çox güclü mühəndis-istehkam işləri görmüşdü. Bizim əsas üstünlüyümüz isə sonsuz vətən sevgimizin, yüksək döyüş rəşadətimizin və təcrübəmizin olması idi. Şəxsi heyətə deyirdik ki, müharibədə qələbə qazanmaq xalqımızın haqqıdır, bizim isə müqəddəs borcumuz bir vətənpərvər əsgər olaraq bunu həyata keçirməkdir. Buna görə də sona qədər vuruşaraq işğal altında olan torpaqlarımızı azad etməliyik.

**– Gərgin gedən döyüşlərdə 3 dəfə yaralanmısınız. Bunlar hansı şəraitdə oldu?**

– 2020-ci il sentyabrın 30-da döyüşlərin çox ağır bir anında ilk dəfə yaralandım. Düşmənin mərmisi yanımıza düşdü və qəlpənin biri boğazıma dəydi. Bir anlıq hiss etdim ki, artıq həyatımın sonudur, mən də şəhid oluram... Döyüşlərin son dərəcə qızğın vaxtı olduğundan şəxsi heyətə dayaq olmaq üçün tələsik boğazıma sarğı qoyulan kimi ayağa qalxaraq güllə-güllə dedim ki, narahat olmayın, heç vaxt düşmən gülləsi bizi yıxa bilməz. Sona qədər qəhrəmancasına döyüşərək Şuşaya getməliyik.

**– Zabit və əsgərlərin hamısı Şuşaya can atırdı...**

– Əvvəlcədən bilirdik ki, hər bir əsgər Ali Baş Komandan, Prezident İlham Əliyevin əmrinə rəşadəti və qanı ilə cavab verməyə hazırdır. Yaralı halda müraciətimə şəxsi heyətin alqış sədaları məni çox sevindirdi və hər birimizin qələbə əzmini yüksəltdi. Füzulidə yerləşən hospitalda gecə saat 1-də rentgen olunduqdan sonra dedilər ki, qəlpə düz nəfəs borusunun yanından keçərək şah damarın üstündə dayanıb. Həkim narahat oldu ki, qəlpəni çıxartmağa ehtiyat edirəm, şah damar zədələnsə, bunun qarşısını ala bilmərik. Sızıldaya-sızıldaya xahiş etdim ki, nəzərə alın, təcili şəxsi heyətin yanına qayıtmalıyam, döyüş təzə başlayır.

**– Bəs yaralı vəziyyətdə necə döyüşə bildiniz?**

– Bizim bir məqsədimiz və bir yolumuz var idi: Vətəni düşməndən azad etmək, bu yolda şəhid olmaq. Çətinliklə də olsa, döyüşə atıldım. İşğal altında olan Füzuli rayonunun xeyli hissəsini azad etdikdən sonra Xocavənd istiqamətində irəliləyirdik. Qırmızı Bazar istiqamətində döyüşə girməli idik. Düşmən isə məğlub olduğunu gördüyü üçün özünü itirdiyindən hətta zirehli texnikaya atılan raketləri tək hədəf olan əsgərə atırdı...

Birdən güclü uğultu hiss etdim. Elə bildim ki, raket başımı bədənimdən ayırdı. Yerdən qalxan kimi yıxıldım. Mərmi qəlpəsi ayağımın bir hissəsini aparmışdı. Gözlərim tutulmuşdu, elə hiss etdim ki, artıq ayağım yoxdur. Bir müddət komada qaldım. Ayılanda hospitalda həkimlərin əhatəsində olduğumu gördüm. Birdən-birə düşündüm ki, bəlkə, ermənilərin əlindəyəm, çünki səs eşitsəm də, nə deyildiyini anlaya bilmirdim. Sonra gördüm ki, Bakıda hərbi hospitaldayam. Ayılan kimi əlim və ayağım barədə düşündüm və soruşdum. Həkim dedi ki, ayağın yerindədir... əlimə gəlincə isə bir az fasilə verdi. Dedim ki, ayağımın və əlimin olması mənim üçün o qədər də maraqlı deyil, təki Vətən sağ olsun. Dedilər ki, qolun yerindədir, yaxşı olacaq, sağalacaq, amma barmaqların qırılıb. Qolumu da amputasiya etmək istəyiblər. Birinci gecə ilk əməliyyat 18 saat davam edib. Artıq nəbzin itmişdi və qayıtdıqdan sonra qolunu kəsməyiblər. Sağ olsun həkimlərimiz, çətinliklə də olsa məni həyata qaytara biliblər.

**– "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görülməyiniz harada eşitdiniz və ilk reaksiyanız necə oldu?**

– Hospitalda reanimasiyadan çıxdıqdan sonra yavaş-yavaş özümə gəlirdim. Sargı otağı palata ilə üzbəüz olduğundan, bir dəfə həkimdən xahiş etdim ki, istəyirəm sarğıya özüm gedim. Birtəhər razılaşdı. Tibb işçilərinin müşayiətilə divardan tuta-tuta getdim. Palataya qayıdanda gördüm ki, orada xeyli həkim və tibb işçisi toplaşıb. Məni görən kimi alqışladılar. Əvvəlcə fikirləşdim ki, yəqin yeriyə bildiyimə görə sevinirlər. Sonra dedilər ki, möhtərəm Prezidentimiz İlham Əliyevin sərəncamı ilə sizə "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib. Sözün düzü, ilk andaca çox qürurlandım və fəxr etdim ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qələbə qazanan qalib xalqın qəhrəmanı olmuşam.

**– Döyüş yoldaşlarınızla görüşürsünüzmü?**

– Bəli, birmənalı olaraq. Özü də öncə şəhidlərimizi böyük ehtiramla yad edirik. Müharibə dövründə yaşadığımız ağrıları, qazandığımız uğurları fəxrlə xatırlayırıq. Şəhidlərimizin ailələrini, övladlarını və valideynlərini yad edirik. Bununla da onların daim əziz tutduğumuz ruhlarına ehtiramımızı ifadə edirik. Şəhidlərimizin xatirəsini uca tutmaqla ailələrinə mənəvi dayaq olmağa çalışırıq.

**– Şəhid ailələrinə, qazilərə göstərilən qayğı barədə nə deyərdiniz?**

– Birmənalı şəkildə deyə bilərəm ki, dövlət başçısı tərəfindən hər bir şəhid ailəsinə və qazilərə hərtərəfli qayğı göstərilir, onların bütün problemləri yerindəcə həll olunur. Bu istiqamətdə görülən məqsədyönlü tədbirlər məmnunluq hissi ilə qarşılanır. Mütəmadi ziyarət etdiyim şəhid ailələri bu minnətdarlığı hər dəfə vurğuladıqda xüsusi fəxarət hissi keçirirəm. Hər birimiz dövlətimizin bu humanist siyasətindən son dərəcə razıyıq.

Biz də Həmkarlar İttifaqı Təşkilatının və mənim təşəbbüsümlə hər zaman şəhid ailələrinə mənəvi dayaq olmağa çalışırıq. Görüşlərdə şəhidlərimizin döyüş rəşadəti barədə övladlarına ətraflı geniş məlumat verərək onları sevindiririk. Bu səbəbdən də hər dəfə döyüş yoldaşlarımızla söhbətlərimizdə bu barədə ətraflı danışır və şəhidlərin qəhrəmanlığını uca tutmağa çalışırıq. Çünki mənəvi borcumuz olaraq hər bir şəhidimizin qəhrəmanlığını gələcək nəsillərə çatdırmaqla xalqımızın qəhrəmanlıq ruhunu əbədi qorumalıyıq.

***Söhbəti yazdı:***
***Mikayıl NƏRİMANOĞLU***
***XQ-nin bölgə müxbiri***

# Qarabağ zəfərimizin salnaməsi Pakistanda

**Pakistan Milli Assambleyasında (PMA) Bakı Şəhər İcra Hakimiyyəti və AMEA A.Bakıxanov adına Tarix İnstitutunun birgə layihəsi olan, 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbəmizə həsr edilən "Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru" kitabının urdu dilində nəşrinin təqdimatı keçirilib.**



Mərasimdə PMA-nın vitse-spikeri Syed Ghulam Mustafa Şah, ölkənin federal kommunikasiya naziri Abdul Alim Xan, federal hüquq və ədliyyə naziri Azam Nazir Tarar, federal informasiya və yayım naziri Ataullah Tarar, habelə Pakistan-Azərbaycan Parlamentlərarası dostluq qrupunun üzvləri, Milli Assambleyanın komitə sədrləri, senatorlar və millət vəkilləri, xarici ölkələrin səfirləri, ictimaiyyətin tanınmış üzvləri, tarixçi-alimlər, QHT və KİV nümayəndələri və bu ölkədə yaşayan Azərbaycan vətəndaşları iştirak ediblər.

Əvvəlcə şəhidlərimizə ehtiramın əlaməti olaraq onların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, "Qurani-Kərim"dən dualar oxunub, ölkəmizə və xalqımıza əmin-amanlıq, sülh, inkişaf və tərəqqi arzulanıb. Sonra Azərbaycan və Pakistanın dövlət himnləri səsləndirilib və iki ölkə arasındakı qardaşlıq münasibətlərinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov İkinci Qarabağ müharibəsinin şanlı tarixindən bəhs edərək Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın parlaq zəfər çaldığını diqqətə çatdırıb.

İki ölkə arasında qardaşlıq münasibətlərindən bəhs edən səfir bildirib ki, Pakistan həmişə regional və beynəlxalq platformalarda Azərbaycanın ədalətli mövqeyini hərtərəfli şəkildə dəstəkləyib.

Natiq kitabın urdu dilində tərcümə edilməsində əməkdaşlığa görə Muslim İnstitutu, Azərbaycan Ticarət Evi, Pakistanın Milli Dilin Təbliği İdarəsi və Milli Assambleyanın rəhbərliyinə təşəkkür edib.

Tədbirdə Syed Ghulam Mustafa Şahın və Türkiyənin Pakistandakı səfiri İrfan Nəziroğlunun çıxışları dinlənilib.

Kitab tədbirdə iştirak edən qonaqlara, o cümlədən Pakistan Milli Assambleyasının kitabxanasına təqdim edilib və bu ölkənin beyin mərkəzlərinə, milli və digər kitabxanalara, ali təhsil ocaqlarına göndərilib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

# Alban memarlığı yadigarları xalqımızın mədəni irsidir

## *Bu abidələr milli kimliyimizin daş pasportudur*

**Vətənimiz minilliklər boyu mədəniyyətlərin, sivilizasiyaların, dinlərin qovuşduğu ərazi olub. Qafqazın bu qədim torpaqları müxtəlif etnos və fərqli dinlərin nümayəndələrinin birgəyaşayışına şahidlik edib, elə bu baxımdan Azərbaycan torpaqları əsrlər boyu multikulturalizm məkanı sayılıb.**

Xalqımızın Azərbaycanın quzeyində yaratdığı ən qədim dövlətlərdən biri Qafqaz Albaniyası olub. Tarixdən öyrənirik ki, paytaxtı Qəbələ olan bu qədim dövlət eramızdan əvvəl IV əsrdən etibarən Qafqazda mühüm siyasi, dini və mədəni mərkəzə çevrilib, həm strateji mövqeyi, həm də dini müxtəlifliyi ilə seçilib. Burada bütpərəstlik, xristianlıq, İslam dini bir-birini əvəz edib. Albaniya eramızın IV əsrində xristianlığı qəbul edən ilk dövlətlərdən olub. Elə bu dövrdə də Qafqaz Albaniyasında xristian memarlığının əsası qoyulub. Alban-xristian memarlıq mədəniyyətinin izləri bu gün də Azərbaycanın müxtəlif bölgələrində qorunub saxlanılır.



*Gəncəsər*

Qəbələ şəhəri, Şəkinin dağ ətəkləri, Kiş kilsəsi, Qaxın Ləkit kəndi, Oğuzun ətraf kəndləri, Qax rayonundakı Kürmük məbədi və bu dövrün canlı şahidləridir. Albaniyanın paytaxtı olmuş Qəbələdə aparılan arxeoloji qazıntılar nəticəsində kilsə qalıqları, mozaikalar, ibadətgahlar və müxtəlif dini rəmzlər aşkar edilib. Ərazidəki tapıntılar göstərir ki, şəhər həm zərdüştilik, həm xristianlıq, həm də sonrakı dövrlərdə islam mədəniyyətinin mərkəzi olmuşdur.

***Bu barədə oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının XII Zirvə Görüşündə ölkə başçımız dedi: "Qəbələ geniş coğrafiyanı əhatə edən, eramızdan əvvəl IV əsrdə əsası qoyulmuş və eramızın VIII əsrinə qədər mövcud olmuş Qafqaz Albaniyasının paytaxtı idi".***

Ermənilər uzun illər ölkəmizdəki bir çox alban-xristian memarlıq abidələrini öz adlarına çıxmışlar. Qafqaz Albaniyasının mədəni və dini mərkəzlərindən olan Qarabağda tikilmiş abidələr qədim dövrdə xristianlığın yayılmasında mühüm rol oynayıb, yerli əhali gəlmə ermənilərdən fərqli olaraq, türk mənşəli və Qafqaz dil qrupuna mənsub icmalardan ibarət olub. XIX əsrdə Rusiya imperiyası tərəfindən aparılan məqsədli köçürmə siyasəti nəticəsində həmin ərazilərdə yaşayan alban xristianları qriqoryanlaşdırılıb, erməniləşdirilib. Qafqaz Albaniyasına məxsus bir çox abidələr "erməni monastrı" kimi təqdim olunub. Halbuki bu abidələrin memarlıq strukturu, planlaşdırılması və bədii tərtibatı alban mənşəli olduğunu sübut edir.



*Ağoğlan*

Tarixi mənbələr onu deməyə əsas verir ki, türk tayfalarının Albaniya dövlətinin idarə olunmasında, onun mədəniyyətinin və memarlığının formalaşmasında mühüm rolu olmuşdur. Elə buna görə də bir çox tədqiqatçılar bu dövrün memarlığını "Alban-türk memarlığı" adlandırırlar. Albaniya dövrünün memarlığında xüsusilə dairəvi məbədlər özünəməxsus yer tutur. Bu tip tikililər erkən xristianlıq dövrünə aid olub, yalnız albanlara xas memarlıq üslubu hesab olunur. Alimlərin fikrincə, bu məbədlərin forması və plan quruluşu təsadüfi deyil, onlar günəşə ibadət ənənəsinin izlərini daşıyır. Tikililərdə dairəvi formanın seçilməsi sonsuzluğun, Tanrı nurunun və həyatın əbədi mövcudluğunun simvoludur.

Ən məşhur abidələr sırasında olan Ağoğlan monastr kompleksi (Laçın rayonu) IX əsrdə möhkəm bazalt daşdan tikilib və konstruktiv həlli ilə alban memarlığının incilərindən sayılır. Memarlıqda haça formalı zal planı və sadə fasad kompozisiyası onun tipik alban üslubuna aid olduğunu göstərir. Xudavəng monastrı (Kəlbəcər rayonu) isə çoxgülləli günbəz sistemi və relyefli daş bəzəkləri ilə alban xristian memarlığının ən möhtəşəm nümunələrindəndir. Amaras monastrı da (Xocavənd rayonu) Albaniya xristianlığının banilərindən Müqəddəs Qriqorisin fəaliyyət dövrü ilə əlaqələndirilir.

Qafqaz Albaniyasının memarlıq incilərindən biri olan Gəncəsər monastrı, alban mədəniyyətinin ən parlaq nümunəsi kimi tarixdə yer alıb. Ağdərə rayonunun Vəngli kəndi yaxınlığında, Xaçın çayının sahilində dağın zirvəsində ucalan bu monumental tikilinin divarındakı daş kitabədə yazılıb: "Yüksək və böyük Arsax ölkəsinin hökmdarı, geniş vilayətin çarı, Böyük Həsənin nəvəsi, Vaxtanqın oğlu, Həsən Cəlal Dövlə və anası Xorişə xatun tərəfindən 1216–1238-ci illərdə inşa edilmişdir".

Bu yazı bir daha sübut edir ki, monastrın əsası Qafqaz Albaniyası hökmdarı Həsən Cəlal Dövlə tərəfindən qoyulub, onun dövründə tikinti və abadlıq işləri geniş vüsət alıb, knyazlığın ərazisi böyüyüb. Onun iqamətgahı ilə Gəncəsər monastrı arasında əlaqə qurulub, biri siyasi hakimiyyətin, digəri isə dinin simvolu olub. 1261-ci ildə monqol-tatar işğalı zamanı Qəzvində qətlə yetirilən Həsən Cəlalın nəşi də oğlu Atabəy tərəfindən Gəncəsərə gətirilərək dəfn edilib. Bu monastr 1511-ci ildən 1836-cı ilədək, yəni Rusiya Sinodunun Alban kilsəsini ləğv etdiyi dövrədək alban xristianlarının dini mərkəzi olub.

***Alban–xristian memarlıq nümunələrinin ermənilər tərəfindən mənimsənilməsi faktı beynəlxalq tarixşünaslığa da məlumdur. Gürcü tarixçisi Aleksandr Çavçavadze özünün "Ermənilər və qan ağlayan daşlar" əsərində bu həqiqəti açıq şəkildə göstərib: "Ermənilər aborigen albanları süni şəkildə qriqoryanlaşdıraraq, vaxtilə sığındıqları Azərbaycan torpaqlarını Hay ölkəsi – Şərqi Ermənistan adlandırırlar".***

Mütəxəssislər qeyd edirlər ki, Alban İncilləri xalqın ictimai, iqtisadi və siyasi həyatının tarixçəsi kimi mühüm əhəmiyyət daşıyıb. Xüsusilə, XIX əsrə qədər qorunub saxlanılan Çanaqçı kilsəsindəki Alban İncili bu baxımdan diqqətəlayiqdir. Həmin nüsxənin ilk və son səhifələrində Alban patriarxı Petrosun (1653–1675) fəaliyyəti, alban icmalarının yaşayış məntəqələri və dini mərkəzləri haqqında məlumatlar yer alıb, alban kilsəsi və katolikosluğunun XVIII əsrə qədər müstəqil şəkildə fəaliyyət göstərdiyi qeyd edilib. Lakin sonrakı əsrlərdə erməni kilsəsi bu faktı gizlətmək üçün məqsədyönlü şəkildə fəaliyyət göstərib. XIX əsrdə üzərində xatirə yazıları olan bütün Alban İncillərinin toplanması, dəyişdirilməsi və məhv edilməsi prosesi sürətlə aparılıb. Çanaqçı kilsəsində saxlanılan qiymətli İncil nüsxəsi də məhz həmin dövrdə yoxa çıxıb.

Müasir dövrdə erməni tarixçiləri iddia edirlər ki, Qarabağ və ətraf ərazilərdəki monastr və kilsələrin üzərindəki yazılar qədim dövrlərdən "əllə qazılmış" orijinal epiqrafik məlumatlardır. Onların bu iddiaları beynəlxalq simpoziumlarda, konfranslarda və mədəni irslə bağlı müzakirələrdə xüsusi olaraq vurğulanır. Lakin müstəqil tədqiqatlar, o cümlədən Azərbaycan alimlərinin və Qafqaz tarixçilərinin araşdırmaları sübut edir ki, bu yazıların bir çoxu sonradan əlavə edilmiş, daşıyıcı səthlərdəki təbəqələr dəyişdirilmiş, hətta bəzi hallarda orijinal alban kitabələrini tamamilə silərək onların yerinə erməni yazıları həkk edilmişdir.

***AMEA Arxeologiya və Antropologiya İnstitutunun İslam dövrü arxeologiyası şöbəsinin müdiri, "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi İdarə Heyətinin üzvü, tarix elmləri doktoru, professor Qafar Cəbiyev bu barədə deyir:***

– Ermənistan tərəfindən Azərbaycanın Qarabağ bölgəsinin 30 il ərzində işğal altında saxlanılması, ermənilər tərəfindən şəhər və kəndlərimizdə törədilən misli-bərabəri olmayan vandalizm aktlarının acı mənzərəsi də bizə çox yaxşı bəllidir. Erməni işğalı nəticəsində Qarabağın şəhər və kəndləri İkinci Dünya müharibəsi zamanı nüvə silahından istifadə etməklə viranəyə çevrilmiş



*Kiş kilsəsi*

Naqasaki və Xirosimada olduğundan daha dəhşətli dağıntı və fəlakətlərə məruz qalıb. Xalqımıza məxsus tarixi-mədəni irs dağıdılaraq məhv və talan edilib. Təəssüf ki, dünyanın bir sıra dövlətləri və nüfuzlu beynəlxalq təşkilatları 30 il ərzində bütün bunları görməzliyə vurdu, Azərbaycan dövlətinin və xalqımızın sülhə çağırışları ciddiyə alınmadı. Beləliklə, Azərbaycan işğal altında olan ərazilərini hərbi yolla azad etmək məcburiyyətində qaldı və Azərbaycan Ordusu bu missiyanı şərəflə yerinə yetirdi.

Artıq Qarabağımızda quruculuq dönəmi başlayıb. İnsanlar 30 illik həsrətdən sonra öz ata-baba yurdlarına dönürlər. Əfsuslar olsun ki, bəzi qara qüvvələr bundan heç də məmnun deyillərmiş! Bu dairələr işğalçı dövlət olan Ermənistanı silahlandırmaqla Cənubi Qafqazda növbəti müharibə ocağı yaratmaq yolu tutublar. Sözdə demokratiya və beynəlxalq hüquqdan dəm vuran bəzi dövlətlər və beynəlxalq təşkilatlar Azərbaycanı guya ki, Qarabağdakı xristian irsini məhv etməkdə ittiham edirlər. Müharibə canilərini siyasi məhbus kimi təqdim etməklə Azərbaycana təzyiq edirlər.

Bizi ittiham edən cənablar, qoy gəlib baxsınlar ki, öz gözlərilə görsünlər ki, Qarabağda mədəni irsi kimlər dağıdıb?!! Bilsinlər ki, dağıdılan irs kimə məxsusdur?!! Onu da görsünlər ki, Bakının və Şuşanın lap mərkəzində erməni kilsələrinin bir daşına belə toxunulmayıb. Cənablar, niyə gəlmirsiniz?! UNESCO niyə gəlmir?! Ona görə ki, Qarabağda görəcəkləri onların riyakar bəyanat və dəyərləndirmələrindən tam fərqlidir.

Qarabağda ermənilər tərəfindən vandalcasına məhv və talan edilmiş mədəni irs yalnız Azərbaycana məxsus deyil, həm də dünya mədəni irsinin ayrılmaz bir parçasıdır.

***Ləman TƏHMƏZ***
***XQ***

# Görkəmli şərqşünasın xatirəsi yad edildi

**AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Şərqşünaslıq İnstitutunun kollektivi və respublika elmi ictimaiyyətinin nümayəndələri oktyabrın 10-da görkəmli şərqşünas, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın anadan olmasının 86-cı ildönümündə Fəxri xiyabanda alimin məzarını ziyarət edib, xatirəsini dərin ehtiramla anıb, məzarı üzərinə əklil qoyublar.**



AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli professor Aida İmanquliyevanın Azərbaycan şərqşünaslıq elmində böyük ənənələr qoyduğunu, AMEA-nın Şərqşünaslıq İnstitutunda ədəbiyyatşünaslıq istiqamətinin ən böyük nümayəndəsi olduğunu, bu istiqaməti elmi məktəbə çevirdiyini deyib. O bildirib ki, sovetlər dövründə dövlət siyasətinin xaricdə olan mühacirlərə mürtəce, burjua kimi baxdığı bir zamanda professor Aida İmanquliyeva mühacirət ədəbiyyatını tədqiq edib, Azərbaycanda ərəb mühacirət ədəbiyyatı haqqında mükəmməl əsərlər yaradıb.

Akademik hazırda Aida İmanquliyevanın ənənələrinin davam etdirildiyini, mühacirət ədəbiyyatı haqqında müxtəlif institutlarda tədqiqatlar aparıldığını, Şərqşünaslıq İnstitutunun bu sahədə çox böyük işlər gördüyünü qeyd edib. Bildirib ki, vaxtilə 1980–1990-cı illərdə Aida xanımın açdığı yol bu gün elmin reallığına çevrilib. Alimin yeni davamçıları, ardıcılları yetişib. Bu gün Aida xanım elmi-mənəvi həyatını yaşamaqda davam edir.

AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva çıxışında Aida İmanquliyevanın öz fundamental tədqiqatları ilə təkcə Azərbaycan şərqşünaslığını deyil, eyni zamanda, dünya şərqşünaslığını zənginləşdirdiyini, inkişaf etdirdiyini bildirib. Aida xanımın həyatdan erkən getməsinin onun həmkarlarını və tələbələrini hədsiz kədərləndirdiyini və sarsıtdığını qeyd edən institut rəhbəri alimin əziz xatirəsinin onların qəlbində əbədi yaşayacağını vurğulayıb.

AMEA-nın Qadınlar Şurasının sədri, professor Rəna Mirzəzadə, qurumun İdarə Heyətinin üzvü Zərifə Quliyeva, "Odlar yurdu" Universitetinin rektoru, professor Əhməd Vəliyev Aida İmanquliyevanın Azərbaycan ərəbşünaslığına böyük töhfələr verdiyini söyləyib, görkəmli alimin həyatdan vaxtsız getməsinin təkcə şərqşünaslığın deyil, bütövlükdə, ölkə elminin böyük itkisi olduğunu qeyd ediblər.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Xalq artisti Əminə Yusifqızı son mənzilə yola salınıb




**Dünən Təzəpir məscidində Xalq artisti Əminə Yusifqızı ilə vida mərasimində Mədəniyyət Nazirliyinin rəsmiləri, mərhumun ailə üzvləri, sənət dostları və ictimaiyyət nümayəndələri iştirak ediblər.**



Mədəniyyət nazirinin müavini Murad Hüseynov bildirib ki, Əminə Yusifqızı həm gözəl sənətkar, həm də gözəl insan olub. Qeyd edib ki, onun yaradıcılığı və insani keyfiyyətləri həmişə yaddaşımızda yaşayacaq.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli Əminə Yusifqızının Azərbaycan musiqi və mədəniyyətinə misilsiz töhfələr verdiyini deyib. Mərhumun sənət dostları – Xalq artistləri Şəfiqə Məmmədova, Şükufə Yusupova, Təranə Muradova, Yeganə Axundova, Hacı İsmayılov, Brilyant Dadaşova, Əməkdar incəsənət xadimi Cəmil Quliyev Əminə Yusifqızının xatirəsinin xalqımızın qəlbində yaşayacağını söyləyiblər.

Bildirilib ki, Əminə xanım həm böyük sənətkar, həm də səmimi və mehriban insan idi. Onun səsi, ifası və yaradıcılığı xalqımızın yaddaşında dərin iz buraxıb. O, xalqımızın sevgisini qazanmış nadir sənətkarlardandır.

Vida mərasimindən sonra Xalq artisti Əminə Yusifqızı Bakının Yasamal rayonunda, "Qurd qapısı" qəbiristanlığında dəfn olunub.

***XQ***

*Beynəlxalq həyat*

# İsrail atəşkəsi qəbul etdi



**İsrail və HƏMAS arasında atəşkəs razılaşması əldə olunub. Razılaşma Misirdə keçirilən danışıqların nəticəsində formalaşıb və onun icrası artıq həyata keçirilməyə başlanıb. Prezident Donald Trampın sözlərinə görə, oktyabrın 13-də HƏMAS tərəfindən 2023-cü ilin 7 oktyabr hadisələri zamanı girov götürülən bütün sağ qalan şəxslər azad ediləcək, İsrail ordusu isə əvvəlcədən razılaşdırılmış xəttə çəkiləcək. Bu zaman İsrail tərəfi Qəzza sektorunun əvvəlki nəzarətində olan ərazisinin təxminən 20 faizindən imtina edəcək.**

Razılaşma barədə ilk rəsmi açıqlamanı Prezident Donald Tramp verib. ABŞ lideri bunu 9 oktyabr gecəsi, ictimai-siyasi dairələrin nümayəndələri ilə keçirdiyi görüş zamanı bəyan edib. Daha sonra Tramp "Truth Social" sosial şəbəkəsi üzərindən yayımladığı açıqlamada bildirib: "İsrail və HƏMAS sülh planımızın ilk mərhələsini imzalayıblar. Bu, girovların tezliklə azad ediləcəyi və İsrail ordusunun atəşkəs xəttinə çəkiləcəyi anlamına gəlir. Bu, uzunmüddətli və davamlı sülhə doğru ilk addımdır." ABŞ Prezidenti, həmçinin Qətər, Misir və Türkiyənin vasitəçilik səylərini yüksək qiymətləndirib.

Prezident Tramp "Fox News" telekanalına verdiyi müsahibədə bildirib ki, girovlar və həlak olanların cəsədləri yaxın günlərdə İsrailə qaytarılacaq. İsrail mənbələrinin məlumatına görə, söhbət 20 sağ qalan və 28 həlak olmuş vətəndaşın qaytarılmasından gedir. Misirdə keçirilən danışıqların üçüncü günü razılaşmanın əsas müddəaları 9 oktyabrda İsrail hökumətinə təqdim edilib. İsrailin Baş naziri Benyamin Netanyahu sənədi dəstəklədiyini bəyan edərək deyib ki, əldə olunan nəticə ordunun göstərdiyi hərbi təzyiqin və əsgərlərin fədakarlığının nəticəsidir.

Razılaşmaya əsasən, İsrail ordusu bölmələrinin geri çəkilməsi üçün 24 saat vaxt ayrılıb. İsrail ordusunun məlumatına əsasən, 10 oktyabr saat 12:00-dan etibarən Qəzza sektorunda atəşkəs qüvvəyə minib. Bundan sonra İsrail qüvvələri yeni dislokasiya xətləri boyunca yerləşməyə başlayıblar. ABŞ mənbələri bildirir ki, geri çəkildikdən sonra İsrailin nəzarətində Qəzza sektorunun 53 faizi qalacaq. HƏMAS isə bu mərhələdən sonra 72 saat ərzində girovları azad etməlidir. Qətər nəşri "Əl-Ərabi əl-Cədid"in məlumatına görə, həlak olan girovların cəsədləri mərhələli şəkildə İsrailə qaytarılacaq. Sazişin icrasına ABŞ, Misir, Qətər və Türkiyə zəmanət veriblər. Bununla belə, HƏMAS nümayəndələri münaqişənin yenidən alovlana biləcəyindən narahat olduqlarını bildiriblər.

İsrail ordusunun Baş Qərargah rəisi Eyal Zamir qüvvələrə təhlükəsizlik tədbirlərinin artırılması və istənilən ssenariyə hazır olmaq barədə göstəriş verib. Ordunun mətbuat xidməti bəyan edib ki, qüvvələrin dislokasiyası siyasi rəhbərliyin təlimatları və razılaşmanın mərhələlərinə uyğun şəkildə həyata keçiriləcək.

ABŞ Mərkəzi Komandanlığı (CENTCOM) İsrail Müdafiə Qüvvələrinin (CAXAL) Qəzza sektorunda qoşunların birinci mərhələdə geri çəkilməsini təsdiqləyib. ABŞ Prezidentinin Qəzza üzrə xüsusi nümayəndəsi Stiv Uitkoff "X" üzərindən bildirib: "İsrail ordu qüvvələrinin geri çəkilməsinin ilk mərhələsi başa çatıb, girovların azad edilməsi üçün 72 saatlıq müddət başlayıb".

***Səbuhi MƏMMƏDOV***
***XQ***

**Xankəndi şəhərində "Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi" layihəsi çərçivəsində "Bootcamp" keçirilib. Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi və Qarabağ Universitetinin birgə təşkilatçılığı ilə keçirilən "Bootcamp"ın əsas məqsədi aqrar sahədə süni intellekt və rəqəmsal texnologiyaların tətbiqini təşviq etmək, gənclərin bu istiqamətdə bilik və bacarıqlarını artırmaq, azad edilmiş ərazilərin aqrar potensialı ilə yaxından tanışlığına şərait yaratmaq olub.**

# Qarabağda "rəqəmsal kənd", "aqrar süni intellekt" məclisi



"Bootcamp"da 20-yə yaxın ali təhsil müəssisəsini təmsil edən tələbələr, həmçinin 10-a yaxın akselerasiya və inkubasiya mərkəzinin nümayəndələri iştirak edib. Proqram iştirakçılara kənd təsərrüfatında innovativ həllərin real mühitdə öyrənilməsi, texnoloji yeniliklərlə yerində tanışlıq və təcrübə qazanmaq imkanı yaradıb.

Proqram çərçivəsində təşkil edilən infotur zamanı iştirakçılar Suqovuşan su anbarına və Xankəndi Tikiş Fabrikinə səfər ediblər. Onlara bölgənin strateji su ehtiyatlarının idarə olunması, aqrar infrastrukturun bərpası prosesində rəqəmsal texnologiyaların rolu və sənaye müəssisələrinin kənd təsərrüfatı istehsalına inteqrasiyası barədə ətraflı məlumat təqdim olunub.

İştirakçılar həmçinin aqrar sahədə müasir texnoloji həllərin tətbiqinin məhsuldarlığın artırılması, resursların səmərəli istifadəsi və ixrac imkanlarının genişlənməsi baxımından əhəmiyyətini yerində müşahidə ediblər.

"Bootcamp"ın keçirilməsi gənclərin innovativ texnologiyalar sahəsində biliklərinin artırılması ilə yanaşı, azad edilmiş ərazilərdə aqrar inkişafın dəstəklənməsi və bu prosesə yeni nəsil mütəxəssislərin cəlb edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Qeyd edək ki, cari il ərzində Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı və ali təhsil müəssisələrinin iştirakı ilə Zəngilan, Xaçmaz, Şamaxı rayonlarında və Xankəndi şəhərində bootcamp təşkil olunub.

***Müşfiq MİRZƏ***
***XQ***

# Mənəvi dəyərləri yaşadaq və tanıdaq



**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunda (MDTF) Komitə yanında İctimai Şuranın üzvləri ilə görüş keçirilib.**

MDTF-nin icraçı direktoru Vüsal Göyüşov bildirib ki, fondun əsas məqsədi milli-mənəvi dəyərlərin qorunması, cəmiyyətdə sağlam dini mühitin formalaşması, gənc nəsildə vətənpərvərlik duyğusunun möhkəmləndirilməsinə töhfə verməkdir. Fond tərəfindən müxtəlif maarifləndirici layihələr, sosial kampaniyalar, elmi-praktik konfranslar həyata keçirilir. Eyni zamanda, bölgələrdə dini icmalar, gənclər və təhsil müəssisələri ilə əməkdaşlıq çərçivəsində mənəvi dəyərlərin təbliği istiqamətində ardıcıl fəaliyyət göstərilir. O, şura üzvlərini "Hər məsciddə kitabxana" layihəsinin icrasına hazırlıq mərhələsində görülən işlərlə tanış edib. Bildirib ki, layihə artıq 180 məsciddə həyata keçirilib və ilin sonunadək 250-ə çatdırılması nəzərdə tutulur.

İctimai Şuranın sədri Elnur Mustafayev, sədr müavini Səadət Məmmədova, üzvləri Fuad Məmmədov, Cəbi Bəhramov, Nigar Axundova, Tural Əhmədov fondun fəaliyyəti ilə bağlı fikirlərini bölüşərək, bir sıra təklif və təşəbbüslərlə çıxış ediblər. Onlar xüsusilə, "Hər məsciddə kitabxana" layihəsini, Azərbaycan İlahiyyat İnstitutunun tələbələri üçün təsis olunan təqaüd proqramlarını təqdir ediblər. Dini maarifləndirmə prosesində vətəndaş cəmiyyəti institutlarının və ictimai fəalların rolunun artırılmasının əhəmiyyətini vurğulayıblar.

Görüşdə, dövlət-din münasibətlərinin sağlam əsaslar üzərində inkişaf etdirilməsi, gənclərin radikal təsirlərdən qorunması, eləcə də cəmiyyətdə milli həmrəyliyin möhkəmləndirilməsi istiqamətində birgə fəaliyyət imkanları müzakirə olunub.

***XQ***

# Xankəndidə tibbi aksiya

**Bu gün dövlət siyasətinin ən mühüm istiqamətlərindən biri də doğma yurda geri dönən keçmiş məcburi köçkünlərin sağlamlıqlarının təmin olunmasıdır.**

Növbəti sağlamlıq aksiyası Səhiyyə Nazirliyi tərəfindən "Böyük Qayıdış" proqramı çərçivəsində oktyabrın 10-da Xankəndi şəhərində təşkil edilib.

Qarabağ bölgəsində mütəmadi baş tutan belə aksiyalar müxtəlif xəstəliklərin aşkarlanması ilə bağlı əhalinin kompleks müayinələrinin aparılması, tibbi konsultasiyaların verilməsi və sağlamlıq məmnunluğunun təmin edilməsi məqsədilə keçirilir. Eyni zamanda, bu tədbirlər çərçivəsində əhalinin tibbi bilik və məlumatlılıqlarının artırılması məqsədilə sağlam həyat tərzi mövzularında maarifləndirici aksiyalar həyata keçirilir.

Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru İradə Axundovanın başçılığı ilə institutun bir qrup həkim briqadası, o cümlədən pulmonoloq, ftiziatr, kardioloq tərəfindən yerli əhali və bölgədə fəaliyyət göstərən mütəxəssislər üçün ətraflı müayinələr təşkil edilib.




Aksiyada döş qəfəsi orqanlarının rentgeni, xarici tənəffüs funksiyalarının spiroqraf vasitəsilə diaqnostik müayinələr təşkil olunub. Eyni zamanda, Elektrokardioqramma (EKQ), Exokardioqrafiya (EXOKQ), Mantu sınağı və arterial qan qazlarının tərkibinin təhlili aparılıb. Müayinələr nəticəsində səhhətində problem aşkarlanan şəxslərə tibbi məsləhətlər verilib və müvafiq müalicə təyin olunub.

Aksiya zamanı 320-yə yaxın Xankəndi sakini müayinədən keçib.

Onu da qeyd edək ki, Səhiyyə Nazirliyi tərəfindən işğaldan azad olunan digər ərazilərdə də davamlı olaraq maarifləndirici tədbirlərin və müayinə aksiyalarının keçirilməsi nəzərdə tutulub.

***M.MİRZƏ***
***XQ***

Azərbaycan Respublikasının
Elm və Təhsil Nazirliyi

## AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

*aşağıda qeyd olunan vakant vəzifələri tutmaq üçün*

## MÜSABİQƏ ELAN EDİR

1. Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi texnologiyası kafedrası.
2. Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrası.
3. Məktəbəqədər təhsilin pedaqogikası kafedrası.
4. Mülki müdafiə və tibbi biliklər kafedrası.
5. Ümumi pedaqogika kafedrası.
6. Ümumi psixologiya kafedrası.
7. Təhsil menecmenti kafedrası.
8. Ümumi coğrafiya kafedrası.
9. Xarici dillər mərkəzi.

Müsabiqədə iştirak etmək istəyənlərin sənədləri "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın tələblərinə uyğun bu elan qəzetdə və www.adpu.edu.az saytında dərc olunan gündən bir ay müddətində saat 9.00-dan 17.00-a qədər rektorun adına yazılan ərizə ilə birlikdə ADPU-nun insan resursları və kargüzarlıq şöbəsində qəbul edilir.

Əlaqə telefonu: (012) 498-08-16.

Ünvan: AZ-1000 Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi 68.

E-poçt: insan.resurslari@adpu.edu.az

www.adpu.edu.az

***REKTORLUQ***

## "Sumqayıt Tikiş" ASC səhmdarlarının nəzərinə!

23 noyabr 2025-ci il saat 13.00-da "Sumqayıt Tikiş" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. ASC-nin idarəetmə orqanlarının 2024-cü ilə aid maliyyə-təsərrüfat fəaliyyəti barədə hesabatı.
2. Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Nəzərinizə çatdırırıq ki, ASC uzun müddət fəaliyyət göstərməmiş və hazırda da fəaliyyət göstərmir. Bu barədə keçmiş Vergilər Nazirliyinin müvafiq rəsmi sənədi vardır.

Ünvan – Sumqayıt şəhəri, kottec, 24-cü məhəllə, 1-ci keçid 38 A. ASC-nin inzibati binası.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 219 (30913) 11 oktyabr 2025-ci il, şənbə

## İDMAN

### Şahmatçılarımız Ermənistan komandasını məğlub etdilər



**Dünən Gürcüstanın Batumi şəhərində keçirilən şahmat üzrə komandalar arasında Avropa çempionatında VI turun görüşləri keçirilib. Hər iki komandamız püşkə əsasən Ermənistan şahmatçıları ilə qarşılaşıb. Şəhriyar Məmmədyarov birinci taxtada Şant Sarkisyanı məğlub edərək kişilərdən ibarət komandaya 2,5-1,5 hesablı qələbə qazandırıb. Qarşılaşmanın digər üç oyunu heç-heçə başa çatıb.**

Qadınların görüşündə Ülviyyə Fətəliyeva Lilit Mkrtçyana, Gülnar Məmmədova isə Mariya Gevorqyana qalib gəlib. Beləliklə, komandamız ümumi hesabda qalib gəlib – 3-1.

Qeyd edək ki, Azərbaycan millisi müxtəlif yarışlarda dəfələrlə Ermənistan yığmasını məğlub edib, lakin bir gündə iki dəfə qalib gəlməsi ilk dəfədir!

Hazırda kişi şahmatçılarımızın 9, qadınların isə 8 xalı var.

### Meksika Qran-Prisində 11 cüdoçumuz yarışacaq




**Meksikanın Qvadalaxara şəhərində keçiriləcək Qran-Pri turnirində iştirak edəcək cüdo üzrə Azərbaycan yığmasının heyəti açıqlanıb.**

Azərbaycan Cüdo Federasiyasından bildirilib ki, ölkəmiz yarışda 7 çəki dərəcəsində 11 cüdoçu ilə təmsil olunacaq.

Yığmanın heyətində Əhməd Yusifov, Balabəy Ağayev (hər ikisi 60 kiloqram), Ruslan Paşayev, Yaşar Nəcəfov (hər ikisi 66 kiloqram), Hidayət Heydərov, Rəşid Məmmədəliyev (hər ikisi 73 kiloqram), Vüsal Qələndərzadə, Zelim Tçkayev (hər ikisi 81 kiloqram), Murad Fətiyev (90 kiloqram), Zelim Kotsoyev (100 kiloqram), Uşanqi Kokauri (+100 kiloqram) güclərini sınayacaqlar.

Oktyabrın 17–19-da təşkil olunacaq Qran-Pridə 35 ölkədən 248 idmançı (152 kişi, 96 qadın) mübarizə aparacaq.

### Boksçumuzun tarixi uğuru




**Bilalhəbaşi Nəzərov (50 kiloqram) Azərbaycan boks tarixinə düşüb.**

Azərbaycan Boks Federasiyasından verilən məlumata görə, millinin 18 yaşlı idmançısı Bilalhəbaşi Nəzərov (50 kiloqram) tarixi uğura imza atıb. O, Çexiyanın Ostrava şəhərində keçirilən U-19 Avropa çempionatında gənclər arasında 2 dəfə Avropa çempionu titulunu qazanan ilk Azərbaycan boksçusu olub. Bir il öncə Xorvatiyanın Poreç şəhərində qitənin ən güclüsü adına yiyələnən Nəzərov Ostravada da rəqib tanımayaraq, ardıcıl ikinci dəfə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Yığmamızın digər üzvləri Zidan Hümbətov (55 kq) və Sübhan Babayev (60 kq) çempionatı 3-cü yerdə başa vurublar.

Çexiyadakı Avropa çempionatı ölkəmizin qız boksçuları üçün də əlamətdar olub. Belə ki, yarışlarda Banuçiçək Nəsirli (48 kq) gümüş, İlkanə Əhmədova (+80 kq) bürünc mükafata yiyələnib.

***Qabil YUSİFOĞLU***
***XQ***

*11 Oktyabr Beynəlxalq Qızlar Günüdür*

# Bu gün söz qızlarındır



**Hər il oktyabr ayının 11-i ölkəmizdə də Beynəlxalq Qızlar Günü qeyd olunur. BMT-nin 2011-ci ildə təsis etdiyi bu günün məqsədi diqqəti qız uşaqlarının hüquqlarının müdafiəsinə, onların təhsilinə, sağlamlığına və təhlükəsizliyinə yönəltməkdir.**

Dünyanın bəzi ölkələrində qız uşaqları hələ də təhsil almır, erkən nikahlara məcbur edilir, ailədə öz sözlərini deməkdən çəkinirlər. Bu isə cəmiyyətin inkişafına, iqtisadi və mədəni tərəqqisinə mane olur. Bu baxımdan qızların hüquqlarının müdafiəsi, onlara dəstək verilməsi hər bir dövlətin prioritetidir. Ölkəmizdə də gender bərabərliyinin təmin olunması, erkən nikahların qarşısının alınması və ictimai həyatda qadınların aktivliyinin artırılması müsbət nümunələrdəndir.

Beynəlxalq Qızlar Günü bəşəriyyətin gələcəyinə yönəlmiş çağırışdır. Qızların səsini eşitmək, onları dinləmək sabahın daha ədalətli və maarifli dünyasının təməlini qoymaqdır.

Əlamətdar gün münasibətilə redaksiyamızda çalışan xanım əməkdaşlarımızın duyğu və düşüncələrini təqdim edirik.

## Qızların xoşbəxtliyi təhsildən keçir

Qızlarımız toxunduğu hər yeri gözəlləşdirir, səliqə-sahmanı, ağlı və tərbiyəsi ilə daim seçilirlər. Onlar yaxşı təhsil alıb gərəkli peşə sahibi olanda həyat dəyişir. Bu isə cəmiyyətimizin yüksəlişinə yol açır. Əbəs yerə deməyiblər, oğlanlar oxuyanda özünü, qızlar isə ailəsini xilas edir. Savadlı ana tərbiyəli və bilikli övlad, zəkalı nəsil, daha gözəl gələcək deməkdir.

Ümumiyyətlə, təhsil hər bir şəxsin həyatında mühüm rol oynayır. Təhsil almaq təkcə hər hansı bir elmi öyrənmək, peşəyə, ixtisasa yiyələnmək deyil, həm də insanın şəxsiyyət kimi formalaşmasına, dünyagörüşünün genişlənməsinə, sosial mühitin öyrənilməsinə və onun bir parçasına çevrilməsinə təsir göstərir. Bu baxımdan, təhsil hər bir insanın, xüsusilə də qızların həyatında həlledici əhəmiyyət kəsb edir. Ümummilli lider Heydər Əliyev qeyd edirdi: “Biz çalışmalıyıq ki, ali məktəblərdə və texnikumlarda daha çox qadın təhsil alsın, elmi fəaliyyətlə məşğul olsun. Xüsusən, kənddə qadınlar və uşaqlar arasında bədən tərbiyəsi və idmanın daha da inkişaf etdirilməsi problemlərinə biz diqqətimizi xeyli artırmalıyıq”. Dövrünün görkəmli pedaqoqu, publisisti, ictimai-siyasi xadimi Şəfiqə Əfəndizadə yazırdı: “Bir millətin tərəqqisinin göstəricisi, o millətin qadınıdır, buna görə də qadınlar təhsil almalı, maariflənməlidirlər”.

Vaxtilə böyük xeyriyyəçi, Azərbaycanda təhsilin inkişafında mühüm rolu olan Hacı Zeynalabdin Tağıyev deyirdi: “Bir oğlana təhsil verməklə təhsilli bir insan qazanarsınız. Bir qıza təhsil verməklə isə təhsilli bir ailə qazanarsınız”.

Bu misalların sayını artırmaq olar və onların hər birində vacib mesaj var: Qadın təhsilli olmalı, özünü ailədə və cəmiyyətdə təsdiqləməli, həyatın bütün sahələrində aktiv iştirak etməli, rəqabətə dayanıqlı olmalıdır. Nə üçün? Çünki qadınların təhsilinə investisiya qoymaq çox yüksək nəticələr doğurur: yaşayış yaxşılaşır, uşaq və ana sağlamlığı qorunur və qızların təhsilə çıxışı artır. Beləliklə, savadlı, bilikli və peşəkar qadınlar bütün inkişaf faktorlarına müsbət təsir göstərir. Ölkəmizdə qızların təhsilinə olan diqqət bir çox ölkələrdə yoxdur. Bu gün qızlarımıza verilən hüquqlar başqa ölkələrdə yaşayan qızların arzusu, xəyalıdır.

XX əsrdə Azərbaycan qadınları qısa müddət ərzində yüzilliklərə bərabər inkişaf yolu keçdilər ki, bu da onların cəmiyyətdə, ictimai həyatda, ailədəki mövqeyində köklü dəyişikliklərə səbəb oldu. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra qadınların siyasi, eləcə də ictimai müstəvidə rolu xeyli dərəcədə artdı. Konstitusiyamız qarşısında qadınlar və kişilər eyni hüquqlara malik oldular.

Birmənalı şəkildə demək olar ki, Azərbaycanda gender bərabərliyi dövlət tərəfindən ciddi şəkildə təmin olunur.

Təsadüfi deyil ki, 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə qadınlara seçki hüququ verən ilk respublika kimi tarixə düşüb. Həmin dövr üçün ağlasığmaz olan addım həm də Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması prosesinin uzun və şərəfli tarixə malik olmasının göstəricisidir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə qadın problemlərinə daha böyük diqqət yetirilir. Onların hüquq bərabərliyi, cəmiyyətdəki aparıcı rolu 1995-ci ildə qəbul olunmuş Konstitusiyamızda da öz əksini tapır.

Beynəlxalq Qızlar Günündə qızlarımıza, ilk növbədə, xatırladaq:

Mütləq, oxuyun, qızlar! Oxuyun ki, sizi gözləyən, önünüzə çıxan, ayağınıza dolaşan bütün əngəlləri aşa biləsiniz. Əmin olun, bu dünyada qızların bərabər təhsil ala bildikləri, ayrı-seçkiliyə məruz qalmadıqları və həyatları boyu öz qərarlarını verə bildikləri bir gələcək var!

## Qızlar dünyanın yaraşığıdır

**Dünya bəzən boz, soyuq, sükut içində görünür. Amma bir gülüş, baxış, bir qızın zərif səsi hər şeyi dəyişə bilir. Qızlar rəngin, duyğunun, mərhəmətin, sevgiyə olan inamın təcəssümüdür, onların varlığı ilə günlər işıqlanır, hisslər dərinləşir, sükut musiqiyə çevrilir.**

Xanımların gülüşü saf, təbii, içdən gələn bir sevinc kimi bahar çiçəklərinə bənzəyir. Hərəsinin gülüşü bir ruhu isidir, hər birinin baxışı bir hekayə danışır. O baxışlarda həm uşaq saflığı, həm qadın müdrikliyi gizlənir. Dərin dəniz kimi baxışlar insanı düşündürür, bəzən isə bütün sirləri unutdurur.

Qızlar bəşəriyyətin ruhudur, onlar dünyaya sevgi bəxş edirlər. Onların varlığı insanın saf duyğularını oyadır, ürəkləri yumşaldır, ən qaranlıq gecələrə işıq salır. Həyatın incə ipini elə bir ustalıqla toxuyurlar ki, hər kəs o ipdə öz xoşbəxtliyini tapa bilir.

Bəzi ölkələrdə qızların azadlığı əllərindən alınır, ailə və ya cəmiyyətin təzyiqi altında arzuları məhv olur. Ailə qurmağa məcbur edilən qızların taleyində gülüşlər solur, gözlərindəki işıq sönür.

Bir qızın azadlığı dünyaya rəng qatır, həyat ahəng tapır. Onların azad düşünməsi, öz istəklərini ifadə edə bilməsi cəmiyyətin inkişafının göstəricisidir. Azad qızlar azad cəmiyyət yaradır, onun azadlığı bir xalqın, gələcəyin azadlığıdır. Təhsil bu azadlığın açarıdır. Əsrlər boyu maarifpərvər insanlar qızların təhsilinə önəm veriblər, çünki təhsilli qız gələcək nəsilləri də işıqlandırır.

Bəli, qızlar kainatın ən zərif incisi, Tanrının dünyaya bəxş etdiyi ən gözəl rəngdir və bu rənglə bütün bəşəriyyət al-əlvan boyanır. Bir qızın gülümsədiyi yerdə ümid, sevgi, həyat var. Dünyanı gözəlləşdirən, onu cənnət edən də qızlardır.



## Qaranlıqda nur axtaranlar

Qızlar dünyanı sakit görmək istəyirlər, amma bu anlayışın, mərhəmətin sükutudur. Onlar istəyirlər ki, dünya bir az nəfəs alsın, yalanlardan, kin-küdurətdən, müharibələrdən xilas olsun.

Sevgi onlar üçün qışın ən soyuq günündə isti nəfəs, qaranlıq gecədə sönməyən ulduzdur. Onlar istəyirlər ki, sevgi göz yaşlarını silsin, qəlbi sevindirib dünyanı gözəlləşdirsin.

Qızlar dünyanın tərs üzünü çox görüb. Onlar bilirlər ki, hər baharın arxasında qışın sərt soyuğu var. Amma güllü-çiçəkli, ətirli bağçalarda şəfqət toxumu əkirlər. Orada sevgidən ağaclar boy atır, mərhəmətdən bulaqlar çağlayır. Çünki qızlar istəyirlər ki, heç kim göz yaşını gizlətməsin. Baxışlar danışsın, sözlər məlhəm olsun. İnsanlar bir-birinə baxanda görsün, dinləyəndə eşitsin, qəlbdən-qəlbə yol tapsınlar.

Ailə qızların ilk dünyası, ilk sevgisidir. Onlar işığı analarının gözlərində görmək istəyirlər. O baxışda istilik, sevgi, dəstək axtarırlar. Ana qəlbinin ritmində azadlığın səsini duyurlar. Ata qızlar üçün vüqarlı dağ, sarsılmaz dayaqdır. Onun sözlərində hikmət, baxışında etibar görməyi arzu edirlər.

Böyüyürlər, söykənəcək çiyin, ən çətin anların ümid körpüsü olurlar. Çünki qız olmaq kimsə görmədən göz yaşı töküb başını dik tutmaq, qaranlıqda belə nur axtarıb, onu başqaları üçün çıraq etməkdir.

Qız olmaq içində tufan qopsa da gülümsəməkdir. Dünyanın yükünü çiyinlərində daşıyıb, yenə də heç nə olmamış kimi nazlı-nazlı addımlamaqdır. Qız olmaq gecənin qaranlığında öz qorxularınla tək qalmaq, amma sübh işığında yenidən parlaq baxışlarla dünyaya rəng qatmaqdır. Hətta ən qaranlıq yollara belə işıq saçmaqdır.

## Onlar gələcəyə ümidlə baxırlar

Dünya dəyişir, zaman yenilənir, amma bir həqiqət daim qalır: cəmiyyətin inkişafında qızların rolu əvəzsizdir. Bu gün qızların həyata baxışı fərqlidir, onlar karyera qurur, ailə dəyərlərini yaşadır, elmdə, incəsənətdə, idmanda, ictimai həyatda söz sahibidirlər.

Təhsili prioritet hesab edir, özlərini inkişaf etdirməyi həyat tərzinə çevirirlər. Cəmiyyətin onlardan gözləntiləri yalnız “ailə qurmaqla” məhdudlaşmır. Qızların istedadı və potensialı dövlət siyasətində dəstəklənir, müxtəlif sahələrdə çalışmaq üçün onlara hər cür şərait yaradılır. Dövlət proqramları, təqaüdlər, sosial layihələr qızların inkişafına, cəmiyyət həyatında fəal iştirakına geniş imkanlar təqdim edir və bu dəstək onların uğur qazanmasında həlledici rol oynayır.

Qızlar ailəni həyatın ən mühüm dəyəri hesab edirlər. Ana olmaq, ailə qurmaq, nəsil yetişdirmək – cəmiyyətin mənəvi dayaqları məhz bu dəyər üzərində qurulur. Ən önəmlisi, müasir dövrdə qızlar ailə həyatı ilə karyera qurmaq arasında tarazlıq yaratmağı bacarırlar. Onlar sübut edirlər ki, qadın həm peşəkar ola, həm də ailədə sevgi və harmoniya yarada bilər.

Bu ikili rol onların cəmiyyətdəki təsirini daha da gücləndirir. Qızlar sosial ədalət, insan hüquqları, ekoloji problemlər kimi məsələlərə də həssas yanaşırlar. Gənc qadınların baxışı cəmiyyətin daha şəffaf, daha ədalətli və daha humanist olmasına yönəlib. Onlar bu dəyişikliyin sadəcə xəyal deyil, zərurət olduğunu dərk edirlər.

Bu gün qızlar “mən bacararam” demir, “mən edəcəyəm” deyirlər. Onların özlərinə inamı, məqsədyönlülüyü və iradəsi gələcəyi dəyişir. Azərbaycan qızları həm milli-mənəvi dəyərlərə sadiqdir, həm də müasir dünyanın tələblərinə uyğun düşünür. Bu harmoniya tarix boyu güclü qadınlarla tanınan xalqımız üçün yeni bir inkişaf mərhələsi deməkdir. Qızların həyata baxışı gələcəyə ümiddir. Onlar yalnız öz həyatlarını deyil, bütöv cəmiyyətin taleyini formalaşdırırlar. Bu gün onların səsi eşidilir, fikri qiymətləndirilir, uğuru alqışlanır. Çünki güclü qız – güclü ailə, güclü cəmiyyət və güclü dövlət deməkdir.

***Hazırladılar:***
***Mehparə ƏLİYEVA,***
***Elenora HƏSƏNOVA,***
***Ləman TƏHMƏZ,***
***Fidan ƏLİYEVA,***
***Arzu ƏLİYEVA***
***XQ***

## HAVA

### Bakıda yağmursuz, bəzi dağlıq rayonlarda yağış və dolu

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi gündüz mülayim cənub-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 15-18, gündüz 20-24 dərəcə isti olacaq. Atmosfer təzyiqi 760 millimetr civə sütunu, nisbi rütubət isə gecə 75-80, gündüz 55-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturunun gecə 14-17, gündüz 21-26, dağlarda gecə 5-10, gündüz 10-15 dərəcə isti olacağı bildirilir.

***Q.ƏLİYEV***
***XQ***

### ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi Dövlət idarəetməsi və menecment kafedrasının müdiri Xatirə Hüseynovaya anası

**ZƏKİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3516
SİFARİŞ 1950
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00